# Azərbaycan ilə İsrail arasında əlaqələr dostluq, qarşılıqlı etimad, hörmət və dəstəyə əsaslanır

*Əvvəli 1-ci səh.*



Prezident İlham Əliyev Azərbaycanın İsraildə səfirliyinin açılmasını əlaqələrimizin yüksək səviyyədə olmasının göstəricisi kimi qiymətləndirdi və bu əlaqələrin dostluq, qarşılıqlı etimad, hörmət və dəstəyə əsaslandığını vurğuladı. Dövlətimizin başçısı əməkdaşlığımızın gündəliyinin genişləndiyini deyərək Azərbaycan Respublikası Hökuməti ilə İsrail Dövləti Hökuməti arasında Birgə Komissiyanın fəaliyyətini xüsusi qeyd etdi, bunun əlaqələrin şaxələnməsi işinə töhfə verə biləcəyinə ümidvarlığını bildirdi.

Hazırda Azərbaycanda iqtisadiyyatın modernləşdirilməsi prosesinin uğurla həyata keçirildiyini bildirən Prezident İlham Əliyev bu baxımdan texnologiyalar sahəsində, o cümlədən "yaşıl enerji", "ağıllı şəhər" və "ağıllı kənd" konsepsiyaları ilə bağlı təcrübə mübadiləsinin önəmini qeyd etdi.

Dövlətimizin başçısı Ələt Azad İqtisadi Zonasında yaradılmış şərait barədə məlumat verdi, İsrail şirkətlərinin burada da fəaliyyət göstərmələri və yeni layihələrlə çıxış etmələri üçün yaxşı imkanların olduğunu dedi. Həmçinin SOCAR-ın İsraildə karbohidrogen resurslarının istismarında iştirakı imkanlarına baxılmasının da önəmi vurğulandı.

Azərbaycanın İsraildə səfirliyinin açılmasını yüksək qiymətləndirən və bunun ölkələrimiz arasında strateji əlaqələr qurulması işinə töhfə verəcəyinə ümidvarlığını bildirən İsrailin xarici işlər naziri səfirliyin açılmasına görə təşəkkürünü ifadə etdi, İsrail ilə Azərbaycan arasındakı əlaqələrin strateji xarakter daşıdığını vurğuladı. Qonaq dostluq münasibətlərimizin təkcə dövlətlərimiz arasında deyil, xalqlarımız arasında da mövcud olduğunu bildirdi.

Azərbaycana geniş nümayəndə heyəti ilə səfər etdiyini vurğulayan İsrailin xarici işlər naziri turizm sahəsində əlaqələrimizə toxunaraq, ölkəsindən Azərbaycana gələn turistlərin sayının artmaqda olduğunu qeyd etdi. O, ölkələrimiz arasında ticarət dövriyyəsinin artım tempinin müşahidə olunduğunu deyərək, bunun daha da artırılması üçün geniş imkanların olduğunu bildirdi.

Görüşdə iqtisadiyyat, enerji, kənd təsərrüfatı, bərpaolunan enerji, investisiyalar, elm, təhsil, mədəniyyət, turizm, təhlükəsizlik sahələrində və digər sahələrdə əməkdaşlığın inkişafı üçün geniş imkanların olduğu vurğulandı. Həmçinin su resurslarının idarə olunması və dəniz suyunun şirinləşdirilməsi, səhralaşma prosesinin qarşısının alınması, səhra və yarımsəhra şəraitində kənd təsərrüfatının inkişaf etdirilməsi sahələrində İsrailin təcrübəsinin Azərbaycan üçün maraqlı olduğu qeyd edildi.

## "İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında" Konvensiyanın 16 nömrəli Protokolunun təsdiq edilməsi barədə

### Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 95-ci maddəsinin I hissəsinin 4-cü bəndini rəhbər tutaraq **qərara alır:**

"İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında" Konvensiyanın 2013-cü il oktyabrın 2-də Strasburq şəhərində imzalanmış 16 nömrəli Protokolu Azərbaycan Respublikasının müvafiq bəyanatı ilə təsdiq edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 24 fevral 2023-cü il*

## Azərbaycan Respublikası Prezidentinin 2013-cü il 1 noyabr tarixli18 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında Ünvan Reyestrinin fəaliyyətini təmin edən informasiya sistemi haqqında Əsasnamə"də dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikası Prezidentinin 2013-cü il 1 noyabr tarixli 18 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2013, № 11, maddə 1322; 2022, № 8, maddə 866) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında Ünvan Reyestrinin fəaliyyətini təmin edən informasiya sistemi haqqında Əsasnamə"də aşağıdakı dəyişikliklər edilsin:

1. 2.7-ci bəndin birinci cümləsində "Ünvanlar təyin" sözləri "Ünvan məlumatları daxil" sözləri ilə, "ünvanı təyin" sözləri "ünvan məlumatlarını daxil" sözləri ilə əvəz edilsin.

2. 3.3.2-ci yarımbəndə "məlumatları" sözündən sonra "rəqəmsal" sözü əlavə edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 19 aprel 2023-cü il*

## Azərbaycan Respublikasının ərazi bütövlüyünün müdafiəsi ilə əlaqədar yaralananların və şəhid ailələrinin təminatına dəstək fonduna ("YAŞAT" Fondu) maliyyə dəstəyi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikasının ərazi bütövlüyünün müdafiəsi ilə əlaqədar şəhid olmuş şəxslərin ailələrinin və hərbi əməliyyatlar nəticəsində əlilliyi müəyyən olunmuş şəxslərin sosial müdafiəsi sahəsində dövlət tərəfindən həyata keçirilən tədbirlərə əlavə dəstək verilməsi istiqamətində vətəndaş cəmiyyəti təşəbbüslərinin reallaşdırılması üçün müvafiq platformanın yaradılması, bu sahədə şəffaflığın, hesabatlılığın və ictimai nəzarətin təmin edilməsi məqsədilə Azərbaycan Respublikasının Prezidentinin 2020-ci il 8 dekabr tarixli 1203 nömrəli Fərmanı ilə "YAŞAT" Fondu yaradılmışdır. Ötən dövr ərzində Fond əsas missiyasını yerinə yetirmiş, bütün müraciət edən Vətən müharibəsi şəhidlərinin ailə üzvlərinə və əlilliyi müəyyən olunmuş şəxslərə dəstək göstərilmiş, 36.553 müraciət təmin edilmiş, bu məqsədlə Fondun büdcəsindən 75.575.943 manat vəsait təyinatı üzrə xərclənmişdir.

"YAŞAT" Fonduna əlavə dəstək verilməsi məqsədilə Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Azərbaycan Respublikasının ərazi bütövlüyünün müdafiəsi ilə əlaqədar əlilliyi müəyyən olunmuş hərbi qulluqçuların və şəhid olmuş şəxslərin ailə üzvlərinin və dövlət orqanlarının (qurumlarının) işğaldan azad edilmiş ərazilərdə xidməti vəzifələrini yerinə yetirərkən, habelə hərbi əməliyyatlar bitdikdən sonra onların nəticələrinin aradan qaldırılmasında iştirak etməsi nəticəsində əlilliyi müəyyən olunmuş əməkdaşlarının və ya həlak olmuş əməkdaşların ailə üzvlərinin müalicə və psixoloji dəstək xərclərinin ödənilməsi üçün Azərbaycan Respublikasının 2023-cü il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin Ehtiyat Fondundan Azərbaycan Respublikasının ərazi bütövlüyünün müdafiəsi ilə əlaqədar yaralananların və şəhid ailələrinin təminatına dəstək fonduna ("YAŞAT" Fondu) 5,0 (beş) milyon manat vəsait ayrılsın.

2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 19 aprel 2023-cü il*

## "İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında" Konvensiyanın 16 nömrəli Protokolunun təsdiq edilməsi barədə" Azərbaycan Respublikasının 2023-cü il 24 fevral tarixli 821-VIQ nömrəli Qanununun tətbiqi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu bəndini rəhbər tutaraq, "İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında" Konvensiyanın 16 nömrəli Protokolunun təsdiq edilməsi barədə" Azərbaycan Respublikasının 2023-cü il 24 fevral tarixli 821-VIQ nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

1.1. Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının "İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında" Konvensiyanın 16 nömrəli Protokolunun təsdiq edilməsi barədə" Azərbaycan Respublikasının 2023-cü il 24 fevral tarixli 821-VIQ nömrəli Qanununa uyğunlaşdırılması ilə bağlı təkliflərini iki ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.2. həmin Qanundan irəli gələn digər məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 19 aprel 2023-cü il*

## Nəqliyyatı Əlaqələndirmə Şurasının yaradılması haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Nəqliyyatın ayrı-ayrı növlərinin koordinasiyalı fəaliyyətinin və əhalinin mobilliyinin təmin edilməsi, yol və nəqliyyat infrastrukturunun inkişaf etdirilməsi, yol hərəkətinin təşkili, təhlükəsizliyi və tənzimlənməsi sahələrində fəaliyyətin əlaqələndirilməsi və təkmilləşdirilməsi məqsədilə aşağıdakı tərkibdə Nəqliyyatı Əlaqələndirmə Şurası (bundan sonra - Şura) yaradılsın:

**Şuranın sədri**

Azərbaycan Respublikasının rəqəmsal inkişaf və nəqliyyat naziri

**Şuranın üzvləri:**

Azərbaycan Respublikası Nazirlər Kabineti Aparatının Nəqliyyat, kommunikasiya və innovasiya şöbəsinin müdiri

Azərbaycan Respublikası daxili işlər nazirinin müavini

Azərbaycan Respublikası ekologiya və təbii sərvətlər nazirinin müavini

Azərbaycan Respublikasının Dövlət Şəhərsalma və Arxitektura Komitəsi sədrinin müavini

Bakı Şəhər İcra Hakimiyyəti başçısının müavini

Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi İdarə Heyəti sədrinin müavini

Azərbaycan Yerüstü Nəqliyyat Agentliyi İdarə Heyətinin sədri

"Azərbaycan Dəmir Yolları" Qapalı Səhmdar Cəmiyyətinin sədri

"Bakı Metropoliteni" Qapalı Səhmdar Cəmiyyətinin sədri.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

2.1. bir ay müddətində:

2.1.1. Şuranın Əsasnamə layihəsi ilə bağlı təkliflərini hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

2.1.2. Şuranın yaradılması ilə bağlı nəqliyyat sahəsində tənzimləmənin təkmilləşdirilməsi ilə əlaqədar normativ-hüquqi aktların layihələrini hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

2.2. bu Sərəncamdan irəli gələn digər məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 19 aprel 2023-cü il*

## Azərbaycan Respublikası Prezidentinin 2008-ci il 27 noyabr tarixli 27 nömrəli Fərmanı ilə təsdiq edilmiş"Azərbaycan Respublikasında ünvan reyestrinin aparılması və daşınmaz əmlak obyektlərinə ünvan verilməsi Qaydaları"nda dəyişiklik edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikası Prezidentinin 2008-ci il 27 noyabr tarixli 27 nömrəli Fərmanı(Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2008, № 11, maddə 981; 2010, № 7, maddə 610, № 8, maddə 720; 2012, № 2, maddə 79; 2014, № 2, maddə 123; 2015, № 9, maddə 1002; 2016, № 6, maddə 1037;2017, № 10, maddə 1786; 2022, № 10, maddə 1141) ilə təsdiq edilmiş"Azərbaycan Respublikasında ünvan reyestrinin aparılması və daşınmaz əmlak obyektlərinə ünvan verilməsi Qaydaları"nda aşağıdakı dəyişikliklər edilsin:

1. 2-ci hissə üzrə:

1.1.2.1-ci bənddə "bəndlərində" sözü "yarımbəndlərində" sözü ilə əvəz edilsin və həmin bənddən ", onun mülkiyyətçisi (sahibi)" sözləri çıxarılsın;

1.2.2.4-cü bənd üzrə:

1.2.1. birinci abzasda "aşağıdakı hallarda dəyişiklik və (və ya) əlavələr edilir" sözləri "dəyişiklik edilməsinə əsas olan aşağıdakı hallar baş verdiyi və ya bu barədə müraciət edildiyi tarixdən 3 (üç) iş günü müddətində dəyişiklik edilir" sözləri ilə əvəz edilsin;

1.2.2.beşinci abzasın sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz olunsun və aşağıdakı məzmunda altıncı və yeddinci abzaslar əlavə edilsin:

"nəqliyyat infrastrukturu obyekti yenidən qurulduqda;

"Daşınmaz əmlakın dövlət reyestri haqqında" Azərbaycan Respublikası Qanununun 18-ci maddəsinə uyğun olaraq daşınmaz əmlak obyekti məhv olduqda.".

2.3-cü hissə üzrə:

2.1. 3.2-ci bənd üzrə:

2.1.1. 3.2.3-cü yarımbənd ləğv edilsin;

2.1.2. 3.2.4-cü yarımbənddə "hüquqlar dövlət qeydiyyatına" sözləri "mülkiyyət hüququ daşınmaz əmlakın dövlət reyestrində qeydiyyata" sözləri ilə əvəz edilsin;

2.2. 3.3-cü bəndə "sahibi" sözündən sonra ", tikintisi başa çatmayan daşınmaz əmlak obyektlərinə münasibətdə həmçinin sifarişçisi" sözləri əlavə edilsin;

2.3. 3.6-cı bəndin ikinci abzasında "bəndlərində" sözü "yarımbəndlərində" sözü ilə əvəz edilsin;

2.4. aşağıdakı məzmunda 3.7.1-1-ci yarımbənd əlavə edilsin:

"3.7.1-1. ərazi vahidi üzrə poçt indeksi;";

2.5. 3.8-ci bənddə "Daşınmaz əmlak obyektinin ünvanının bu Qaydaların 3.7.4-cü bəndində göstərilən rekvizitinin (ünvan nömrəsinin)" sözləri "Ünvan nömrəsinin" sözləri ilə əvəz edilsin;

2.6. 3.9-cu bəndin birinci cümləsi aşağıdakı redaksiyada verilsin:

"Çoxmənzilli binaların, qeyri-yaşayış binalarının, onların tərkib hissələrinin və fərdi yaşayış evlərinin girişlərinə ünvan verilir.";

2.7. 3.10-cu bənddə "çoxmənzilli binaların, fərdi yaşayış evlərinin, qeyri-yaşayış sahələrinin" sözləri "daşınmaz əmlak obyektlərinin" sözləri ilə əvəz edilsin;

2.8.3.11-ci bənd üzrə:

2.8.1. birinci cümləyə "mənzilinə," sözündən sonra "tərkibindəki qeyri-yaşayış sahələrinə və" sözləri əlavə edilsin;

2.8.2. ikinci cümləyə "mənzilinə" sözündən sonra ", tərkibindəki qeyri-yaşayış sahələrinə" sözləri əlavə edilsin;

2.8.3. dördüncü cümlədə "Hər bir mənzilin" sözləri "Çoxmənzilli binaların hər bir mənzilinin, tərkibindəki qeyri-yaşayış sahələrinin" sözləri ilə əvəz olunsun və həmin cümləyə "mənzilin" sözündən sonra ", qeyri-yaşayış sahəsinin və ya qeyri-yaşayış obyektinin tərkib hissəsinin" sözləri əlavə edilsin;

2.8.4. beşinci cümlə aşağıdakı redaksiyada verilsin:

"Çoxmənzilli binanın girişlərinə və çoxmənzilli binanın tərkib hissəsi olan mənzillərə (qeyri-yaşayış sahələrinə) ünvanların təyin edilməsi, müvafiq olaraq, tikintisinə icazə alınmış, lakin tikintisi başa çatmamışbinanın sifarişçisinin və ya çoxmənzilli binanın mülkiyyətçisinin və ya onun səlahiyyətli nümayəndəsininmüraciəti əsasında Dövlət Xidməti tərəfindən, hər bir mənzilin nömrələnməsi (qapı nömrəsinin quraşdırılması) isə bina inşa edildikdən sonra binanın sifarişçisi və ya mülkiyyətçisi tərəfindən təmin edilir.";

2.9. 3.12-ci bənddə "və ya sifarişçisinin" sözləri "(tikintisi başa çatmayan daşınmaz əmlak obyektlərinə münasibətdə həmçinin sifarişçisinin) və ya onun səlahiyyətli nümayəndəsinin" sözləri ilə əvəz edilsin;

2.10. 3.14-cü bənd üzrə:

2.10.1. birinci cümləyə "rəqəmlərdən" sözündən sonra ", ədədlərdən və onlara əlavə olunmuş hərflərdən" sözləri əlavə edilsin;

2.10.2. üçüncü cümlə aşağıdakı redaksiyada verilsin:

"Girişinə ünvan nömrəsi verilmiş obyektlər arasında yeni obyektin girişinə ünvan nömrəsi rəqəmlərə və ədədlərə hərflər əlavə edilməklə verilə bilər.";

2.11. aşağıdakı məzmunda 3.14-1-ci bənd əlavə edilsin:

"3.14-1. Avtomobil və dəmir yollarının yaşayış məntəqələrinin hüdudlarından kənarda yerləşən hissələri, eləcə də yaşayış məntəqələrinin ərazisindən keçən və ad verilməyən magistral yollar boyunca yerləşən daşınmaz əmlak obyektlərinin girişlərinə ünvan nömrələri bir-birindən "-" işarəsi ilə ayrılan iki hissədən ibarət olmaqla verilir. Nömrənin birinci hissəsində ünvan obyektinin yolun başlanğıcından sonuna doğru istiqamətdə neçənci kilometrində yerləşdiyini göstərən ədəd, ikinci hissəsində isə yolun yalnız həmin hissəsi (kilometri) boyunca yerləşən daşınmaz əmlak obyektlərinə bu Qaydaların 3.9-3.11-ci və 3.14-cü bəndlərində qeyd edilən qaydada verilmiş nömrə yazılır.";

2.12. 3.20-ci və 3.21-ci bəndlər aşağıdakı redaksiyada verilsin:

"3.20. Nəqliyyat infrastrukturu obyektinin kənarında yerləşdirilən müvəqqəti tikililərə bu Qaydaların 3-cü hissəsinə uyğun olaraq müvəqqəti ünvan verilir.

3.21. Üzərində tikili və (və ya) qurğu olmayan torpaq sahəsinə ünvan təyin edilərkən onun yaxınlığındakı daşınmaz əmlak obyektlərinin ünvanlandırılması nəzərə alınır.".

3.4.2-ci bəndin üçüncü abzasının birinci cümləsində "7 gün müddətində Dövlət Xidməti tərəfindən Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyinə göndərilir" sözləri "Dövlət Xidməti tərəfindən elektron informasiya sistemləri vasitəsilə real vaxt rejimində Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyinə ötürülür" sözləri ilə əvəz edilsin.

4.5.1-ci bəndin birinci cümləsinə "nömrələrini" sözündən əvvəl "girişlərinin" sözü əlavə edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 19 aprel 2023-cü il*

## Bakı şəhərinin inzibati ərazisində avtomobil nəqliyyatı sahəsində idarəetmənin təkmilləşdirilməsi ilə bağlı əlavə tədbirlər haqqında

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Bakı şəhərinin inzibati ərazisində avtomobil nəqliyyatı, o cümlədən yol hərəkətinin təşkili sahəsində tənzimləmə və idarəetmə mexanizmlərinin təkmilləşdirilməsi, ümumi istifadədə olan avtomobil nəqliyyatı vasitələri ilə müntəzəm sərnişindaşıma və taksi minik avtomobilləri ilə sərnişindaşıma sahəsində rəqabətin, o cümlədən göstərilən xidmətlərin təhlükəsizliyinin və keyfiyyətinin yüksəldilməsi məqsədilə **qərara alıram:**

1. Bakı şəhərinin inzibati ərazisində yol hərəkətinin təşkilində iştirak edilməsi, ümumi istifadədə olan nəqliyyat vasitələri ilə müntəzəm sərnişindaşıma və taksi minik avtomobilləri ilə sərnişindaşıma sahəsində tənzimləmənin və nəzarətin həyata keçirilməsi Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinə həvalə edilsin.

2. Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin tabeliyindəki Azərbaycan Yerüstü Nəqliyyat Agentliyi (bundan sonra - Agentlik) Bakı Şəhər İcra Hakimiyyəti başçısının tabeliyindəki "Bakı Nəqliyyat Agentliyi" publik hüquqi şəxsin ona qoşulması formasında yenidən təşkil edilsin.

3. Bakı Şəhər İcra Hakimiyyəti başçısının tabeliyindəki "Bakı Nəqliyyat Agentliyi" publik hüquqi şəxsin balansındakı əmlak Agentliyin balansına verilsin.

4. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

4.1. bu Fərmanın 1-ci və 2-ci hissələri nəzərə alınmaqla normativ-hüquqi aktların təkmilləşdirilməsi ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

4.2. bu Fərmanın 2-ci hissəsi nəzərə alınmaqla Agentliyin nizamnamə fondunun miqdarının artırılması barədə təkliflərini dörd ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

4.3. "Bakı Nəqliyyat Agentliyi" publik hüquqi şəxsin balansındakı əmlakın Agentliyin balansına verilməsini üç ay müddətində təmin etsin;

4.4. bu Fərmanın 4.3-cü bəndi nəzərə alınmaqla Agentliyin maddi-texniki bazasının möhkəmləndirilməsi üçün zəruri tədbirlər görsün;

4.5. bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.

5. Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi:

5.1. Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi ilə birlikdə Agentliyin yenidən təşkili, o cümlədən "Bakı Nəqliyyat Agentliyi" publik hüquqi şəxsin fəaliyyətinə xitam verilməsinin dövlət qeydiyyatı ilə bağlı zəruri tədbirləri həyata keçirsin;

5.2. bu Fərmandan irəli gələn digər məsələlərin həlli üçün tədbirlər görsün.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 19 aprel 2023-cü il*

## Azərbaycanda xüsusi karantin rejiminin müddəti uzadılıb

Nazirlər Kabineti Azərbaycan Respublikasının ərazisində xüsusi karantin rejiminin müddətinin uzadılması barədə qərar verib. AZƏRTAC xəbər verir ki, bununla bağlı qərarı Baş nazir Əli Əsədov imzalayıb. Qərara əsasən, koronavirus (COVID-19) infeksiyasının ölkə ərazisində yayılmasının, onun törədə biləcəyi fəsadların qarşısının alınması məqsədilə Azərbaycan ərazisində xüsusi karantin rejiminin müddəti bu il iyulun 1-i saat 06:00-dək uzadılıb.

# Milli Məclisin Sədri Sahibə Qafarova Polşa Seyminin Sədri ilə görüşüb





**Milli Məclisin Sədri Sahibə Qafarova Polşa Respublikasına rəsmi səfəri çərçivəsində bu ölkə Seyminin Sədri Elzbieta Vitek ilə görüşüb.**

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, Azərbaycanın parlament rəhbərini səmimiyyətlə salamlayan Elzbieta Vitek ölkələrimiz və qanunverici orqanlarımız arasında münasibətlərdən razılığını ifadə edib. O, Milli Məclis Sədrinin bu səfərinin parlamentlər arasında əlaqələrin dərinləşməsinə töhfə verəcəyinə inamını ifadə edib. Seymin Sədri parlament diplomatiyasının beynəlxalq münasibətlərdə mühüm rolunu qeyd edərək, bu mənada qanunvericilik orqanları arasında əməkdaşlığın əhəmiyyətini vurğulayıb.

Elzbieta Vitek Azərbaycanın Polşa üçün dost ölkə olduğunu, müxtəlif sahələrdə əməkdaşlığın genişləndiyini bildirib. O, xalqlarımız arasında əlaqələrin yaxşı səviyyədə olduğunu, onları yaxınlaşdıran bir çox məqamların olduğunu söyləyib.

Polşa Seyminin Sədri həmçinin ölkəsində mövcud olan vəziyyət, inkişaf göstəriciləri, multikultural mühit barədə də məlumat verib.

Səfərə dəvətə və göstərilən yüksək qonaqpərvərliyə görə minnətdarlığını bildirən Milli Məclisin Sədri Sahibə Qafarova qeyd edib ki, ölkələrimiz arasında əlaqələr yüksək səviyyədədir. Bu da ikitərəfli əməkdaşlığın bütün sahələrdə daha da inkişafına imkan verir. Sahibə Qafarova xatırladıb ki, Azərbaycan Prezidenti İlham Əliyevin Polşaya, Polşa Respublikası dövlət başçılarının Azərbaycana səfərləri ölkələrimiz arasındakı əlaqələrin inkişafı baxımından xüsusi əhəmiyyətə malikdir.

Görüşdə regionda mövcud olan vəziyyət barədə məlumat verən Milli Məclisin Sədri 2020-ci ildə Azərbaycanın öz ərazilərinin Ermənistan tərəfindən 30 ilə yaxın davam edən işğalına son qoyduğunu, 44 günlük Vətən müharibəsində tarixi zəfər əldə edərək, öz ərazi bütövlüyünü bərpa etdiyini, ölkəmizin BMT Təhlükəsizlik Şurasının Ermənistan silahlı qüvvələrinin Azərbaycanın işğal olunmuş ərazilərindən dərhal, tam və qeyd-şərtsiz çıxarılmasını tələb edən dörd qətnaməsinin icrasını özü təmin etdiyini xatırladıb. Spikerin sözlərinə görə, bu gün Ermənistanla Azərbaycan arasında münaqişə artıq mövcud deyil və tarixin səhifələrində qalıb. Bu mənada Azərbaycanın suverenliyini, ərazi bütövlüyünü və sərhədlərinin toxunulmazlığını şübhə altına alan hərəkət və bəyanatlar qəbuledilməzdir.

İşğal dövründə Ermənistanın bütün kənd və şəhərlərimizi tamamilə dağıtdığını, tarixi, mədəni və dini abidələrimizi vandalizmə məruz qoyduğunu, məscidlərimizin, müqəddəs ocaqlarımızın ermənilər tərəfindən təhqir olunduğunu söyləyən Milli Məclisin Sədri bildirib ki, həmin ərazilərdə etnik təmizləmə siyasəti aparılıb, bir milyondan artıq soydaşımız qaçqın və məcburi köçkünə çevrilib.

Sahibə Qafarova vurğulayıb ki, torpaqlarımız işğaldan azad olunduqdan dərhal sonra Azərbaycan öz vəsaiti hesabına həmin ərazilərdə genişmiqyaslı quruculuq işlərinə start verib. Hazırda işğal dövründə dağıdılmış bütün infrastruktur yenidən bərpa olunur, "yaşıl enerji" zonası elan edilmiş Qarabağ və Şərqi Zəngəzurda yeni şəhərlər və kəndlər inşa edilir. Artıq ötən ildən etibarən keçmiş məcburi köçkünlərin öz evlərinə geri qaytarılmasına başlanıb. Spikerin sözlərinə görə, həyata keçirilən işlərə ən böyük maneə işğaldan azad edilmiş torpaqlarda Ermənistan tərəfindən basdırılmış çoxsaylı minalardır. 10 noyabr 2020-ci ildən etibarən mina partlayışları nəticəsində 300-ə yaxın mülki şəxs və hərbçi həlak olub və yaralanıb.

Milli Məclisin Sədri həmçinin diqqətə çatdırıb ki, Azərbaycan Ermənistanla sərhədlərin müəyyən edilməsi və münasibətlərin normallaşması üzrə 5 prinsipdən ibarət təklif verib. Biz gələcəyə baxmaq, sülh əldə etmək, normal qonşuluq münasibətləri yaratmaq istəyirik. Təəssüf ki, hələ də Ermənistan tərəfindən öhdəliklərinin pozulmasını, sərhəddə və Azərbaycanın suveren ərazilərində təxribatların, beynəlxalq ictimaiyyəti yalan məlumatlarla aldatmaq cəhdlərinin şahidi oluruq. Ermənistan anlamalıdır ki, öz üzərinə götürdüyü öhdəlikləri yerinə yetirməli, konstruktiv yanaşma nümayiş etdirməli və qeyd olunan prinsiplər əsasında münasibətlərin normallaşmasına getməlidir. Bu, regionda real sülhə və sabitliyə nail olmağın yeganə yoludur.

Ötən il Azərbaycanla Polşa arasında diplomatik münasibətlərin qurulmasının 30-cu ildönümünün tamam olduğunu xatırladan Milli Məclisin Sədri deyib ki, xalqlarımız arasında dostluq və əməkdaşlıq ənənələrinin tarixi isə daha genişdir. Spiker diqqətə çatdırıb ki, Azərbaycanın Polşa ilə əlaqələri həm ikitərəfli qaydada, həm də Avropa İttifaqı çərçivəsində inkişaf edir. Aİ ilə əməkdaşlıq Azərbaycanın xarici siyasətinin prioritetlərindən biridir və Azərbaycan Avropa üçün etibarlı tərəfdaşdır.

Milli Məclisin Sədri kimi Polşa Respublikasına birinci rəsmi səfəri olduğunu xatırladan Sahibə Qafarova ümidvar olduğunu bildirib ki, bu səfər iki parlament arasında olan münasibətlərin inkişafına daha bir təkan olacaq. O qeyd edib ki, ölkələr arasında münasibətlərin inkişafında parlamentlərarası əlaqələr xüsusi əhəmiyyətə malikdir. Spikerin sözlərinə görə, iki dost və tərəfdaş ölkənin parlamentləri olaraq beynəlxalq parlament təşkilatları çərçivəsində əməkdaşlığın və birgə fəaliyyətin gücləndirilməsi üçün yaxşı imkanlar mövcuddur. Həmçinin qeyd olunub ki, dostluq qruplarının fəaliyyəti parlamentlərarası əlaqələrin inkişafında mühümdür və onlar müntəzəm təmaslarla, dialoqlarla parlamentlər arasında körpü rolunu oynayırlar.

Sahibə Qafarova görüşdə həmçinin Azərbaycanda mövcud olan multikulturalizm mühiti, məscidlərlə yanaşı, kilsə və sinaqoqların mövcudluğu, onlara dövlət tərəfindən yaradılan şərait barədə məlumat verib. Spiker ölkəmizdə gender siyasəti barədə də danışıb. O deyib ki, Azərbaycan müsəlman Şərqində qadınlara seçki hüququ verən ilk ölkədir.

Görüşdə qarşılıqlı maraq kəsb edən digər məsələlər barədə də fikir mübadiləsi aparılıb.

*"Azərbaycan"*

# Milli Məclisin Sədri Sahibə Qafarova "Azərbaycanda Polşa irsinin inciləri" sərgisinin açılışında çıxış edib

**Milli Məclisin Sədri Sahibə Qafarova və Polşa Respublikası Seyminin Sədri Elzbieta Vitek Varşava şəhərində Polşa Seymində təşkil olunan "Azərbaycanda Polşa irsinin inciləri" sərgisində iştirak ediblər.**



Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, Sahibə Qafarovanı salamlayan Elzbieta Vitek bu cür tədbirlərin münasibətlərimizin inkişafına töhfə verdiyini, xalqlarımızın daha da yaxınlaşmasına xidmət etdiyini bildirib. Onun sözlərinə görə, belə tədbirlər xalqlarımızın mədəni dəyərlərinin təbliğ olunmasına da imkan verir.



Tədbir iştirakçılarını salamlayan Sahibə Qafarova sərgiyə evsahibliyi etdiyinə görə Polşa Respublikası Seyminin Sədri Elzbieta Vitekə minnətdarlığını bildirib.

Milli Məclisin spikeri Şərqlə Qərbin qovuşduğu Azərbaycanın çoxsaylı mədəniyyətlərin vətəni olmasından söz açıb. Diqqətə çatdırıb ki, Azərbaycanda böyük sivilizasiyalar mövcud olmuş, milli mənsubiyyətindən asılı olmayaraq, multikulturalizm və tolerantlıq hər bir azərbaycanlının həyatının ayrılmaz hissəsinə çevrilmişdir. Məhz bu fonda Azərbaycanda mövcud olan 200 illik polyak mirasını xüsusi vurğulayan Sahibə Qafarova polyakların tarixən Azərbaycanda memar, hüquqşünas, mühəndis, müəllim, hərbçi, sahibkar və dövlət xadimi kimi fərqləndiklərini qeyd edib.

Spiker diqqətə çatdırıb ki, polyaklar müsəlman Şərqində və türk dünyasında ilk dünyəvi, parlamentli demokratik dövlət olan Azərbaycan Xalq Cümhuriyyətinin fəaliyyətində iştirak etmişlər. Polyaklar demək olar ki, bütün hökumət strukturlarında, parlamentdə və məhkəmə sistemində təmsil olunmuş və ümumi Vətənimiz Azərbaycanı qorumaq üçün səylərini əsirgəməmişlər. O qeyd edib ki, həmin dövrdə Azərbaycan Parlamentində milli azlıqları təmsil edən deputatlardan biri məhz polyak milli şurasının nümayəndəsi Stanislav Vonsoviç olmuşdur.

Milli Məclisin Sədri polyakəsilli görkəmli şəxsiyyətlər arasında 19-cu əsrin sonu 20-ci əsrin əvvəllərində Bakının özünəməxsus gözəlliyinin yaradılmasında möhtəşəm irs qoymuş polyak memarların rolunu xüsusilə vurğulayıb və paytaxtımızda, həmçinin bir sıra digər şəhər və rayonlarımızda inşa edilən binaların müəllifi olan polyak memarlar haqqında məlumat verib. Sərgidə də bu məşhur polyak memarların şah əsərlərinin böyük məmnuniyyətlə iştirakçıların diqqətinə təqdim edildiyini deyən Sahibə Qafarova tədbirin ərsəyə gəlməsində əməyi keçənlərə və sərgiyə gələnlərə təşəkkürünü bildirib.

*"Azərbaycan"*

# Polşa Azərbaycanla münasibətlərin inkişafına böyük əhəmiyyət verir

**Milli Məclisin Sədri Sahibə Qafarova Polşa Respublikasına rəsmi səfəri çərçivəsində bu ölkə Senatının Sədri Tomaş Qrodzki ilə görüşüb.**






Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, Milli Məclis Sədrini səmimiyyətlə salamlayan Tomaş Qrodzki ölkəsinin Azərbaycanla münasibətlərin inkişafına böyük əhəmiyyət verdiyini qeyd edib. O deyib ki, Azərbaycan və Polşa arasında bir çox sahələri əhatə edən əlaqələr mövcuddur. Siyasi sahədə müsbət dialoq dost və tərəfdaş ölkələrimiz arasında digər sahələrdə də əməkdaşlıq üçün yaxşı imkanlar yaradıb.

Xalqlarımız arasında əsrlərdir yaxşı əlaqələrin olduğunu deyən Senatın Sədri xatırladıb ki, polyaklar hələ onilliklər əvvəl Azərbaycanda sülh şəraitində yaşayıb, fəaliyyət göstəriblər. Eyni zamanda Polşa ədəbiyyatında Azərbaycan haqqında əsərlər, məlumatlar dərc olunub. Xalqlarımız arasında dostluq münasibətləri möhkəm əsaslara malikdir.

Azərbaycan nümayəndə heyətinə göstərilən yüksək qonaqpərvərliyə görə minnətdarlığını bildirən Milli Məclisin Sədri Sahibə Qafarova Polşanın Azərbaycan üçün dost və strateji tərəfdaş ölkə olduğunu deyib, ölkələrimiz və xalqlarımız arasında münasibətlərin dərinləşməsində dövlət başçılarının qarşılıqlı səfərlərinin, tərəflər arasında imzalanan sənədlərin əhəmiyyətini vurğulayıb.

Azərbaycanın bütün ölkələrin ərazi bütövlüyünü dəstəklədiyini deyən Sahibə Qafarova bu məsələnin beynəlxalq hüququn əsas prinsiplərindən biri olduğunu diqqətə çatdırıb. Onun sözlərinə görə, Azərbaycan bu məsələni yaxşı başa düşür. Çünki bizim ərazimizin 20 faizi 30 ilə yaxın işğal altında olub. Bu ərazilərin işğaldan dərhal və qeyd-şərtsiz azad olunması ilə bağlı BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsi uzun illər icra olunmayıb və 2020-ci ildə Azərbaycan öz gücü hesabına ərazilərini işğaldan azad edib.

Milli Məclisin sədri məlumat verib ki, işğaldan azad olunan ərazilərimizdə böyükmiqyaslı quruculuq işləri həyata keçirilir. Hazırda Qarabağda və Şərqi Zəngəzurda "ağıllı şəhərlər və kəndlər", "yaşıl enerji" konsepsiyalarına uyğun olan ekoloji cəhətdən dayanıqlı şəhər və kəndlər salınır. Bu kəndlərdən biri də məcburi köçkünlərin artıq geri qayıtdığı Ağalı kəndidir.

Spiker deyib ki, Azərbaycan sülh istəyir və Ermənistana beynəlxalq hüququn əsas prinsiplərinə söykənən 5 maddəlik sülh sazişi təklif edib. Təəssüf ki, Ermənistan hələ də sülh sazişini imzalamaqdan boyun qaçırır.

Senatın Sədri Tomaş Qrodzki isə qeyd edib ki, onun ölkəsi Cənubi Qafqaz regionunda sülh yaradılması istiqamətində bütün səyləri, təşəbbüsləri dəstəkləyir.

Ermənistanın hərbi-siyasi təxribatları barədə də məlumat verən spiker Sahibə Qafarova o cümlədən Ermənistanın Laçın yolundan hərbi məqsədlər və qeyri-qanuni istismar etdiyi təbii sərvətlərimizin daşınması üçün istifadə etdiyini bildirib. Azərbaycanın vətəndaş cəmiyyəti nümayəndələrinin Laçın yolunda dinc aksiyası Ermənistanın bu qeyri-qanuni əməllərinə etiraz olaraq keçirilir. Lakin Ermənistan, guya, Laçın yolunun bağlanmasına dair yalan iddialarla beynəlxalq ictimaiyyəti aldatmağa çalışır. Milli Məclisin Sədri bir daha bəyan edib ki, Laçın yolu humanitar məqsədlər üçün açıqdır və 6 mindən çox nəqliyyat vasitəsinin, tibbi yardıma ehtiyacı olan şəxslərin, humanitar yüklərin Laçın yolundan maneəsiz keçməsi bunu sübut edir. Sahibə Qafarova həmçinin bildirib ki, işğaldan azad olunmuş ərazilərdəki üçüncü beynəlxalq hava limanı Laçın rayonunda inşa olunur.

Azərbaycan və Polşa arasında əlaqələrin həm ikitərəfli qaydada, həm də Avropa İttifaqı çərçivəsində inkişaf etdiyini deyən spiker Sahibə Qafarova xatırladıb ki, Azərbaycan Avropa İttifaqı ilə yeni tərəfdaşlıq sazişi üzrə danışıqların son mərhələsindədir və onun 90 faizdən çoxu artıq razılaşdırılıb. Azərbaycan Avropa İttifaqının doqquz üzvü, o cümlədən Polşa ilə strateji tərəfdaşlıq sənədləri imzalayıb. Milli Məclisin Sədri ölkəmizin Avropanın enerji təhlükəsizliyinin təmin olunmasında mühüm rolunu qeyd edib.

Görüşdə həmçinin parlamentlərimiz arasında əməkdaşlıq məsələləri də müzakirə olunub. Qarşılıqlı səfərlərin və müsbət dialoqun bu əlaqələrə töhfələr verdiyi qeyd edilərək, parlament komitələri arasında əməkdaşlıqla bağlı da fikir mübadiləsi aparılıb. Bu istiqamətdə təmasların mümkünlüyü, həmçinin parlament aparatları arasında əməkdaşlıq, təcrübə mübadiləsi istiqamətində gələcəkdə işbirliyi nəzərdən keçirilib və müsbət qiymətləndirilib.

Görüşdə ölkələrimiz arasında siyasi, iqtisadi sahədə olduğu kimi, humanitar sahədə də əlaqələrin yaxşı səviyyədə olduğu qeyd edilərək bildirilib ki, ölkələrimizin nümayəndələri müxtəlif mədəni tədbirlərdə qarşılıqlı şəkildə iştirak edirlər. Humanitar sahədə əlaqələr xalqlarımızın daha da yaxınlaşmasına xidmət edir.

*"Azərbaycan"*

# Çin xarici işlər nazirinin müavini: "Azərbaycan-Çin əlaqələri bütün sahələrdə inkişaf edərək strateji tərəfdaşlıq səviyyəsinə yüksəlib"



Azərbaycan Respublikası Prezidentinin köməkçisi, Heydər Əliyev Fondunun icraçı direktoru Anar Ələkbərov Çin Xalq Respublikasının xarici işlər nazirinin müavini Ma Caosyü ilə görüşüb.

AZƏRTAC xəbər verir ki, Ma Caosyü təməli Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulan Azərbaycan-Çin əlaqələrinin hazırda dövlətlərimizin başçıları sayəsində bütün sahələrdə inkişaf etdiyini, strateji tərəfdaşlıq səviyyəsinə yüksəldiyini bildirib. O, Azərbaycanın və Çinin dövlət başçılarının Şanxay Əməkdaşlıq Təşkilatına üzv ölkələrin son sammiti çərçivəsində görüşünün əməkdaşlıq perspektivlərinin müəyyənləşdirilməsi baxımından əhəmiyyətinə toxunub. Azərbaycan-Çin münasibətlərinin genişlənməsində Heydər Əliyev Fondunun Çində həyata keçirdiyi humanitar və mədəni layihələrin, həmçinin Xarici Ölkələrlə Dostluq üzrə Çin Xalq Assosiasiyası arasındakı əməkdaşlığın və ölkələrimizin səfirliklərinin fəaliyyətinin əhəmiyyəti vurğulanıb.

Azərbaycan nümayəndə heyətinin pandemiyadan sonra Çin Xalq Respublikasına səfər edən ilk heyətlərdən olduğunu bildirən Ma Caosyü Azərbaycanın Çinin bütün təşəbbüslərinə daim müsbət reaksiya göstərdiyini, "Bir kəmər, bir yol" təşəbbüsünə verdiyi töhfələri qeyd edib.

O, münasibətlərimizin daha da genişlənməsi üçün bütün dövlət qurumları, qeyri-hökumət təşkilatları və özəl sektor arasında əlaqələrin qurulmasının əhəmiyyətindən danışıb. Nazir müavini Çin Xalq Respublikasının Azərbaycanın suverenliyini və ərazi bütövlüyünü dəstəklədiyini diqqətə çatdıraraq ölkəmizə sülh arzulayıb.

Anar Ələkbərov Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Çin Xalq Respublikası ilə münasibətlərə hər zaman önəm və dəstək verdiyini, ikitərəfli əlaqələrin inkişafına çalışdığını bildirib.

Azərbaycanın turizm potensialı, işğaldan azad olunan ərazilərdə həyata keçirilən genişmiqyaslı bərpa və quruculuq işləri, o cümlədən digər bölgələrimizdəki layihələrdə Çin sərmayədarları və şirkətləri üçün imkanların mövcudluğu barədə məlumat verilib. Heydər Əliyev Fondunun Çində həyata keçirdiyi humanitar və mədəni layihələrin gələcəkdə də davam etdirəcəyini bildirən Anar Ələkbərov dövlət qurumlarının da Çin ilə əməkdaşlığa yüksək maraq göstərdiyini qeyd edib və Azərbaycan dövlətinin hər zaman "Vahid Çin" prinsipinə dəstək verdiyini vurğulayıb.

# Prezidentin köməkçisi Balaxanı qəsəbəsində rus icmasının nümayəndələri ilə görüşüb

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyevanın tapşırığına əsasən, Azərbaycan Prezidentinin köməkçisi - Ərazi-təşkilat məsələləri şöbəsinin müdiri Zeynal Nağdəliyevin iştirakı ilə Sabunçu rayonunun Balaxanı qəsəbəsindəki rus qəbiristanlığına baxış keçirilib.

AZƏRTAC xəbər verir ki, Z.Nağdəliyev yerində sakinlərlə, o cümlədən rus icmasının nümayəndələri ilə görüşüb.

Tapşırığa uyğun olaraq ərazidə abadlıq işlərinə başlanılıb, su xəttinin çəkilməsi ilə əlaqədar aidiyyəti qurumlara müraciət edilib, sındırılmış məzar daşlarının yenisi ilə əvəz olunmasına, habelə mühafizə məqsədilə qəbiristanlığın hasarlanmasına qərar verilib.

Məsələ ilə əlaqədar Daxili İşlər Nazirliyi tərəfindən cinayət işi açılıb və araşdırmaya başlanılıb.

# Azərbaycanın Rus İcması bəyanatla çıxış edib

Azərbaycanın Rus İcması Zabrat-1 və Balaxanı qəsəbələri arasında yerləşən Zabrat qəbiristanlığında yaranmış vəziyyətlə bağlı bəyanatla çıxış edib.

AZƏRTAC xəbər verir ki, bəyanatda deyilir: "Rus icmasına Zabrat-1 və Balaxanı qəsəbələri arasında yerləşən Zabrat qəbiristanlığında yaranmış vəziyyətlə bağlı bir neçə müraciət daxil olub. Şahidlər tərəfindən vandalizm aktları, qəbirlərin dağıdılmış və aşırılmış qəbirüstü plitələrinin fotomaterialları təqdim edilib. Bundan başqa, bir neçə hallarda yəqin ki, qohumlar tərəfindən əkilən ağaclar və kollar kökündən çıxarılıb, çəpərlər sökülüb".

Bəyanatda vurğulanıb ki, baş verənlər hiddət doğurur və təəccüblü deyil ki, bu, tolerant və multikultural Azərbaycan cəmiyyətində ictimaiyyət arasında və kütləvi informasiya vasitələrində narahatlıq yaradıb. Azərbaycanın Rus İcması törədilmiş vandalizm aktını qətiyyətlə pisləyir və baş verən hadisəyə göstərdiyi diqqətə görə Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyevaya dərin minnətdarlığını bildirir.

"Hörmətli Mehriban Əliyevanın tapşırığına əsasən, Azərbaycan Prezidentinin köməkçisi - Azərbaycan Respublikası Prezidentinin Ərazi-təşkilat məsələləri şöbəsinin müdiri Zeynal Nağdəliyevin iştirakı ilə artıq Sabunçu rayonunun Balaxanı qəsəbəsində rus qəbiristanlığına baxış keçirilib. Vurğulanıb ki, bütün qəbirüstü plitələr yenidən bərpa ediləcək", - deyə bəyanatda deyilir.

Bəyanatda vurğulanır ki, bu gün Azərbaycanın baş prokurorunun birinci müavini Elçin Məmmədov Azərbaycanın Rus İcmasının sədri, Milli Məclisin deputatı Mixail Zabelinlə əlaqə saxlayıb və ona qəbiristanlıqda vandalizm aktları ilə bağlı bütün hadisələrin təhqiqi üzrə istintaq qrupunun yaradıldığı barədə məlumat verib. Bildirilir ki, Azərbaycan Respublikasının baş prokuroru və daxili işlər naziri istintaq aparırlar.

"Azərbaycanın Rus İcması istintaqın gedişini izləməkdə davam edəcək və cəmiyyəti məlumatlandıracaq", - deyə bəyanatda qeyd olunub.

# Azərbaycanın qeyri-neft məhsullarının İsrail bazarına ixracı üçün böyük potensial var

## Azərbaycan-İsrail Hökumətlərarası Komissiyasının iclası olub

Bakıda Azərbaycan Respublikası Hökuməti ilə İsrail Dövləti Hökuməti arasında Birgə Komissiyanın 3-cü iclası keçirilib.





İqtisadiyyat Nazirliyindən AZƏRTAC-a bildirilib ki, iclasda çıxış edən iqtisadiyyat naziri, Birgə Komissiyanın həmsədri Mikayıl Cabbarov dostluq və qarşılıqlı etimada əsaslanan Azərbaycan-İsrail əlaqələrinin müxtəlif sahələrdə dinamik inkişafını vurğulayıb. Qeyd edilib ki, Azərbaycan və İsrail arasında ticarət dövriyyəsində qeyri-neft məhsullarının payı yüksəlir: "Bununla belə, biz ticarət əlaqələrimizi şaxələndirməliyik, çünki Azərbaycanın qeyri-neft məhsullarının İsrail bazarına ixracı üçün hələ də istifadə olunmamış böyük potensial var". İqtisadiyyat naziri deyib ki, investisiya, innovasiyalar, informasiya, kənd təsərrüfatı, ekologiya, qida, su, enerji texnologiyaları, əczaçılıq və biotexnologiya, ərzaq təhlükəsizliyi, kibertəhlükəsizlik, turizm, kiçik və orta sahibkarlıq və digər sahələrdə əməkdaşlıq üçün geniş perspektivlər var və bu potensialın reallaşdırılması üçün özəl sektor fəallığını artırmalıdır. Bu kontekstdə biznes dairələri arasında keçirilən işgüzar tədbirlər dialoqun genişlənməsinə əlavə imkanlar yaradır. Azərbaycan ölkələrimiz arasında müasir texnologiyaların transferi sahəsində əməkdaşlıqda maraqlıdır və aidiyyəti qurumlar arasında tərəfdaşlıq birgə təşəbbüslərin reallaşdırılmasına töhfə verə bilər.

İqtisadiyyat naziri Azərbaycanda əldə olunan iqtisadi nailiyyətlər barədə də məlumat verib, investorlar üçün yaradılan imkanları diqqətə çatdırıb, İsrail şirkətlərini Ələt Azad İqtisadi Zonasının, Bakı Beynəlxalq Dəniz Ticarət Limanının imkanlarından yararlanmağa, birgə layihələrin həyata keçirilməsinə dəvət edib.

İsrailin xarici işlər naziri, Birgə Komissiyanın həmsədri Eli Kohen xalqlarımız arasında səmimi dostluq münasibətlərini vurğulayaraq, İsraildə Azərbaycan səfirliyinin fəaliyyətə başlamasının əlaqələrimizi yeni inkişaf mərhələsinə yüksəltdiyini qeyd edib. Eli Kohen iki ölkə arasında müxtəlif sahələr üzrə əməkdaşlıq imkanları barədə fikirlərini bölüşüb, özəl bölmənin tərəfdaşlığın inkişafı potensialını reallığa çevirdiyini diqqətə çatdırıb.

İqlim dəyişiklikləri ilə bağlı qlobal çağırışlara toxunan ekologiya və təbii sərvətlər naziri Muxtar Babayev Azərbaycanda ekologiya, ətraf mühitin mühafizəsi üzrə həyata keçirilən layihələr barədə məlumat verib, bu sahələrdə İsraillə əməkdaşlığın genişləndirilməsinin önəmini qeyd edib.

İclasda müxtəlif sahələrdə qarşılıqlı maraq doğuran məsələlər barədə fikir mübadiləsi aparılıb.

Hökumətlərarası Komissiyanın iclası çərçivəsində əməkdaşlığın genişləndirilməsinə dair bir sıra sənədlər imzalanıb. Azərbaycan Respublikası Hökuməti ilə İsrail Dövləti Hökuməti arasında ətraf mühitin mühafizəsi sahəsində əməkdaşlıq haqqında imzalanan saziş ölkələrimizin bu istiqamətdə əməkdaşlığının möhkəmləndirilməsinə və resurslardan səmərəli istifadənin imkanlarının artırılmasına xidmət edir. Tədbirdə həmçinin Azərbaycan Respublikasının İnnovasiya və Rəqəmsal İnkişaf Agentliyi ilə İsrail Dövlətinin Milli Texnoloji İnnovasiya Qurumu arasında texnoloji innovasiyalar sahəsində Birgə Bəyannamə, SOCAR və İsrailin "Union Energy" şirkəti arasında əməkdaşlıq haqqında Saziş, "Azərsu" Açıq Səhmdar Cəmiyyəti ilə İsrail Milli Su Şirkəti - "Mekorot" arasında anlaşma memorandumu imzalanıb.

# Azərbaycanın və İsrailin xarici işlər nazirləri ölkələrimiz arasındakı münasibətlərin inkişafı məsələlərini müzakirə ediblər



Aprelin 19-da Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov ölkəmizdə səfərdə olan İsrail Dövlətinin xarici işlər naziri Eli Kohenin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildiriblər ki, görüşdə iki ölkə arasında ikitərəfli və çoxtərəfli çərçivədə əməkdaşlığın mövcud səviyyəsindən məmnunluq ifadə olunaraq, ölkəmizin İsrail Dövləti ilə müxtəlif sahələrdə əlaqələrin inkişafına və uğurlu əməkdaşlığın genişləndirilməsinə böyük əhəmiyyət verdiyi diqqətə çatdırılıb.

Nazirlər çoxşaxəli əməkdaşlıq gündəliyində duran siyasi, iqtisadi, o cümlədən energetika, təhsil və tədqiqat, yüksək texnologiyalar, rəqəmsallaşma, turizm, humanitar və bir çox başqa sahələr daxil olmaqla əməkdaşlığın inkişaf etdirilməsi məsələləri ətrafında fikir mübadiləsi aparıblar. Bu gün Bakıda keçirilən Azərbaycan Respublikası Hökuməti ilə İsrail Dövləti Hökuməti arasında Birgə Komissiyanın fəaliyyəti təqdir edilib və münasibətlərin daha da şaxələndirilməsinə töhfə verəcəyinə əminlik ifadə olunub.

Azərbaycan Respublikası ilə İsrail Dövləti arasında tarixi dostluğa, əməkdaşlığa söykənən əlaqələrin mövcudluğundan söz açan nazir Ceyhun Bayramov iki ölkə arasında qarşılıqlı səfərlərin, o cümlədən təmasların əhəmiyyətindən bəhs edib. Bu xüsusda keçirilən görüşlərin və aparılan müzakirələrin tərəfdaşlığımızın daha da dərinləşdirilməsi, habelə ikitərəfli dialoqun daha da inkişaf etdirilməsi baxımından mühüm olduğu diqqətə çatdırılıb.

Görüşdə ölkəmizin İsraildə səfirliyinin açılmasının son 30 ildə inkişaf edən və yeni keyfiyyət mərhələsinə qədəm qoyan Azərbaycan-İsrail münasibətlərinin gücləndirilməsinə töhfə verəcəyinə əminlik ifadə olunub.

Tərəflər ikitərəfli münasibətlərin bütün istiqamətləri, habelə beynəlxalq və regional məsələlər üzrə müxtəlif səviyyələrdə siyasi dialoqun bundan sonra da inkişaf etdirilməsinə hazır olduqlarını ifadə ediblər.

Söhbət zamanı həmçinin qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında müzakirələr aparılıb.

Səfər çərçivəsində nazirlər tərəfindən "Azərbaycan Respublikası Hökuməti ilə İsrail Dövləti Hökuməti arasında 2023-2026-cı illər üçün təhsil sahəsində əməkdaşlıq proqramı" imzalanıb.

# Bakıda Azərbaycan-İsrail biznes-forumu keçirilib







İxracın və İnvestisiyaların Təşviqi Agentliyinin - AZPROMO-nun təşkilatçılığı ilə Bakıda Azərbaycan-İsrail biznes-forumu keçirilib.

İqtisadiyyat Nazirliyindən AZƏRTAC-a bildirilib ki, Azərbaycan və İsrail arasında Birgə Komissiyanın həmsədri, iqtisadiyyat naziri Mikayıl Cabbarov biznes-forumun, həmçinin iş adamları arasında keçirilən müxtəlif görüş və tədbirlərin aktual məsələlərin müzakirə edilməsi, prioritet əməkdaşlıq istiqamətlərinin müəyyənləşdirilməsi və işgüzar dairələr arasında yeni əlaqələrin qurulması baxımından önəmini vurğulayıb. Qeyd olunub ki, ölkələrimiz arasında möhkəm ikitərəfli dostluq münasibətləri, yüksəksəviyyəli siyasi əlaqələr iqtisadi əməkdaşlığın dinamik inkişafına əlverişli şərait yaradır.

Diqqətə çatdırılıb ki, Azərbaycan Respublikası Hökuməti ilə İsrail Dövləti Hökuməti arasında Birgə Komissiya, həmçinin İsrail-Azərbaycan Ticarət və Sənaye Palatası ölkələrimiz arasında iqtisadi-ticarət tərəfdaşlığının inkişafı baxımından əhəmiyyət kəsb edir. Azərbaycanda müxtəlif sahələr üzrə çoxsaylı İsrail şirkətləri fəaliyyət göstərir, bir sıra önəmli layihələr həyata keçirilir. İsraillə enerji, ticarət, sənaye, kənd təsərrüfatı, innovasiyalar, infrastruktur, əczaçılıq, turizm və digər sahələr üzrə əməkdaşlığın inkişafı üçün geniş imkanlar olduğu diqqətə çatdırılıb, israilli sahibkarların ölkəmizdə biznes təşəbbüslərinin yüksək qiymətləndirildiyi və dəstəkləndiyi bildirilib.

Birgə Komissiyanın həmsədri, İsrailin xarici işlər naziri Eli Kohen ölkələrimizin müxtəlif sahələrdə səmərəli əməkdaşlıq etdiyini, Azərbaycanda həyata keçirilən layihələr, ölkəmizin unikal coğrafi mövqeyi və iqtisadi sabitliyin İsrail şirkətləri üçün əhəmiyyətli əməkdaşlıq və investisiya mühiti yaratdığını vurğulayıb. Qeyd olunub ki, İsraildə Azərbaycan səfirliyinin açılması ölkələrimiz arasında əlaqələrin daha yüksək səviyyəyə çatmasına əlavə imkanlar yaradır.

Tədbirdə Azərbaycan və İsrailin investisiya layihələri barədə təqdimatlar nümayiş etdirilib, B2B və B2G formatda görüşlər keçirilib.

# Azərbaycan və İsrail arasında ətraf mühitin mühafizəsi sahəsində əməkdaşlıq genişlənir

Aprelin 19-da Bakıda keçirilən Azərbaycan-İsrail Birgə Komissiyasının 3-cü iclası çərçivəsində "Azərbaycan Respublikası Hökuməti ilə İsrail Dövləti Hökuməti arasında ətraf mühitin mühafizəsi sahəsində əməkdaşlıq haqqında Saziş" imzalanıb.

Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a verilən məlumata görə, sazişi Azərbaycan tərəfdən ekologiya və təbii sərvətlər naziri Muxtar Babayev, İsrail tərəfdən isə xarici işlər naziri Eli Kohen imzalayıb.

Sazişdə ətraf mühitə təsirlərin qiymətləndirilməsi, biomüxtəlifliyin qorunması, xüsusi mühafizə olunan təbiət ərazilərinin idarə olunması, tullantı sularının təmizlənməsi standartları, suyun düzgün idarə edilməsinin ekoloji aspektləri, hava keyfiyyətinin monitorinqi sahəsində əməkdaşlıq məsələləri nəzərdə tutulub. Sazişin imzalanması iki ölkə arasında ətraf mühitin mühafizəsi sahəsində əməkdaşlığın genişləndirilməsinə, bu sahədə hüquqi bazanın möhkəmləndirilməsinə və yeni əlaqələrin yaradılmasına öz müsbət töhfəsini verəcək.



# Bu dünyaya ər gəlibdi Ərdoğan

**Qardaş Türkiyənin hərtərəfli inkişafına nail olan, dünya dövlətləri sırasında ölkəsinin nüfuzunu daha da artıran, sülhün, əmin-amanlığın qorunub saxlanılmasında səy və bacarığını əsirgəməyən, 6 fevral tarixində baş verən zəlzələnin yaralarının sağalması üçün təxirəsalınmaz tədbirlər həyata keçirən, Azərbaycanın ərazi bütövlüyünün bərpası, Qarabağ torpaqlarımızın işğaldan azad edilməsi üçün çox işlər görən, dövrümüzün təkrarsız siyasi xadimi, Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğana ithaf olunur.**

Nə yaxşı ki bu gün türkün beşiyinin başındasan,
Həm dünənin, həm bu günün, gələcəyin yaşındasan.
Çalxalanan dünyamızdan baş çıxarmaq deyil asan,
Fəqət sənin hünərinlə gəlib türkə təzə bir can.
Anan səni nər doğubdu, ər doğubdu, Ərdoğan!

Hər sözündə qılıncdan da kəsərli bir qətiyyət,
Deyirsən ki, qoy var olsun, qalib gəlsin ədalət.
Qanındadır, canındadır soydan gələn cəsarət.
Görür bunu bütün cahan, bilir bunu dörd bir yan,
Anan səni nər doğubdur, ər doğubdur, Ərdoğan!

Türkün soyu min illərin sınağından keçib gəlib.
Bu yolda gör o, nə qədər cəfalara sinə gərib.
Namərdlərə, nakəslərə heç bir zaman bac verməyib.
Bu gün onun səmasında doğur Günəş, sökülür dan.
Anan səni nər doğubdu, ər doğubdu, Ərdoğan!

Dövlətinin qüdrətini aparırsan irəli,
Gör nə qədər zəfərin var, bunu hər kəs bilməli.
Uğuruna sığal çəkir böyük Yaradan əli.
Çox arzular yetər başa üzümüzə gələn zaman.
Anan səni nər doğubdu, ər doğubdu, Ərdoğan!

İlham sənin, sən İlhamın əziz dostu, qardaşı,
Bir millətin taleyində silahdaşı, sirdaşı.
Tapdalayıb keçirsiniz hər hiyləni, savaşı.
Ayıqsınız, sayıqsınız hər dəqiqə, hər bir an.
Anan səni nər doğubdu, ər doğubdu, Ərdoğan!

Qarabağım azad oldu qardaşlıq köməyinlə.
Namərd düşmən top-tüfəngi geyinsə də əyninə,
Qanmayır ki, qonşuluq nə, insanlıq nə, vicdan nə.
Dayanıbdır başı üstə "dəmir yumruq" hər zaman,
Anan səni nər doğubdu, ər doğubdu, Ərdoğan!

Gör nə qədər bu dünyada zalım var, zülmkar var!
Nalə-fəryad ərşə qalxıb, qulaqlar da olub kar.
Bilinməyir kimdir haqlı, kimdir haqsız, günahkar.
Ürəyinin hökmü ilə deyirsən ki, dur, dayan!
Anan səni nər doğubdu, ər doğubdu, Ərdoğan!

Sən Allahın, təbiətin sınağından keçmisən,
Sevinc görüb, kədərin də acısını içmisən.
El dərdini, ağrısını özününkü bilmisən.
Xalqını da sən özünə uca dağtək arxa san,
Anan səni nər doğubdu, ər doğubdu, Ərdoğan!

Gecə vaxtı yaxaladı deprem yurdun yarısın,
On minlərlə can apardı - kişi, uşaq, qarısın.
Keçmiş olsun, bundan sonra gələn günlər xoş olsun.
Yanındaydı dostlar o gün Batıdan, həm Doğudan,
Anan səni nər doğubdu, ər doğubdu, Ərdoğan!

Türkün himni səslənəndə sevinc doğur gözündə,
Ucalırsan ucalanda bayrağın göy üzündə.
Sağ əlin də sol sinəndə - ürəyinin üstündə.
Vətən, dövlət sənin üçün həm şöhrətdir, həm də şan,
Anan səni nər doğubdu, ər doğubdu, Ərdoğan!

Zaman çarxı min illərdir, dayanmadan fırlanır,
Günəş çıxır, günəş batır, qüdrətindən hey yanır.
Bu get-gəllər dünyasında əməl qalır, ad qalır.
Yüz ildən bir, bəlkə, olar sənin kimi doğulan,
Anan səni nər doğubdu, ər doğubdu, Ərdoğan!

***Seyran CAVADOV,***
***"Azərbaycan"***

# Türkiyə artıq böyük qaz istehsalçısına çevrilir

## Qardaş ölkə bu gündən Qara dənizdə yeni yataqların istismarına başlayır

**Son illərdə hərtərəfli yüksəliş dövrünü yaşayan qardaş Türkiyə Cümhuriyyətinin dünyada yeni güc mərkəzi və söz sahibinə çevrilməsi danılmaz həqiqətdir. Qardaş ölkənin son 20 ildə iqtisadiyyatının real ifadədə 3 dəfə böyüməsi, 900 milyard dollarlıq ümumi daxili məhsula malik olması onu deməyə əsas verir ki, Türkiyə, sözün əsl mənasında, müasir inkişaf mərhələsindədir. Xüsusən də ağır və yüngül sənayesinin inkişafı ilə dünyada yeni rekordlara imza atan 100 yaşlı cümhuriyyət hərbi və maşınqayırma sənayesinin yeni kəşfləri, istehsalı ilə dünyaya meydan oxumaqdadır.**

Təkcə son bir neçə ildə "Baykar" şirkətinin "Akıncı" PUA-sı, "Qızıl alma" pilotsuz qırıcı təyyarələri, müşahidə peyki olan "İMECE"nin və tam elektrikli "Togg"un T10X avtomobil modelinin və pilotsuz təyyarələr, hərbi texnikalarla təchiz edilən "TCG Anadolu" gəmisinin istifadəyə verilməsi qardaş ölkənin hərbi gücünün, iqtisadi qüdrətinin əyani təzahürüdür. Aprelin 18-də Prezident Rəcəb Tayyib Ərdoğan mətbuata müsahibəsində qeyd edib ki, Türkiyə ikinci təyyarə gəmisi də inşa edəcək. İspaniya və Böyük Britaniya ilə birgə inşa ediləcək gəmi Türk Silahlı Qüvvələrinə təhvil verilmiş "TCG Anadolu" gəmisindən iki dəfə böyük olacaq.

Bütün bunlar Türkiyənin son illərdə uğurlu siyasət yürütməsinin nəticisində əldə etdiyi möhtəşəm uğurların parlaq ifadəsidir.

### 1 trilyon dollara bərabər qaz ehtiyatı

Bu bir həqiqətdir ki, Prezident Rəcəb Tayyib Ərdoğanın həyata keçirdiyi məqsədyönlü siyasət Türkiyəni ən böyük iqtisadi güc sahibinə, heç kimdən asılı olmayan ölkəyə çevirib. Məhz bu siyasətin nəticəsidir ki, son illər Türkiyə həm də dünyanın enerji mərkəzlərindən birinə çevrilməkdədir. Əgər diqqət etsək görərik ki, Rəcəb Tayyib Ərdoğanın rəhbərliyi ilə ölkə neft-qaz, elektrik enerjisi, ümumiyyətlə, enerji sektorunda çox ciddi nailiyyətlər əldə edir.

Təbii ki, müxtəlif sahələrdə istehsal və istehlakın artması enerjiyə tələbatı da artırır. Bu zamana qədər neft-qaz ölkəsi kimi tanınmayan qardaş ölkə bu sahə üzrə apardığı uğurlu siyasət və görülən işlər nəticəsində artıq qaz istehsalçısına da çevrilir. Qara dənizdəki qaz yataqları onun enerji sahəsində böyük istehsalçıya çevrilməsinə zəmin yaradıb. Türkiyənin bu dənizdə 2020-ci ildən bəri 710 milyard kubmetr təbii qaz ehtiyatının aşkarlanması ölkənin enerji təminatının əsasən daxili ehtiyatlar hesabına ödənilməsinə şərait yaradıb.

Ötən ilin dekabrında Rəcəb Tayyib Ərdoğan Nazirlər Kabinetinin iclasında Qara dənizdə yeni təbii qaz kəşfinin müjdəsini verərkən "Çaycuma-1" quyusunda - dənizin 3023 metr dərinliyində 58 milyard kubmetr təbii qaz ehtiyatı aşkar edildiyini bildirmişdi. Qara dənizdə kəşf edilən qazın beynəlxalq bazarlarda 1 trilyon dollara bərabər olduğu vurğulanmışdı.

### Türkiyənin qaza olan tələbatının dörddəbiri ödənəcək

Yeni yataqların kəşfləri Türkiyənin qaza olan tələbatının dörddəbirini ödəyəcək. Qeyd edək ki, Türkiyə layihə ilə bağlı boru yerləşdirmə işlərini ötən il tamamlayıb və işlər dənizin 2200 metr dərinliyində görülüb. Bu işlərin görülməsi isə müasir texnologiyalarla, uzaqdan idarə olunan robotlarla həyata keçirilir. Türkiyə ötən dövrlərdə Qara dənizdə quyular qazsa da, onlar yalnız xarici şirkətlərlə birgə iş sahəsində mümkün olmuşdur. İndi isə iqtisadi yüksəliş dövrünü yaşayan qardaş ölkə bu işləri artıq öz imkanları hesabına həyata keçirir.

Türkiyənin mavi qaza olan tələbatı öz hesabına ödəməsi yanacağın qiymətinin aşağı düşməsinə də gətirib çıxaracaq və bu, ümumilikdə ölkədəki inflyasiya səviyyəsini aşağı salacaq.

Enerji sahəsində, xüsusən qaz istehsalı ilə bağlı görülən işlər Türkiyəni böyük qaz istehsalçısı mərkəzinə çevirəcək. Bu işlərin həyata keçirilməsi üçün isə ölkənin kifayət qədər texniki avadanlığı, inkişaf etmiş infrastrukturu, böyük təcrübəsi və potensialı var.

Dünyada baş verən hadisələrin enerji sektoruna təsirini, həmçinin təchizat təhlükəsizliyini nəzərə alsaq, Türkiyənin bu sahədə gördüyü işlər həm öz, həm də müqavilə bağladığı bir sıra ölkələrin enerji təminatının etibarlı əllərdə olduğunu göstərir.

Türkiyə Neft Şirkəti bir neçə gün əvvəl təbii qazı quruya çıxaracaq boruların yerləşdirmə işlərinin tamamlandığını da elan edib. Təxminən 10



milyard dollarlıq investisiya qoyuluşu olan layihə nəticəsində Qara dəniz qazı Prezident Ərdoğanın iştirakı ilə aprelin 20-də, yəni bu gün keçiriləcək "Qara dəniz qazının istismara verilməsi mərasimi"ndə quruya çatdırılacaq.

Beləliklə, Türkiyə daxili tələbatını ödəməklə yanaşı, enerji sahəsində asılılığa da son qoyacaq.

Qeyd edək ki, Sakarya yatağından ilkin mərhələdə gündə 10 milyon kubmetr yanacaq çıxarılacağı, 2028-ci ilə qədər isə bu rəqəmin 40 milyon kubmetrə çatacağı proqnozlaşdırılır.

Quruda 8 min, dənizdə isə 2 mindən çox işçinin çalışdığı layihənin birinci mərhələsində hasil edilən qazın cari il mayın birinci yarısında təsərrüfatlara verilməsi də nəzərdə tutulur. Gündəlik qaz hasilatı Faza-1-də 10 milyon kubmetr, Faza-2-də 40 milyon kubmetr, Faza-3-də 60 milyon kubmetr təşkil edəcək.

Faza-1 çərçivəsində planlaşdırılan 10 quyudan 5-i bu gün, qalan 5 quyu isə sentyabrın sonunda, Faza-2 çərçivəsində planlaşdırılan 26 quyudan 10-u 2025-ci ildə, qalan 16 quyu isə 2028-ci ildə istismara veriləcək. "Amasra" yatağının da daxil olduğu Faza-3 isə 2028-ci ilə qədər fəaliyyətə başlayacaq.

### Türkiyə qazı digər ölkələrə də nəql olunacaq

Mavi qaza olan tələbatının, demək olar ki, hamısını idxal edən Türkiyə üçün bu layihə çox mühüm əhəmiyyət kəsb edir. Qaz yataqlarından əldə olunan yanacağın ölkənin daxili tələbatının böyük qismini ödəməklə yanaşı, ixrac olunması da planlaşdırılır.



Xatırladaq ki, Türkiyənin qaz ixracatı ilə bağlı müqavilə bağladığı ilk ölkə Bolqarıstan olub. Son bir ildə müxtəlif ölkələrlə danışıqlar aparılıb. Nəticədə, ötən il bu istiqamətdə ilk addım Bolqarıstanla atılıb və iki ölkə arasında saziş imzalanıb. Razılaşmaya əsasən, 2035-ci ilə qədər Türkiyə bu ölkəyə illik 1,5 milyard kubmetr qaz ixrac edəcək. Beləliklə, 13 il ərzində Türkiyədən Bolqarıstana 20 milyard kubmetr qaz nəql olunacaq.

Eyni zamanda Şimali Makedoniya, Rumıniya və Moldova ilə də danışıqlar gedir. Ümumilikdə isə Türkiyənin region ölkələrinə təbii qaz tədarükünü 3 dəfəyə qədər artırmaq potensialı olduğu bildirilir.

Bu isə Prezident Rəcəb Tayyib Ərdoğanın uğurlu siyasəti, Türkiyə iqtisadiyyatını dünyanın ən güclü iqtisadiyyatlarından birinə çevirmək istiqamətində gördüyü işlər, eyni zamanda bütün sahələrdə ölkəsinin asılılığına son qoymaq üçün səylərinin nəticəsidir. Elə buna görə hazırda Türkiyə dünyada öz sözünü deyən, müstəqil siyasət yürüdən, güclü ordusu, inkişaf etmiş sənayesi ilə dünyanın qabaqcıl dövlətlərindən biridir.

Aprelin 18-də mətbuata açıqlamasında Türkiyə Prezidenti istismara veriləcək Qara dəniz qazı ilə bağlı məsələyə də toxunaraq deyib ki, qazın ilk mərhələsi Filyosda istismara veriləcək. Onun sözlərinə görə, hasilat 3 ildə 40 milyon kubmetrə çatacaq: "İkinci mərhələ başa çatdıqdan sonra bütün yaşayış evlərinin qaz ehtiyacını ödəyə biləcək səviyyəyə çatacağıq. Hazırda yeni kəşflər üçün işlər görülür. Mərkəzi Qara dənizdə seysmik tədqiqatlar tamamlandı. Şərqi Qara dənizdə isə tədqiqatlar davam edir. Tədqiqatlardan sonra qazma işlərinə başlanılacaq. Qərbi Qara dənizdə aparılan kəşfiyyat bölgənin yüksək potensialını göstərir. Ümid edirəm ki, həm öz qazımızı istehsal edəcək, həm də başqa ölkələrə qaz satacağımız günləri də görəcəyik". Əlbəttə ki, görülən işlər Türkiyənin enerji sahəsində də güclü dövlətə və regional mərkəzə çevrilməsinə zəmin yaradacaq.




### Türkiyə Avropanın enerji təhlükəsizliyində böyük rol oynayır

TAP və TANAP layihələrinin həyata keçirilməsində önəmli rol oynayan Türkiyə Cümhuriyyəti Avropanın enerji təhlükəsizliyinin təmin olunmasında da böyük rol oynayır.



Hələ 2018-ci ildə Trans-Anadolu qaz (TANAP) kəmərinin istifadəyə verilməsi münasibətilə Türkiyənin Əskişəhər şəhərində keçirilmiş mərasimdə bu layihənin Türkiyə ilə Azərbaycanın növbəti zəfəri olduğunu qeyd edən Prezident İlham Əliyev bildirmişdi ki, iki qardaş ölkənin birgə enerji layihələri bölgəyə sabitlik gətirir: "Bu layihələrdə iştirak edən bütün ölkələr, bütün şirkətlər fayda görür, xalqlar fayda görür. TANAP kimi nəhəng layihənin həyata keçirilməsi Türkiyə-Azərbaycan liderlərinin birgə güclü siyasi iradəsi nəticəsində mümkün olmuşdur".

TANAP üzrə anlaşma 2012-ci ildə İstanbul şəhərində imzalanıb. Həm texniki, həm də maliyyə baxımından mürəkkəb layihə olan TANAP müvəffəqiyyətlə yekunlaşaraq bir çox ölkələr üçün imkanlar yaradıb. "Cənub qaz dəhlizi"nin ayrılmaz hissəsi olan, eyni zamanda Xəzər qazının ilk dəfə olaraq Avropaya nəqlində əvəzsiz rola malik TANAP enerji təhlükəsizliyi məsələlərinin həlli üçün mühüm infrastruktur layihəsi hesab olunur.

Qeyd edək ki, TANAP layihəsi Xəzər sahillərindən başlayıb Adriatik dənizi sahilinə və İtaliyayadək 3500 kilometr məsafədə uzanaraq, təbii qazın Türkiyəyə və Avropaya nəqlini nəzərdə tutur. 1850 kilometrlik hissəsi Türkiyədən keçən TANAP Türkiyə, Yaxın Şərq və Avropanın ən uzun təbii qaz boru kəməridir. TANAP Türkiyənin 20 vilayətindən, 67 rayonundan və Çanaqqala boğazından keçən marşruta sahibdir. Bu layihənin ilkin ötürücülük qabiliyyəti ildə 16 milyard kubmetrdir. Bunun 6 milyard kubmetri Türkiyəyə, 10 milyard kubmetri isə Avropaya nəql olunur.

### Ən iddialı enerji istehsalı layihəsi

Bəli, uzaqgörənliklə, uğurlu siyasətlə daha böyük hədəflərə çatan Rəcəb Tayyib Ərdoğan mümkünsüz kimi görünən, amma perspektivdə böyük vədlər verən layihələrə imza atmaqla, enerji sahəsinə sərmayələr yatırmaqla, artıq Türkiyəni güclü dövlətə çevirib.

Azərbaycanla Türkiyənin birgə layihəsi isə təbii ki, TANAP-la yekunlaşmır. İlham Əliyev və Rəcəb Tayyib Ərdoğanın da iştirakı ilə müxtəlif illərdə Bakı-Tbilisi-Ceyhan neft, Bakı-Tbilisi-Ərzurum qaz kəmərlərinin, Bakı-Tbilisi-Qars dəmir yolu və TAP layihəsinin açılış mərasimləri baş tutub.

Əsrin layihələri kimi tanınan TAP və TANAP Türkiyənin Avropanın enerji təhlükəsizliyindəki rolunu artırıb. Eyni zamanda belə böyük layihələrdə iştirak Qara dəniz qazının istehsalı ilə bağlı enerji layihəsinə də təkan verib. Hazırda bu layihə Türkiyənin ən iddialı enerji istehsalı layihəsi kimi qəbul edilir və Türkiyə xalqının rifahının daha da yaxşılaşdırılmasına xidmət edəcək.

"Cənub qaz dəhlizi"nin əsas hissəsi olan TANAP Yunanıstanda Trans-Adriatik boru xəttinə (TAP) birləşir. Onu da qeyd edək ki, TANAP-ın səhmlərinin 7 faizi "SOCAR Turkey Enerji A.Ş"yə, 30 faizi BOTAŞ-a, 12 faizi bp şirkətinə, qalan 51 faizi isə "Cənub qaz dəhlizi" QSC-yə məxsusdur.

Layihənin açılış mərasimində iştirak edən Prezident Rəcəb Tayyib Ərdoğan qeyd edib: "...TANAP ilk dəfə gündəmə gələndə bəzi dairələr - İlham qardaşım bunu çox yaxşı bilir - buna xülya dedilər, həyata keçirilməsi mümkün deyil dedilər. Amma biz səbir etdik, dözüm göstərdik. Doğru bildiyimiz yolla qətiyyətlə irəlilədik və israr etdik. Nəticədə isə bu gün bərabər yaşadığımız qürur tablosuna şahid oluruq. İndi qarşımızda daha böyük hədəflər, yeni layihələr var. İndi qarşımızda buradan aldığımız ilhamla yeni uğur hekayələri yazmaq var".

### Qaz hasilatı Türkiyənin enerji təhlükəsizliyinin formalaşmasına xidmət edəcək

Milli Məclisin deputatı, İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin üzvü Vüqar Bayramov qəzetimizə açıqlamasında bildirdi ki, Türkiyə mavi qazın nəqlində regional haba çevrilmək niyyətindədir. Onun sözlərinə görə, qardaş ölkə bir tərəfdən təbii qazın alınması, eyni zamanda ixracatını reallaşdırmağı hədəfləyir.

Deputat qeyd edib ki, qazın ixrac edilməsi ilə bağlı şəbəkənin formalaşması istiqamətində işlər gedir: "Gələn həftə qardaş ölkə Mərkəzi və Şərqi Avropanın dörd ölkəsi ilə Azərbaycan mavi qazının nəqli ilə bağlı anlaşma imzalayacaq. Bu baxımdan Türkiyədə qaz hasilatının həyata keçirilməsi bu ölkənin regional haba çevrilməsi prosesini daha da sürətləndirəcək. Eyni zamanda bu, Türkiyə üçün dövlət gəlirlərinin artırılması baxımından kifayət qədər vacib mənbədir".

Türkiyənin uzun müddət qaz idxal etdiyini vurğulayan Vüqar Bayramov əlavə edib ki, bu, Türkiyəni idxalçı ölkədən ixracatçı ölkəyə çevirəcək. Bu da təbii ki, ölkənin geosiyasi və geoiqtisadi mövqeyinin gücləndirilməsi baxımından çox vacibdir. Ona görə də Türkiyədə mavi qaz hasilatı bütövlükdə bu ölkənin regional mövqeyi baxımından yeni bir səhifədir. "Bu, qardaş ölkənin dövlət gəlirlərinin artmasına xidmət etməklə yanaşı, enerji təhlükəsizliyinin formalaşmasına və regional mövqeyinin daha da güclənməsinə xidmət edəcək", - deyə deputat əlavə edib.

***Əsmər QARDAŞXANOVA,***
***"Azərbaycan"***



## Heydər Əliyev İli 2023

# Böyük Zəfər Heydər Əliyev

Əvvəli 1-ci səh.

Əbədi liderimizin şanlı tərcümeyi-halı ilə tanış olarkən bu böyük qüdrət sahibinin dövlətinə və xalqına nə dərəcədə bağlı olduğunu minlərlə fakt əsasında daha müfəssəl dərk edirsən. Anlayırsan ki, Heydər Əliyevin ömrü nə şəxsi həyatına, nə ailəsinə, nə də karyerasına həsr olunub. Əksinə, o, millətinin maraqlarını və ölkəsinə xidməti daim şəxsi həyatının, ailəsinin, karyerasının fövqündə tutub. Budur, əsl vətəndaşlıq və rəhbər iradəsi. Ümummilli Liderimiz məhz bu xüsusiyyətlərinə görə Azərbaycan tarixində şəriksiz örnəkdir, nümunədir.

Adətən, görkəmli insanların, güclü liderlərin tərcümeyi-halı onların xalqlarının, dövlətlərinin şanlı tarixinə çevrilir. Azərbaycanın son 50 ildən artıq tarixi, əslində, Heydər Əliyev epoxası - mərhələsi adlana bilər. Tariximizin bu dövrü iftixar mənbəyimizdir. Çünki bu illər yalnız inkişaf və qüdrətlənmə mərhələsi deyil, həm də xaosdan qurtuluşa, böhrandan yüksəlişə keçidin real dövrüdür.

Heydər Əliyev həm birinci, həm də ikinci dəfə hakimiyyətə gələndə ölkəmiz özünün ağır dövrünü yaşayırdı. Ötən əsrin 60-cı illərinin sonlarında Azərbaycan ittifaq miqyasında geridə qalmış, sənayesi olmayan, əhalisi kasıblıq içərisində yaşayan respublika idi. Amma Ulu Öndərimiz qısa müddət ərzində bu problemləri həll etdi və Azərbaycan bütün sahələr üzrə ciddi irəliləyişlərə nail oldu. Ölkəmiz gücləndi, xalqımız rifah içində yaşamağa başladı.

1969-1982-ci illərdə Azərbaycan böyük bir tikinti meydanına, quruculuq məkanına çevrilmişdi. Ulu Öndər paytaxtdan kəndlərədək bütün yaşayış məntəqələrində müasir tipli məktəblər, xəstəxanalar, mədəniyyət ocaqları, ictimai-iaşə obyektləri inşa etdirirdi. Bölgələrdə mütəmadi olaraq yeni fabrik və zavodlar açılırdı. Yeni istehsal sahələri ölkənin iqtisadi müstəqilliyinin daha da artmasını şərtləndirirdi. Əhalinin sosial durumu qat-qat artırdı. Sənaye, kənd təsərrüfatı, istehsal dinamik inkişaf edirdi.

Mən rəqəmlərlə sizləri yormaq istəmirəm. Ancaq elə göstəricilər var ki, onları hökmən dönə-dönə xatırlatmaq, xüsusən də gənc nəslin yadına salmaq lazımdır.

Məlum olduğu kimi, müstəqillik qazananda bizim dadımıza çatan iqtisadi-sosial infrastrukturlar, ən əsası isə neft infrastrukturu məhz Heydər Əliyev dühası nəticəsində 70-80-ci illərdə ərsəyə gəlmişdi. Ölkədə o dövrdə 215 yeni sənaye müəssisəsi istismara verilmişdi. Sənayedə əmək məhsuldarlığı 2,1 dəfə artmışdı. 581 adda yeni tipli maşın, avadanlıq, aparat və cihaz nümunələri yaradılmışdı. 1056 adda mühüm sənaye məhsulunun kütləvi buraxılışına başlanılmış, 310 avtomatlaşdırılmış xətt, 1300 kompleks mexanikləşdirilmiş xətt və avtomatlaşdırılmış məntəqə, sex və istehsal sahəsi yaradılmışdı. Milli gəlirin həcmi 2,5 dəfə artmışdı.

Həqiqət həmişə müqayisədə üzə çıxır. Ulu Öndərin ilk rəhbərliyi dövrünün də uğurunu məhz bu müqayisələr üzə çıxardır. Məsələn, qeyd edilən 13 il ərzində ölkə iqtisadiyyatına yönəldilmiş kapital qoyuluşunun həcmi 1920-1970-ci illəri əhatə edən 50 il ərzindəkinə nisbətən 2,1 dəfə çox olmuşdu. O cümlədən sənayedə 2,1 dəfə, kənd təsərrüfatında 4,2 dəfə, nəqliyyat və rabitədə 2,2 dəfə, tikintidə 3,6 dəfə, mənzil tikintisində 1,5 dəfə çox artmışdı. Özü də artım faizlərlə yox, dəfələrlə ölçülürdü. 1970-ci ildən başlayaraq respublikamız 13 il ardıcıl olaraq hər il SSRİ-nin ən yüksək mükafatı olan Keçici qırmızı bayraqları ilə təltif edilmişdi.

Bu rəqəmlərin mahiyyətində yalnız riyazi göstəricilər yoxdur, ondan daha artıq Ulu Öndərimizin fədakarlığı və Azərbaycan naminə şanlı missiyası aydın görünür.

1982-ci ildə Heydər Əliyev Azərbaycanın adını növbəti dəfə ucaltdı və bacarığı, istedadı, idarəçilik məharəti, işgüzarlığı nəticəsində ittifaq rəhbərliyinə yüksəldi. Ümummilli Liderimiz artıq dünyanın altıdabirini təşkil edən böyük bir dövlətin ən ali rəhbərliyində yer tutdu. Xatırladım ki, Nazirlər Soveti sədrinin birinci müavini vəzifəsi baş katib, Ali Sovetin sədri və Nazirlər Sovetinin sədri postlarından sonra gəlirdi. İttifaqın iqtisadiyyatına, sənayesinə, təsərrüfatına, səhiyyəsinə, elminə, təhsilinə, mədəniyyətinə, tikintisinə, digər strateji sahələrinə rəhbərlik edən Heydər Əliyev Siyasi Büronun üzvü kimi də dövlətin xarici və daxili siyasətini müəyyənləşdirirdi.

Heydər Əliyev 5 il ərzində Brestdən Vladivostokadək, Norilskdən Həştərxana qədər yüzlərlə tikinti meydanının, Baykal-Amur Magistralının baş inşaatçısına çevrildi. Heydər Əliyev bu illər ərzində vətənini də unutmadı. Həmin dövrdə mərkəzdən Azərbaycana ayrılan vəsaitlərin həcmi dəfələrlə artırıldı, respublikada gedən quruculuq işlərinə daha geniş töhfə verildi.

Ötən əsrin 70-80-ci illərində Abşeron rayonu da respublikanın ən aparıcı iqtisadi mərkəzlərindən biri oldu. Rayonumuzda çoxsaylı zavodlar, fabriklər tikildi, parklar və istirahət mərkəzləri salındı, minlərlə mənzil sakinlərin ixtiyarına verildi. Aqrar sektor müasir üsullarla davamlı inkişaf yoluna çıxdı. Heydər Əliyevin qayğısı, dəstəyi və şəxsi nəzarəti altında Abşeron artıq tək Azərbaycanın yox, bütün Qafqazın ən abad, ən inkişaf etmiş, ən güclü iqtisadi potensialı olan bölgələrindən birinə çevrildi.

Söylədiyim faktlar, həmçinin vaxt məhdudluğundan toxuna bilmədiyim bundan minlərlə dəfə çox digər faktın timsalında tam əminliklə deyə bilərəm ki, Ulu Öndər Heydər Əliyevin 1969-cu ildən başlayan dövlətçilik fəaliyyəti həm də Azərbaycanın Birinci Qurtuluş missiyası idi.

1993-cü ilin 15 iyununda əbədiləşən Qurtuluş missiyasını isə mən məhz tarix baxımından ikinci mərhələ sayıram.

Zalda əyləşənlərin əksəriyyəti 30 il öncənin bu günlərinin müasirləri olublar. Həmin dövrün - 1988-1993-cü illərin məşəqqətlərini, böhranlarını, məğlubiyyətlərini biz fərdi qaydada yox, məhz bir millət olaraq hamılıqla yaşamışıq. Yarıtmaz, xəyanətkar, avantürist rəhbərlərin və onların millilikdən uzaq komandalarının səhvlərini, bacarıqsızlıqlarını, bəzən isə biləməkdən törətdikləri fəsadlarını bütün dövlətimiz, xalqımız taleyimizin ən acı günləri kimi yaşayıb. O günləri unutmamalıyıq və ən əsası gənc nəslə dönə-dönə xatırlatmalıyıq, faktların, müqayisələrin dili ilə çatdırmalıyıq. Çünki o günləri unutsaq, o dövrdə bizi bəlalara aparan məkrli insanları xatırlamasaq, gələcəkdə bu tarix təkrarlana bilər.

Heydər Əliyevsizlik dövründə - 1987-1993-cü illərdə Azərbaycan təkləndi, Kremlin və erməni separatçılarının qarşısında təslim oldu. Ermənistandan həmvətənlərimizin köçürülməsinə, Qarabağda isə işğala başlanıldı. Ardınca 20 Yanvar qətliamı baş verdi. Xalq rəhbərsiz, lidersiz qaldı. Azərbaycanın harayına yenə də yalnız Heydər Əliyev səs verdi. Haqq səsimizi dünyaya yaydı. Sonra isə Azərbaycana dönərək yeni mərhələdə xilaskarlıq missiyasına başladı.

Bakıdakı intriqalar, saray çəkişmələri nəticəsində Heydər Əliyev Naxçıvana qayıtdı. Ümummilli Liderimiz özünün qəti etirazlarına, rəsmən imtinasına baxmayaraq, Naxçıvan sakinlərinin uzunmüddətli mitinqlərindən sonra muxtar respublikanın Ali Məclisinə rəhbərlik etməyə razılıq verdi. O, xalqın arzu və istəkləri ilə yenidən siyasi olimpə doğru irəlilədi. Naxçıvan Azərbaycanın müstəqillik savaşının ideya və real fəaliyyət mərkəzinə çevrildi. Məhz ilk dəfə Naxçıvanda dövlət atributları qəbul olundu, bayrağımız rəsmi formada dalğalandı, "Sovet Sosialist" sözündən imtina edildi,



sovet qoşunları ərazini tərk etdi, sərhəd məntəqələrində Azərbaycan bayrağı ucaldıldı, tarixi ədaləti və müstəqil dövlətçilik prinsiplərini bərqərar edən fərmanlar imzalandı. Heydər Əliyevin bu təşəbbüslərini sonradan Azərbaycan Milli Şurası da rəsmiləşdirməyə məcbur oldu. Heydər Əliyev Azərbaycan məkanında əsl müstəqillik və layiqli dövlətçilik nümunəsini formalaşdırdı. Blokadada olan bölgəni yaşatmağa müvəffəq oldu. Əhalinin təhlükəsizliyini təmin etdi. İşğalın qarşısını aldı. Naxçıvanı xilas etdi. Növbə artıq bütün Azərbaycanın idi.

1993-cü ilin iyununda xalqın əlini nəinki dövlətdən, hətta Allahdan da üzdüyü vaxt nəzərlər yenidən Heydər Əliyevə dikilmişdi. Bu zaman böyük şəxsiyyətin hakimiyyətə qayıdışını yalnız xalq tələb etmirdi, ixtilafları ilə ölkəni uçurum qarşısında qoyan bütün siyasi qüvvələr də Ulu Öndərin rəhbərliyə gəlişini yeganə nicat sayırdılar. Heydər Əliyev hakimiyyətə qayıtdı və 13 il ərzində qurduğu dövlətin 1987-ci ildən 1993-cü ilə qədər davamlı şəkildə dağıdılması prosesinin qarşısını aldı, xalqın ondan gözlədiyi qurtuluş missiyasını reallaşdırdı.

1993-cü ilin Azərbaycanını xatırlayaq. Daxilində vətəndaş müharibəsi gedən, şimalda və cənubda separatizmin baş qaldırdığı, hakimiyyətin özünü donduraraq səlahiyyətlərini icra etmədiyi, xalqın arpa ununa möhtac olduğu bir ölkəyə Heydər Əliyev rəhbərliyə gəlməsəydi, bu gün Suriyanın, Əfqanıstanın, İraqın düşdüyü durumu biz 30 il əvvəl yaşayacaqdıq.

Heydər Əliyev Azərbaycana sabitlik, iqtisadi yüksəliş, sosial inkişaf, demokratiya, güclü ordu, qüdrətli dövlət bəxş etdi. Mükəmməl Konstitusiya yaratdı, təkmil islahatların müəllifi oldu. Torpağı kəndliyə təmənnasız bağışladı, nefti fəlakət mənbəyindən ümumxalq sərvətinə çevirdi. Ulu Öndərimiz həqiqi müstəqilliyi yaratdı, dövləti yaşatdı. Bügünkü müstəqil və qüdrətli Azərbaycan məhz Heydər Əliyevin misilsiz fəaliyyətinin nəticəsidir.

Heydər Əliyevin Azərbaycan qarşısında xidmətlərindən danışdıqca bitməz. Əslində, biz bu xidmətlərin hamısını tam mahiyyəti ilə hələ aça bilməmişik. Çünki Heydər Əliyevin böyüklüyünü hər gün yeni faktlarla görürük, duyuruq. Amma mənim fikrimcə, yəqin sizlər də belə fikirdəsiniz ki, Heydər Əliyevin ən böyük xidmətlərindən biri onun siyasi kursunu layiqincə davam etdirən, böyük əziyyətlər hesabına qurduğu Azərbaycanı yaşadacaq bir lideri yetişdirməsidir. Bu lider - möhtərəm cənab Prezident İlham Əliyev yeni dövrün Heydər Əliyevidir. Bu gün bizim dövlət başçımız dünya ölkələri rəhbərləri sırasında öz qətiyyətinə, məğrurluğuna və liderlik keyfiyyətinə görə öndədir. Prezident İlham Əliyev beynəlxalq birlikdə dövrümüzün qlobal siyasi rəhbəri kimi qəbul edilir. Möhtərəm Prezidentimizin Azərbaycanın maraqlarını necə əzm və fədakarlıqla qoruduğunu, antiazərbaycançı düşmən şəbəkəni necə böyük məharətlə məhv etdiyini biz böyük fəxarət hissilə seyr edirik.

Ən böyük qürurumuz isə odur ki, Azərbaycan öz tarixinin çox güclü yüksəliş, sürətli inkişaf dövrünü yaşayır. Bu prosesin təminatçıları isə məhz Heydər Əliyev siyasəti və Prezident İlham Əliyevin kursudur.

Cənab İlham Əliyev Azərbaycan tarixinə öz möhtəşəm imzasını çox istiqamətlər üzrə atıb. Ancaq iki məqam xüsusilə seçilir. Prezident İlham Əliyev Tarixin Ən Qüdrətli Azərbaycanının və tarixin ən böyük hərbi zəfərinin müəllifidir.

Böyük zəfər Heydər Əliyev ideallarının təntənəsi idi. Bu Zəfər hər birimizin, əslində, gələcək nəsillərin də əsrlər sonra belə qürur duyacağı məğrurluq faktıdır. Müzəffər Ali Baş Komandanın və Qüdrətli Ordumuzun rəşadətinin nəticəsi olan bu zəfər hər birimizin taleyindən keçir. Bu gün tədbirimizdə Zəfərin birbaşa aidiyyəti olduğu əziz insanlar da təmsil olunurlar. Qəhrəman şəhidlərimizin ailə üzvləri, cəsur qazilərimiz və dəyərli veteran dostlarımız bizim iftixar mənbələrimizdir. Biz sizlərlə qürur duyuruq, sizlərə bir daha minnətdarlığımızı bildiririk.

Zəfər tarixində Abşeronun və igid abşeronluların mühüm payı, töhfəsi var. Hələ Tovuz hadisələrindən sonra rayonumuzun minlərlə gənci könüllü kimi hərbi xidmətə yazıldı, artıq labüd görünən savaşda iştiraka hazır olduqlarını bəyan etdi. Vətən müharibəsi başlayan kimi cəsur abşeronlu əsgər və zabitlər Suqovuşandan Şuşayadək bütün döyüş bölgələrində qəhrəmanlıq dastanı yazdılar. Bütün hərbi məntəqələrdə əziz şəhidlərimizin müqəddəs qanları iz saldı.

Ulu Öndər ardıcıllarına hər zaman öyrədirdi ki, hərbçilərə və şəhid ailələrinə həssaslıqla qayğı göstərmək, dayaq olmaq əsas vəzifəmiz olmalıdır. Möhtərəm Prezident İlham Əliyevin, həmçinin hörmətli Mehriban xanım Əliyevanın öz fəaliyyətlərində bu kateqoriyadan olan insanlara göstərdikləri münasibət isə bizlərə ən mükəmməl örnəkdir.

Prezidentimizin tələb etdiyi kimi, şəhid ailələrinə, qazi və veteranlara dəstək, onların qayğılarına qalmaq, problemlərini həll etmək Abşeron rayonunun bütün dövlət və yerli özünüidarə orqanlarında əsas prioritetdir. Biz onlarla bərabərik, aramızda, ünsiyyətimizdə heç bir sədd, maneə yoxdur. Biz, əslində, bir ailəyik.

Bu sahədə gördüyümüz işləri rəqəmlərlə, faktlarla sadalamağı düzgün saymıram. Buna əsla ehtiyac yoxdur. Nə etmişiksə, borcumuzdur. Yalnız bir məsələni vurğulamaq istərdim: Abşeronda şəhid ailələri, qazi və veteranlar dövlət orqanlarından narazı deyillər. Bugünkü konfransımızda da bu zümrədən olan insanların çıxışlarına geniş yer verəcəyik.

***Milli Məclisin deputatı, "Azərbaycan" qəzetinin baş redaktoru Bəxtiyar SADIQOV** vurğuladı ki, Azərbaycan bineyi-qədimdən aqrar ölkə sayılıb. Burada yaşayan əhalinin başlıca məşğuliyyəti kəndlə bağlı olub. Kənddə yaşayanlar isə əkinçilik, heyvandarlıq, bitkiçilik məhsulları istehsal etməklə dolanışıqlarını təmin edib:*

- Bakıda neft sənayesinin inkişafı, digər şəhərlərin salınması, tikilib-qurularaq böyüməsi sənayenin də meydana gəlməsinə və inkişafına şərait yaradıb. Lakin kənd təsərrüfatı daim aparıcı sahə hesab olunub.

Azərbaycan Xalq Cümhuriyyəti dövründən indiyədək ölkəmizdə kənd təsərrüfatının inkişafı sahəsində iki dəfə sıçrayış və yüksəliş baş verib. Bu sıçrayış və inkişafın hər ikisi də Ulu Öndər Heydər Əliyevin Azərbaycana rəhbərliyi dövrünə təsadüf edib.

Tale elə gətirib ki, hər iki dövrün şahidi, iştirakçısı və baş verən hadisələri tarixin səhifələrində həkk etdirən yazarlardan biri olmuşam. Ulu Öndər Heydər Əliyevin Azərbaycana rəhbərliyə başlamasının ilk ilində - 1969-cu ildə Azərbaycan Dövlət Universitetinin Jurnalistika fakültəsinə qəbul olundum. Təhsilimi başa vurub jurnalist kimi əmək fəaliyyətinə Abşeron rayonunda nəşr olunan "Abşeron" qəzetində başladım. Aqrar mövzuda yazan jurnalist kimi sahənin uğur və problemləri ilə yaxından tanış oldum.

Ulu Öndər Heydər Əliyevin respublikaya rəhbərliyə başladığı birinci dövrdə Azərbaycan geridə qalmış, yoxsul vəziyyətdə idi. İqtisadiyyatın (həm də təkcə iqtisadiyyatın yox) bütün sahələri tənəzzül dövrünü yaşayırdı.

1941-1945-ci il müharibəsində intensiv istismara məruz qalan neft sənayesi avadanlıq sarıdan köhnəlmiş, yeni yataqlar kəşf edilmədiyindən istismar xeyli azalmışdı. Olub-qalan sənaye sahələri də bərbad gündə idi. Bütün sahələrdə ciddi dəyişikliyə, sərmayə qoyuluşuna ehtiyac duyulurdu. Necə deyərlər, hər şeyə az qala sıfırdan başlamaq lazım gəlirdi. Böyük enerji və təşəbbüskarlıqla işə başlayan Ulu Öndər Heydər Əliyev bütün bunları bacardı, Azərbaycan iqtisadiyyatını böhrandan qurtardı, bütün sahələrdə dönüş və dəyişikliklərə nail oldu.

Belə bir vacib məqamı da qeyd edək ki, neft sənayesinin yüksəldilməsi, ölkə paytaxtında, habelə Sumqayıtda yeni zavodların, müxtəlif tipli sənaye müəssisələrinin yaradılması işçi qüvvəsinə ehtiyacı da artırır, şəhər əhalisinin artımında baş verən sürətli dəyişikliklər isə, öz növbəsində, təchizat və təminat məsələlərini ön plana çəkirdi. Başqa sözlə desək, iri şəhərlərə toplanan əhalinin ərzaq məhsulları ilə təminatı da ciddi əhəmiyyət kəsb edirdi.

1963-cü ildə yaradılan Abşeron rayonunun qarşısına qoyulan başlıca vəzifə Bakı və Sumqayıt şəhəri zəhmətkeşlərinin kənd təsərrüfatı məhsullarına olan ehtiyaclarının ödənilməsiydi. Çox çətin və məsuliyyətli iş idi. Odur ki, hamıdan böyük fədakarlıq tələb olunurdu. Sosializm dövründə hər şey dövlətin əlində cəmləşdirilmişdi. Bütün istehsal vasitələri, fabrik və zavodlar dövlətə məxsus idi.

Kənd təsərrüfatında da eyni vəziyyət hökm sürürdü. Hətta kolxoz əmlakı formal şəkildə bir qrup insana - kolxozun üzvlərinə məxsus olsa da, əslində, onu dövlət idarə edir, kadrların seçilib yerləşdirilməsindən tutmuş, bütün məsələlərədək nəzarəti dövlət həyata keçirirdi.

Dövlət tərəfindən hər bir kolxoz və sovxozun, emal müəssisələrinin, bütövlükdə rayonların qarşısına konkret tapşırıqlar qoyulur və icrası tələb olunurdu. Hətta bəzən hər bir kolxoz və sovxozda hər hansı növ bitkinin neçə hektarda əkilib-becərilməsi, nə qədər məhsul istehsal edilməsi belə rayon və respublika rəhbərliyi tərəfindən müəyyən olunurdu.

SSRİ miqyasındakı ehtiyaclar isə Moskva tərəfindən müəyyənləşdirilərək müttəfiq respublikalara yerinə yetirilməsi üçün məcburi göstərişlər şəklində verilirdi. Bütün bu tələblər "plan və sosialist öhdəliyi" adı altında rəqəmlərlə ifadə olunaraq icrası məcburi sayılırdı. Belə planların yerinə yetirilməsi asan olmasa da, təcrübədə üz ağlığı, yüksək əməkhaqqı, mənəvi və maddi mükafatlandırma və həvəsləndirmənin digər formaları ilə müşayiət olunurdu. Odur ki, bütün qüvvələr plan tapşırıqlarının icrasına yönəldilirdi.

Ulu Öndərin uzagörənliyi, nəhəng təşkilatçılıq bacarığı, şəxsi nüfuzundan və inandırmaq məharətindən istifadəsi sayəsində mərkəzdən Azərbaycana əlavə xeyli vəsait gətirilərək, kənd təsərrüfatının durğunluqdan çıxarılması təmin olundu.

Dövrün ən mühüm stimulverici amillərindən biri sosializm yarışının təşkili idi. Yarışın illik yekunları əsasında hər bir əmək kollektivinin, rayonun və respublikanın uğurları qiymətləndirilirdi. Qaliblərə Keçici qırmızı bayraqlar təqdim olunurdu.

Ulu Öndər Heydər Əliyevin rəhbərliyi doründə Azərbaycanın kənd əməkçilərinin on dörd dəfə Ümumittifaq sosializm yarışında qalib gəlməsi və beləliklə, Sov.İKP MK-nin, SSRİ Nazirlər Sovetinin və SSRİ Həmkarlar İttifaqları Təşkilatlarının Keçici qırmızı bayrağına layiq görülməsi həmin dövr üçün görünməmiş hadisələrdən sayılırdı. Məhz bunun sayəsində Azərbaycana Ümumittifaq fondundan yüksək məbləğdə vəsait ayrılır, ölkənin maddi-texniki təminatı yaxşılaşdırılır, bütövlükdə əhalinin güzəranı əsaslı şəkildə yüksəlirdi.

Heydər Əliyevin kənd əhalisinin qüvvəsini səfərbərliyə alması, əməyin təşkilinin yeni metodlarından bacarıqla istifadəsi, ittifaq mərkəzində sözünün keçməsi və istəklərinin təmin olunması onun rəhbərliyi dövründə Azərbaycan kəndinin də, kəndlisinin də firavanlığını əsaslı surətdə yüksəltdi.

Halal yolla yüksək əməkhaqqı və mükafat alan kəndlilər ailəlikcə təsərrüfatlarda çalışır, özlərinə yeni evlər tikdirir, məişət şəraitlərini yaxşılaşdırır, övladlarını böyüdərək onlara ali təhsil verə bilirdilər.

Azərbaycan kəndinin əsaslı şəkildə ilk dəfə yenidən tikilib-qurulması da Heydər Əliyevin respublikaya rəhbərliyi dövründə baş verdi. Abşeron rayonu yeni yaradıldığından qarşısında duran yüksək vəzifələr sürətli inkişaf tələb edirdi. Başlıca tələb şəhər əhalisinin ilk növbədə ətə, südə, tərəvəz və bostan məhsullarına tələbatının ödənilməsi sayılsa da, burada çoxsahəlilik mövcud idi.

Məsələn, Abşeronda heyvandarlıq bir neçə istiqamətdə inkişaf etdirilirdi. Rayonda maldarlıq fermaları ilə yanaşı, qoyunçuluq təsərrüfatları, yumurta və ət istiqamətli çoxsaylı quşçuluq-broyler fabrikləri fəaliyyət göstərirdi. Hətta Ümumittifaq fondu üçün nəzərdə tutulan donuz əti istehsalı ilə bir sovxoz və bir kompleks məşğul olurdu.

Geniş zeytun və badam bağları salınmış, gülçülük təsərrüfatı, istixanalar (xiyar və pomidor istehsal edən) yaradılmışdı. Nadir tapılan məhsullardan sayılan zəfəran, habelə şanı süfrə üzümü sortu da bu rayonda becərilirdi. Hər təsərrüfat sahəsinin özünəməxsus çətinlikləri və problemləri mövcud idi.

Şübhəsiz, ən çox ehtiyac suvarma suyuna duyulurdu. Dövlət bu problemi həll etmək üçün Ceyranbatan gölünə su gətirən Samur-Abşeron kanalının fasiləsiz işini təmin etmişdi. Buradan - Ceyranbatandan başlayan və Abşeron rayonunun təsərrüfatlarını suvarma suyu ilə təmin edən yeni kanal isə Zirəyədək uzanırdı.

Əlbəttə, su qıtlığı olurdu və bu məhsuldarlığa mənfi təsir göstərirdi. Lakin Ulu Öndərin inadkarlığı və bacarığı sayəsində Kür suyunun paytaxt Bakıya gətirilməsi vəziyyəti bir qədər yaxşılaşdırdı. Üstəlik, Samur-Dəvəçi (o zaman kanal belə adlanırdı) kanalının suaşırma qabiliyyətinin artırılması da müsbətə doğru xeyli dönüş yaratdı.

Abşerondakı sovxozların maddi durumunun yaxşılaşdırılması burada çalışan yerli və gəlmə əhalinin sosial rifahına da müsbət təsir göstərirdi. Çox sovxozda dövlət vəsaiti hesabına evlər tikilərək kənd əməkçilərinə verildi, onların məişət şəraiti yaxşılaşdırıldı.

Abşeronun ikinci yüksəlişi də Ulu Öndər Heydər Əliyevin yenidən hakimiyyətə qayıdışından sonra baş verdi. Xaos və anarxiya dövründə təsərrüfatlar dağıdılmış, mal-materiallar satılıb sovrulmuşdu. Bazar iqtisadiyyatı münasibətlərinə keçid isə mühüm dəyişikliklər tələb edirdi.

AXC-Müsavat cütlüyü özünün qısa iqtidarı dövründə yalnız oğurlayıb dağıtmaqla məşğul oldu. Onlar əsaslı islahatlar aparmağı isə heç cürə bacarmadılar. Əraziləri işğal olunmuş, ümummilli böhran vəziyyətinə gətirilmiş ölkədə isə islahat zərurətə çevrilmişdi. Ulu Öndər Heydər Əliyevin uzaqgörənliyi, yüksək təşkilatçılıq bacarığı yenidən özünü göstərdi.

Xalqın arzu və tələbi ilə yenidən ölkə rəhbərliyinə qayıdan Ümummilli Liderimiz qısa müddətdə müharibədə atəşkəsə nail oldu, anarxiya və xaosa son qoydu, əhalidəki külli miqdarda silah-sursatın yığılmasını, qanunsuz silahlı dəstələrin zərərsizləşdirilməsini təmin etdi, ölkədə möhkəm və dönməz sabitlik yaratdı.

Ulu Öndər Heydər Əliyev nəinki Azərbaycanı bir dövlət kimi məhvolmadan, əvvəlki kimi kiçik xanlıqlara parçalanmadan qorudu, üstəlik, onun gələcək sürətli və davamlı inkişafına möhkəm təməl yaratdı.

Ən əsası isə özəlləşdirilməyə dair iki dövlət proqramı həyata keçirildi, sahibkarlığın inkişafının hüququ bazası yaradıldı, bazar münasibətlərinə keçid təmin olundu.

Çətin məsələlərdən biri torpaqların əzəli sahiblərinə, kəndlilərə qaytarılmasında idi. Ulu Öndər Heydər Əliyev böyük uzaqgörənliklə bu islahatları da uğurla həyata keçirdi. Beləliklə, Azərbaycan kəndində yeni münasibətlərin formalaşmasının, fermer təsərrüfatlarının yaradılmasının əsası qoyuldu.

Abşeronda da torpaq islahatları başa çatdırıldı. Əkin sahələrinin bir çoxu yaşayış məntəqələrinə çevrilsə də, bütün bunlar insanların ehtiyac və tələbatından əmələ gəlmişdir. Bu gün şəhərə çevrilmiş, Bakıya qaynayıb-qarışmış Xırdalan şəhəri öz görkəmi ilə hamını valeh edir. Vaxtilə bataqlıq və qamışlıqdan ibarət olan ərazidə indi çoxmərtəbəli yaşayış binaları, müxtəliftəyinatlı obyektlər tikilib.

Buradakı parklar və yaşıllıqlar, Ulu Öndərin adını daşıyan binalar öz möhtəşəmliyi ilə diqqəti cəlb edir. Kənd təsərrüfatı isə intensiv üsullar əsasında fəaliyyətə keçid etmişdir. Becərmədə və suvarmada, zeytun və badam bağlarının salınmasında, istismarında ən yeni texnologiyalar tətbiq edilir. Bütün bunlar həm də Ulu Öndərin əziz xatirəsinə əbədi və dərin minnətdarlıq hisslərinin təzahürüdür. Dünyada yaradanlar və yaradılanlar qalır və daim hörmətlə anılır.

***Şəhid Mayor Elşad Həsənovun həyat yoldaşı Oksana HƏSƏNOVA** çıxışında qeyd etdi ki, Abşeronun inkişaf tarixində Azərbaycan xalqının Ümummilli Lideri Ulu Öndər Heydər Əliyevin müstəsna xidmətləri olmuşdur. Belə ki, Abşeron rayonunun ən uğurlu göstəricilərlə zəngin olan təsərrüfat ilinin də Heydər Əliyevin respublikamıza rəhbərlik etdiyi birinci dövrə düşməsi təsadüf deyil, qanunauyğunluğun məntiqi nəticəsidir:*



Heydər Əliyev İli 2023

# siyasətinin möhtəşəm nəticəsidir

- Məhz Heydər Əliyevin Abşerona göstərdiyi xüsusi diqqət və qayğısı rayonun tarixi inkişaf mərhələsində əsas rol oynadı. Heydər Əliyevin ölkəyə rəhbərliyinin birinci dövründə Abşeronun sosial və iqtisadi həyatının uğurları istiqamətində əhəmiyyətli işlər aparılmışdır. Abşeronlular Heydər Əliyevin 1981-ci ildəki tarixi səfərini unutmayıblar. Dahi şəxsiyyətin bu rayona səfəri, sadə insanlarla səmimi söhbətləri onların qəlbində silinməz izlər qoymuşdur.

Ancaq digər tərəfdən qeyd etməliyik ki, abşeronluların bu kimi iftixar və sevinc dolu anlarının ömrü elə də uzunmüddətli olmadı. Ulu Öndərin Moskvaya - ittifaqın ali rəhbərliyinə təyin olunmasından sonra Azərbaycanda sürətlə yüksələn sosial-iqtisadi temp aşağıya düşməyə başladı. Təbii ki, bütün ölkə kimi, Abşeron da iqtisadi tənəzzüldən kənarda qalmadı. Lakin taleyin gərdişi elə gətirdi ki, dünyaşöhrətli siyasətçi, Azərbaycan xalqının dahi oğlu Heydər Əliyev ikinci dəfə Azərbaycanda hakimiyyətə gəldi. Bəli, bu faktor həm də taleyin hökmü və Allahın bu torpağı, bu məmləkəti hifz etməsi demək idi.

Xalqın təkidli tələbinə və çağırışlarına səs verən Ulu Öndər Azərbaycana xilsakarlıq missiyasını yerinə yetirmək üçün geri dönmüşdü. Bundan sonra durğunluq və tənəzzül dövrünü yaşayan Azərbaycan xalqı, dövləti Onun rəhbərliyi altında müasirliyə, tərəqqiyə qədəm qoymağa başladı. Əlbəttə ki, inkişaf tendensiyası Abşerona da aid idi. Ulu Öndər Heydər Əliyev Abşerona etdiyi səfərlərinin birində vurğulamışdır: "Abşeronlular öz əməlləri ilə, əzmkarlıqları ilə sübut etdilər ki, əlahiddə ərazidə yerləşən bu rayon müstəqil yaşamağa qadirdir".



Təməli Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyev tərəfindən qoyularaq rayonda başladılan tikinti, abadlıq və quruculuq işləri, müxtəlif sənaye komplekslərinin təməllərinin qoyulması uğurlu gələcəkdən, perspektivlərdən xəbər verirdi.

Uzun müddət müstəqilliyini itirmək təhlükəsini yaşayan, ancaq Heydər Əliyevin sayəsində bundan xilas olan Azərbaycan xalqının taleyinə ikinci sevinc payı da düşdü. Məhz bu tale payı Ulu Öndər Heydər Əliyevin özü qədər inandığı İlham Əliyev idi. İlham Əliyev Azərbaycan xalqının lideri missiyasını uğurla, məharətlə, çevik və məqsədyönlü siyasətlə, inamla, qətiyyətlə davam etdirir. Sevindirici haldır ki, bu gün nəinki Azərbaycanın, eləcə də, bütün dünya azərbaycanlılarının liderinə çevrilmiş cənab İlham Əliyev ətrafında birləşmiş nəhəng xalq ordusunu uğurlu və tükənməz qürur hissi ilə gələcəyə doğru aparır.

Bütün abşeronlular Prezident İlham Əliyevin siyasətindən bəhrələnərək, istər Abşeronun, istərsə də Azərbaycanın tərəqqi və inkişaf yolunda yaxından iştirak edirlər. Məhz bu kimi önəmli missiyanın reallaşdırılmasında, həyata keçirilməsində abşeronlular daim Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin ətrafında sıx birləşib, onun yürütdüyü məqsədyönlü və uğurlu siyasətini dəstəkləməkdə davam edirlər. Çünki dünya tarixinin ən qədim köklərindən qaynaqlanan və müasir dövrümüzə qədər təşəkkül tapan Abşeron öz müasir inkişaf tarixini məhz Ulu Öndər Heydər Əliyev siyasətini layiqincə davam etdirən Prezident İlham Əliyevin yorulmaz fəaliyyəti nəticəsində növbəti illərə yazacaq.

***Yeni Azərbaycan Partiyasının Abşeron Rayon Təşkilatının sədri Abbas ƏLİYEV*** *Ümummilli Lider Heydər Əliyevin 1993-cü ildə hakimiyyətə qayıdışından sonra həyata keçirilən gənclər siyasətindən söz açdı. Onun sözlərinə görə, məhz bundan sonra gənc nəslə diqqət dövlət siyasətinin əsas istiqamətlərindən birinə çevrildi:*

- Müstəqilliyimizin ilk illərində gəncləri dövlətçilik və milli maraqlar ətrafında birləşdirmək olduqca vacib idi. Azərbaycanı gənclər ölkəsi, gəncləri isə Azərbaycanın gələcəyi adlandıran Heydər Əliyev bu nəsli dəyərləndirirdi. Bununla da respublikamızda Ulu Öndər Heydər Əliyev tərəfindən mütərəqqi gənclər siyasətinin əsası qoyuldu.

Dünyəvi və hüquqi dövlət quruculuğu prosesində, çoxşaxəli islahatların reallaşdırıldığı bir vaxtda gənclik enerjisinə ehtiyac duyulduğunu düzgün qiymətləndirən Heydər Əliyev müxtəlif illərdə gənclər siyasətinin ayrı-ayrı istiqamətləri üzrə müvafiq sənədlər imzaladı. Dövlət orqanlarının gənclərlə iş sahəsindəki fəaliyyətini əlaqələndirmək məq-



sədilə Ulu Öndər Heydər Əliyevin 1994-cü il 26 iyul tarixli fərmanı ilə Gənclər və İdman Nazirliyi yaradıldı. Beləliklə, gənclərlə iş sahəsində vahid dövlət siyasətinin reallaşdırılması təmin olundu. Ulu Öndərin 1997-ci il fevralın 2-də imzaladığı fərmana əsasən, fevralın 2-si Azərbaycan Gəncləri Günü elan edildi. Həmin vaxtdan etibarən Gənclər Günü MDB məkanında və Şərqi Avropa ölkələri arasında ilk dəfə olaraq Azərbaycanda təntənəli şəkildə qeyd edilir.

Gəncliyin sağlam ruhlu, yüksək mənəvi keyfiyyətə və intellektə malik olması hər bir dövlət üçün önəmlidir. Ona görə də 1996-cı il fevralın 2-də keçirilən Azərbaycan Gənclərinin I Forumunda Heydər Əliyev gənclər qarşısında mühüm tarixi vəzifə müəyyənləşdirmişdi: hər bir gənc hər şeydən çox müstəqil Azərbaycanın bu günü, gələcəyi haqqında düşünməlidir. Aradan keçən dövrün təhlili göstərir ki, Azərbaycan gəncliyi Ulu Öndərin bu nəsihətini hər zaman rəhbər tutmuş, milli təəssübkeşlik nümayiş etdirmişdir. Bu baxımdan vətənpərvər Azərbaycan gəncliyi Ümummilli Lider Heydər Əliyevin əsasını qoyduğu uzaqgörən və məqsədyönlü gənclər strategiyasına sadiqdir.

Milli və dövlətçilik maraqlarına bağlılıq, bu məsələlərdə gənclərin Prezident İlham Əliyevdən götürdükləri nümunələr 44 günlük Vətən müharibəsində həlledici rol oynadı. Bu müharibədə əsas missiyanı məhz Ali Baş Komandan İlham Əliyevin prezidentliyi dövründə böyüyən gənclər yerinə yetirdi. İkinci Qarabağ müharibəsində həlak olanların əksəriyyəti gənc nəslin nümayəndələri idi. Onların heç biri Qarabağda olmamışdı, bu diyarı görməmişdi, amma qəlblərində yaşayan milli ruh, ədalət və Vətən sevgisi onları səfərbər etmişdi. Prezident İlham Əliyev bu barədə demişdir: "Döyüşdə iştirak edənlərin mütləq əksəriyyəti 2003-cü ildə mən hakimiyyətə gələndə uşaq olan insanlardır. Onlar yetişdi, onlar vətənpərvərlik və fədakarlıq göstərərək canlarından keçdilər, şəhid oldular, qazi oldular, qəhrəmanlıq göstərdilər və tarixi ədaləti bərpa etdilər!"

Beləliklə, Ulu Öndər Heydər Əliyevin Azərbaycanın ərazi bütövlüyünü bərpa edəcəyi, torpaqlarımızın işğaldan azad olunacağı və soydaşlarımızın öz torpaqlarına qayıdacağı ilə bağlı fikirlərini onun davamçıları olan vətənpərvər gənclər Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə reallığa çevirdilər. Bu baxımdan Vətən müharibəsindəki qələbədə bütün tərəfləri ilə yanaşı, həm də Ümummilli Lider Heydər Əliyev tərəfindən müəyyənləşdirilmiş və Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilən dövlət gənclər siyasəti böyük rol oynadı.



***Vətən müharibəsi şəhidi Rauf İbadovun atası Məhərrəm İBADOV*** *bildirdi ki, Ulu Öndər Heydər Əliyev hər zaman şəhid adının uca tutulmasına, onların xatirəsinin əbədiləşdirilməsinə xüsusi həssaslıqla yanaşır, ailələrinə böyük diqqət və qayğı göstərirdi:*

- Ulu Öndər mütəmadi olaraq şəhid ailələri ilə görüşər, çıxışlarında, xalqa müraciətlərində şəhidlərimizi daim yad edər, onların intiqamının mütləq alınacağını bildirərdi. "Azərbaycan xalqının verdiyi şəhidləri bir daha yad edərək onların qəhrəmanlığı, ruhu qarşısında baş əyir və sizi, bütün Azərbaycan xalqını əmin edirəm ki, mən də, hər bir Azərbaycan vətəndaşı da şəhidlərin xatirəsini daim qəlbimizdə yaşadacağıq. Allah şəhidlərə rəhmət eləsin, qəbirləri nurla dolsun. Onların qanı yerdə qalmayacaqdır", - deyə Heydər Əliyev 1994-cü ildə keçirdiyi görüşlərin birində bildirmişdi.



Azərbaycanda torpaqlarımızın azadlığı uğrunda şəhid olmuş qəhrəman vətən övladlarının adının əbədiləşdirilməsi ilə bağlı həyata keçirilən nümunəvi dövlət siyasətinin əsası məhz Ümummilli Lider Heydər Əliyev tərəfindən qoyulmuşdur. Məmnunluq hissi ilə qeyd etməliyik ki, bu siyasət hörmətli Prezidentimiz İlham Əliyev tərəfindən layiqli şəkildə davam etdirilir.

Bu gün şəhidlərimizin ruhu şaddır. İlk növbədə ona görə ki, uğrunda mübarizə apardıqları torpaqlarımız azad olunub, ərazi bütövlüyümüz bərpa edilib. Bu yolda canından keçmiş hər bir övladının qisası düşməndən alınıb, onların qanı yerdə qalmayıb.

Şəhidlərin ruhu həm də rahatdır. Ona görə ki, əmanət qoyub getdikləri doğmalarının - valideynlərinin, övladlarının yanında qüdrətli Azərbaycan dövləti var. Şəhid ailələrinə qayğı ilə bağlı ən gözəl nümunələri Prezident İlham Əliyev və hörmətli Birinci vitse-prezident Mehriban xanım Əliyeva yaradır. Təsadüfi deyil ki, şəhid ailələrinin hər biri Prezident İlham Əliyevin və Mehriban xanım Əliyevanın yüksək diqqəti və qayğısı ilə əhatə olunublar. Prezident İlham Əliyevin sərəncamı ilə sentyabrın 27-nin respublikamızda Anım Günü kimi müəyyən edilməsi bütün cəmiyyətimizin şəhidlərimizə olan yüksək ehtiramının göstəricisidir.

Bu gün ölkədə şəhid ailələrinə sosial qayğını nəzərdə tutan çoxsaylı tədbirlər həyata keçirilir. Şəhid ailələrinin üzvlərinə dövlət tərəfindən birdəfəlik ödənişin, Prezident təqaüdünün verilməsi, şəhid uşaqlarının təhsil haqqını ödəməkdən azad olunması və bu ailələrə digər sosial dəstək tədbirləri hərtərəfli dövlət qayğısından xəbər verir. Şəhid ailələri ilə bağlı Heydər Əliyev Fondu tərəfindən həyata keçirilən müxtəlif layihələr davamlı və sistemlidir. Əlbəttə, bütün bunlar cəmiyyətimiz tərəfindən alqışlarla qarşılanır, təqdir olunur.

Azərbaycanın ərazi bütövlüyü uğrunda mübarizədə şəhid olmuş vətən övladlarının xatirəsinin əbədiləşdirilməsi, onların ailələrinin sosial müdafiəsinin gücləndirilməsi üçün aparılan ardıcıl işlər şəhidlərimizin ruhuna sonsuz ehtiramdan irəli gəlir. Dövlətimiz tərəfindən şəhid ailələrinə göstərilən xüsusi qayğıya və diqqətə görə biz Prezident İlham Əliyevə və Mehriban Əliyevaya dərin təşəkkürümüzü və minnətdarlığımızı bildiririk. Bunların hər biri bizim üçün böyük mənəvi dəstəkdir.

Abşeron rayonunda da şəhid ailələrinə böyük diqqət var. Rayon rəhbərliyi əlamətdar tarixlərdə, anım günlərində bizi unutmur, mütəmadi olaraq tədbirlərə dəvət edir və bütün bunlar şəhidlərə olan yüksək ehtiramdan xəbər verir.

***Abşeron rayonunun Masazır qəsəbəsindəki 5 nömrəli məktəbin direktoru Səlim MƏMMƏDOV*** *Heydər Əliyevin təhsilin inkişafına diqqət və qayğısından söz açdı. Qeyd etdi ki, Ümummilli Liderimiz Heydər Əliyevin digər sahələrdə olduğu kimi, elmin və təhsilin inkişafında da əvəzsiz xidmətləri var:*

- Təhsil hər bir xalqın inkişafını təmin edən əsas amillərdir. "Təhsil həyatımızın ən gərəkli, ən mühüm sahəsidir. O, milli məqsədlər, mənafelər əsasında qurulmalıdır", söyləyən Ümummilli Liderimiz Heydər Əliyevin digər sahələrdə olduğu kimi, təhsilin də inkişafında əvəzsiz xidmətləri olmuşdur. Respublikamıza rəhbərlik etdiyi 34 ildən artıq dövrdə Heydər Əliyevin bu sahəyə qayğısı orta məktəb sinfinin birinə baş çəkməkdən, dərslikləri vərəqləyib məzmunu ilə tanış olmaqdan başlayaraq, təhsilin inkişafını təmin edən qanunvericilik bazasının yaradılmasına kimi uzanır.



"Təhsil millətin gələcəyidir", - deyən Ulu Öndər təhsili cəmiyyətimizin inkişafının, xalqımızın daha xoşbəxt gələcəyinin məhək daşı kimi dəyərləndirərək bu sahəyə daim dövlət qayğısının zəruriliyini önə çəkmişdir. Sovet hakimiyyəti illərində Azərbaycanda təhsil infrastrukturu inkişaf etdirilib, azərbaycanlı gənclərin ali təhsil üçün keçmiş ittifaqın nüfuzlu məktəblərinə göndərilməsi təmin olunub. Bakıda Cəmşid Naxçıvanski adına Hərbi Məktəbin yaradılması da Heydər Əliyevin təhsil siyasətinin uğurlu nümunəsidir.

Ulu Öndər Heydər Əliyevin xalqın təkidli tələbi ilə 1993-cü ildə hakimiyyətə qayıdışından sonra bütün sahələrdə olduğu kimi, təhsil sahəsində də tənəzzülün, təhlükəli, dağıdıcı meyillərin qarşısı alındı. Milli təhsil sisteminin bərpası və yeni şəraitin tələblərinə uyğun olaraq inkişaf etdirilməsi üçün əlverişli siyasi, iqtisadi, hüquqi mühit yarandı. Həyata keçirilən islahatların, iqtisadi geriliyin aradan qaldırılmasının, maliyyə imkanlarının artmasının nəticəsi olaraq respublikamızda məktəb tikintisi sahəsində dönüş yarandı.

Heydər Əliyevin təhsil quruculuğu sahəsində başladığı işlər onun layiqli siyasi davamçısı, Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Dövlət başçısının inkişaf siyasətinin tərkib hissəsi kimi təhsil sahəsində də müxtəlif proqramlar həyata keçirilmişdir. O cümlədən respublikamızdakı quruculuğun göstəricisi kimi yeni məktəblərin tikintisi, mövcud məktəblərin bərpası, onların infrastrukturlarının yenilənməsi də geniş vüsət almışdır. Bu proses indi də davam edir.

Azərbaycanda təhsil sahəsində həyata keçirilən dövlət siyasətinə Heydər Əliyev Fondu da özünün dəyərli töhfələrini verməkdədir. Heydər Əliyev Fondunun təhsilimizin inkişafı ilə bağlı həyata keçirdiyi layihələr bütün ölkə ictimaiyyətinin dərin rəğbəti ilə qarşılanır. Bu sahədə Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın təşəbbüsləri respublikamızda təhsilin inkişafına uğurla xidmət etməkdədir.

Heydər Əliyev Fondu tərəfindən Abşeron rayonunun Masazır kəndində 3 məktəb və 1 uşaq bağçası tikilmişdir. Fondun Masazırda inşa etdiyi təhsil ocaqlarından biri rəhbərlik etdiyim 5 nömrəli tam orta məktəbdir. Məktəbin tikintisinə 2015-ci ildə başlanılıb və 2017-ci ilin oktyabrında yekun vurulub. 2017-ci il noyabrın 16-da Prezident İlham Əliyev məktəbin açılışında iştirak edib. Məktəbdə 41 sinif otağı, kitabxana, iki emalatxana, idman zalı, yeməkxana, kimya, fizika və biologiya laboratoriyaları var.

Respublikamızda təhsilin inkişafı istiqamətində görülən işlər göstərir ki, Ulu Öndər Heydər Əliyevin ideyaları layiqincə davam etdirilir.

***Vətən müharibəsi qazisi Xəqani MƏMMƏDOV*** *çıxışında vurğuladı ki, Azərbaycan tarixinin ən şanlı səhifələri Ümummilli Lider Heydər Əliyevin adı ilə bağlıdır. XX əsrin sonlarında ölkəmizin yenidən əldə etdiyi dövlət müstəqilliyini, bərpa etdiyi dövlətçiliyini mövcud ictimai-siyasi böhran şəraitində qoruyub saxlaya bilməsi, daha sonra isə inkişaf yoluna qədəm qoyması Tanrının Azərbaycan xalqına bəxşişi olan Ulu Öndər Heydər Əliyevin sayəsində mümkün olmuşdur.*

Ümummilli Lider Heydər Əliyevin adı xalqımızın xilaskarı, müstəqil Azərbaycan dövlətinin memarı kimi tariximizə qızıl hərflərlə əbədi həkk olub. Məhz Ulu Öndərin sayəsində Azərbaycan xalqı həm sovet dövründə, həm də müstəqillik dövründə öz tarixinin ən mühüm nailiyyətlərini qazanıb, başqa sözlə desək, ən böyük uğurlarımız xalqımızın böyük oğlu, dahi şəxsiyyət Heydər Əliyevin liderliyi və müəllifliyi ilə ərsəyə gəlib.

Fitri istedada, son dərəcə geniş dünyagörüşünə malik olan, doğma xalqını və Vətənini hədsiz məhəbbətlə sevən Heydər Əliyev fenomenal şəxsiyyət, dəmir iradə və cəsarət simvolu idi. Onun doğma Vətəninin, xalqının mənafelərini hər şeydən uca tutaraq ən mürəkkəb vəziyyətlərdə yeganə doğru qərar qəbul etmək bacarığı, uzaqgörənliyi, mübarizliyi, qətiyyətliliyi, fədakarlığı və əzmkarlığı bir insan şəxsiyyətinə sığışması, əslində, mümkün olmayan inanılmaz dərəcədə nadir hadisə, Tanrı möcüzəsi idi.

Heydər Əliyev ən böyük azərbaycanlı idi. Onun bütün fəaliyyəti, bu və ya digər hadisə və proseslərə baxışı və mövqeyi, ilk növbədə, milli mənsubiyyətindən doğan bənzərsiz təəssübkeşliyindən və vətənpərvərliyindən qaynaqlanırdı.

Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi ilə 44 günlük Vətən müharibəsində Azərbaycanın şanlı və parlaq qələbəsi nəticəsində torpaqlarımızın işğaldan azad edilməsi Heydər Əliyevin neft strategiyasının əsas məqsədlərindən biri idi.

İndi çox aydın görünür ki, Azərbaycan xalqının ən böyük arzusu və istəyi olan bu müqəddəs Qələbə tək 44 günün ərzində qazanılmamışdır.



Bu Qələbə və Qələbəyə aparan yollar torpaqlarını itirmiş, hər şeydən ümidi üzülmüş, iqtisadi böhrana düçar olmuş, evindən-eşiyindən didərgin düşmüş bir xalqın Ulu Öndər Heydər Əliyevə müraciəti və xalqın israrlı tələbi ilə Ümummilli Liderin hakimiyyətə qayıdışından, Azərbaycan dövlətçiliyini xilasından, Azərbaycanın varlığını parçalanıb yox olmaq təhlükəsindən qurtardığı taleyüklü tarixi anlardan başlamışdır.

Bu Qələbə Heydər Əliyevin Azərbaycanı dünyaya tanıtdığı, iri dövlətlər, mötəbər beynəlxalq qurumlar, dünya siyasətində mühüm rol oynayan nüfuzlu dairələr və mərkəzlər ilə səmərəli əməkdaşlıq müstəvisi qurduğu illərdən başlamışdır.

Bu Qələbə Ümummilli Lider Heydər Əliyevin rəhbərliyi ilə dövlətçilik ənənələrinin yaradılması və möhkəmləndirilməsi, hüquqi dövlət quruculuğu, milli iqtisadiyyatın dirçəldilməsi və inkişaf etdirilməsi istiqamətində görülmüş irimiqyaslı işlərdən başlamışdır.

Nəzərinizə çatdırmaq istəyirəm ki, 44 günlük Vətən müharibəsi zamanı Abşerondan minlərlə gənc ordu sıralarına çağırıldı. Hal-hazırda mənim kimi və məndən daha ağır vəziyyətdə olan 117 qazi Abşeron rayonu ərazisində yaşamaqdadır. Əksəriyyətimiz cənab Prezident İlham Əliyevin dediyi kimi, müstəqillik dövrlərində dünyaya göz açmış uşaqlar idik. Ümummilli Liderimizin Xalqına, Dövlətinə olan sevgisindən bəhrələnmişdik. Ona görə də Ali Baş Komandanın ətrafında birləşərək "dəmir yumruğ"u ərsəyə gətirdik. Azərbaycan xalqına bu qələbədə sevinci bəxş etdiyimizə görə çox sevincliyik. Allah bütün şəhidlərimizə rəhmət eləsin.

*Konfransa yekun vuran* ***Abşeron rayon İcra Hakimiyyətinin başçısı Abdin FƏRZƏLİYEV*** *qeyd etdi ki, dolğun, əhatəli, ən əsası isə səmimi çıxışlar dinlədik. Tədbirimizdə gənclərimiz də iştirak edirlər. Onlar Ulu Öndərin müasirləri olmayıblar. Yaxud da o dövrdə çox kiçik olublar. Əminəm ki, burada səslənən, eləcə də Abşeron rayonunda silsiləvi təşkil olunan belə tədbirlərdə söylənilən fikirlər onlarda Ümummilli Liderimiz Heydər Əliyev barədə yetərincə əsaslı, obyektiv təəssürat yaradacaq:*

- Çünki biz siz gənclərə müstəqilliyimiz və dövlətçiliyimizlə yanaşı, həm də bu iki tarixi nemətin təminatçısı olan Heydər Əliyev dövlətçilik kursunu da əmanət edəcəyik. Heydər Əliyev irsinə, kursuna sadiq olmaq, fəaliyyətinizlə ona davamlı töhfə vermək və möhkəmləndirmək tarixin sizin qarşınızda müəyyənləşdirdiyi əsas borclardan biridir.

Biz Heydər Əliyev itkisinə nə qədər çox kədərlənsək də, təskinliyimizi onunla tapırıq ki, ölkəmizdə dahi şəxsiyyətin əsasını qoyduğu siyasi kurs uğurla davam edir və onun qurduğu, yüksəltdiyi dövlət indi etibarlı əllərdədir. Ulu Öndərin ideyaları, inkişaf strategiyası Prezident İlham Əliyev tərəfindən yeni dövrün tələblərinə uyğun zənginləşdirilir, dövlət başçısının qüdrətli fəaliyyəti ilə ölkəmiz daha da güclənir.

Digər təskinliyimiz isə Heydər Əliyevin müqəddəs imzasının, möhtəşəm izlərinin bu gün böyük mərhəmət, xeyirxahlıq missiyaları ilə davam etməsidir. Heydər Əliyevin xatirəsini əbədiləşdirən ən böyük mənəvi abidələrdən biri də Ulu Öndərimizin adını daşıyan fonddur. Heydər Əliyev Fondu və onun prezidenti Mehriban xanım Əliyeva bu gün həqiqətən də xalqımızın inam və etimad ünvanına çevriliblər. Çox əlamətdar haldır ki, Heydər Əliyevin fəaliyyətini Prezident İlham Əliyev siyasətdə necə uğurla və qabiliyyətlə davam etdirirsə, bu fəaliyyəti humanitar sahədə də Mehriban xanım böyük məharət və ürəklə davam etdirir.

Abşeron rayonunun sakinləri Mehriban xanım Əliyevanın timsalında fondun onlarla töhfəsini görüb. Rayonumuzda Heydər Əliyev Fondunun təşəbbüsü ilə tikilmiş çoxsaylı sosial, tibbi, mədəniyyət, humanitar və digər yönümlü infrastrukturlar Mehriban xanımın geniş fəaliyyətinin cüzi bir hissəsidir.

Abşeronda hörmətli Mehriban xanım Əliyevanın rəhbərliyi ilə həyata keçirilən hər bir layihə, əslində, Heydər Əliyevin xatirəsinə ucaldılan möhtəşəm abidədir. Sakinlərimiz onlardan istifadə etdikcə, hər dəfə Ulu Öndərimizi hörmətlə anır, onun ruhuna ehtiramlarını bildirirlər.

Mən çıxışımın əvvəlində Heydər Əliyevi "dünyanın ən böyük azərbaycanlısı" adlandırdım. Həqiqətən də, bu gün dünyanın hansı ölkəsinə getsək, hansı xarici ölkə vətəndaşı ilə söhbətləşsək görərik ki, onlar artıq Azərbaycanı neft ölkəsi kimi tanımırlar. Onlar Azərbaycanı Heydər Əliyevin ölkəsi, cənab İlham Əliyevin rəhbərlik etdiyi dövlət, Zəfər qazanmış respublika kimi qəbul edirlər.

Bu gün Azərbaycanı Heydər Əliyevə görə tanıyır, Prezident İlham Əliyevə görə hörmət edirlər. Bu, təkzibedilməz reallıqdır.

Heydər Əliyevin banisi olduğu müstəqil Azərbaycan Prezident İlham Əliyevin rəhbərliyi altında qüdrətli, nüfuzlu və davamlı inkişaf edən dövlətə çevrilib. Xalqımız cənab İlham Əliyevin ətrafında sıx birləşərək, gələcəyə böyük nikbinliklə baxır. Biz tam əminik ki, Heydər Əliyev siyasi kursu Azərbaycanda daim davam edəcək və dahi liderimizin müəllifi olduğu milli inkişaf strategiyası cənab İlham Əliyevin rəhbərliyi altında daha böyük nailiyyətlərlə müşayiət olunacaq.

Heydər Əliyev sağlığında deyirdi ki, "Nə qədər ki Azərbaycan var, mən varam. Mən isə Azərbaycanda əbədi olacağam". Bəli, Heydər Əliyev də öz misilsiz fəaliyyəti ilə Azərbaycan kimi əbədilik haqqı qazanıb. Azərbaycan yaşadıqca, inkişaf etdikcə, Heydər Əliyevin adı daha da əbədiləşəcək və müqəddəs olacaq.

Bunu təmin etmək, bu siyasətə bütün varlığı ilə xidmət etmək biz Heydər Əliyevçilərin, İlham Əliyevin sədaqətli əsgərlərinin əsas vətəndaşlıq borcudur.

***"AZƏRBAYCAN"***



# Səbrimizlə oynamayın!

## İlham Əliyev revanşistlərə, təlxəklər toplusuna qurtuluş yolunu göstərdi

*Əvvəli 1-ci səh.*

### Paşinyan Hayastanın xilas formulunu Azərbaycanda görsə də...

Əgər ölkə rəhbərliyi bütün reallıqları etiraf edirsə və çıxış yolunu Azərbaycanla münasibətlərin normallaşmasında görürsə, sual olunur, nədən Hayastan sülh sazişini imzalamaqdan yayınır?!

Belə çıxır ki, bir tərəfdən sülh müqaviləsinin imzalanmasını qurtuluş yolu hesab edən Hayastan rəhbərliyi, digər tərəfdən revanşist qüvvələrə, yəni öz ordusunun tör-töküntüsünə rəhbərlik edə bilmir. Bunu "əsaslandıran" baş nazir orduda 5-ci kolonun olduğunu iddia edir.

Bu isə o deməkdir ki, sülh müqaviləsi bağlanmayana və delimitasiya, demarkasiya prosesi getməyənə qədər Hayastanın təxribatları davam edəcək. Yəni sülh müqaviləsinin imzalanmaması da birbaşa Ermənistan rəhbərliyinin siyasi iradəsizliyindən irəli gəlir. Qarşı tərəf Azərbaycanla sülh danışıqlarına getməsə, məsələ daha da uzanacaq. Tərəflər arasında həm Rusiya, həm də Avropa İttifaqının vasitəçiliyi ilə reallaşan sülh danışıqlarının nəticəsi olmayacaq.

Aprelin 18-də Salyan rayonuna səfəri çərçivəsində Azərbaycan Televiziyasına müsahibə verən qalib komandan İlham Əliyev bir daha bu məsələlərə toxunaraq sülh istəməyən qüvvələrə sonuncu xəbərdarlığını edib.

Sülh danışıqları ilə bağlı Azərbaycan tərəfindən irəli sürülmüş təşəbbüslərin bu gün əsas amil olduğunu vurğulayan Prezident deyib ki, bu prinsiplər beynəlxalq hüququn normalarının təməl prinsipləridir. Ona görə də Azərbaycan əvvəlcədən bəyan edib ki, məhz bu prinsiplər üzərində ölkələrin suverenliyi, ərazi bütövlüyü, sərhədlərin toxunulmazlığı və bu istiqamətdə danışıqlar aparmaq mümkündür və sülh müqaviləsi imzalana bilər.

Dövlət başçısı bir daha Ermənistanın Azərbaycanın ərazi bütövlüyünü, suverenliyini rəsmən qəbul etdiyini söyləyərək Praqa və Soçi görüşlərində əldə olunan razılığa toxunub. Xatırladaq ki, həmin görüşlərdə Ermənistan Azərbaycanın ərazi bütövlüyünü, suverenliyini rəsmən qəbul edib. Yəni qəbul edib ki, Azərbaycan ilə Ermənistan arasında sərhədlər - 1991-ci ilin Alma-Ata Bəyannaməsi əsasında həll olunmalıdır. Bu da bir daha göstərir ki, müttəfiq respublikalar arasında olan sərhədlər dövlət sərhədləri sayılır.

Beləliklə, bu addımı atmaqla Ermənistan rəsmən Qarabağı Azərbaycanın ayrılmaz hissəsi kimi tanıyıb. Görünən odur ki, Ermənistan da prinsip etibarilə Azərbaycanın məsələyə yanaşması ilə razıdır. Çünki başqa variant da yoxdur: "Vaxtilə "Qarabağ Ermənistandır və nöqtə" deyən Ermənistan bu gün "Qarabağ Azərbaycandır və nida" sözlərimizi təkrar etməlidir. Çünki əgər "A" deyibsə "B" də deməlidir. Alma-Ata Bəyannaməsini əsas götürüb bunun üzərində sülh müqaviləsinə hazır olduğunu göstərən Ermənistan artıq rəsmən bəyan etməlidir ki, Qarabağ Azərbaycandır".

### Azərbaycan heç kimə imkan verməz ki, ərazisində "at oynatsın"

İlham Əliyev hesab edir ki, işin gedişatı bunu göstərir, çünki Hayastanın başqa yolu yoxdur.

O ki qaldı Qarabağın erməni əhalisinin durumuna, bu məsələ artıq Azərbaycanın daxili məsələsidir və tarixinin ən qüdrətli dövrünü yaşayan bir ölkənin daxili işlərinə heç bir qüvvə qarışa bilməz. Prezidentin də söylədiyi kimi, Azərbaycan heç vaxt daxili işlərini heç bir ölkə ilə müzakirə etməyəcək: "Qarabağ bizim daxili işimizdir. Qarabağda yaşayan ermənilər ya Azərbaycan vətəndaşlığını qəbul etməlidirlər, ya da ki özləri üçün başqa yaşayış yeri tapmalıdırlar. Burada tam sərbəstlik var, bütün demokratik əsaslar təklif olunur. Bu məsələ insan hüquqları əsasında öz həllini tapmalıdır. Bu gün bizim hərəkətlərimiz onu göstərir və niyyətimiz ondan ibarətdir ki, tezliklə sülh müqaviləsi imzalansın, Azərbaycanla Ermənistan arasında bu qarşıdurmaya son qoyulsun".

Ali Baş Komandan Hayastana və onun havadarlarına bir daha mesaj ünvanlayaraq vurğulayıb ki, məğlub ölkə və ona dəstək verənlər İkinci Qarabağ müharibəsindən keçən iki il yarım ərzində "dəmir yumruğ"un qətiyyətini, gücünü əyani şəkildə görüblər. Azərbaycan Ordusunun qəhrəman oğulları həm Vətən müharibəsi, həm də savaşdan sonrakı dövrdə dəfələrlə bu torpaqların əsl sahiblərinin kim olduqlarını göstəriblər. Ona görə də Azərbaycan heç kimə imkan verməz ki, ərazisində kimsə "at oynatsın".

### Ya Azərbaycan bayrağı altında yaşamalı, ya da ki, rədd olub getməli

Prezident həmçinin separatçılara da sonuncu xəbərdarlığını edərək artıq seçim vaxtı olduğunu bəyan etdi. Bildirdi ki, indi onların iki seçimi var, ya Azərbaycan bayrağı altında yaşamalı, ya da ki, çıxıb getməlidirlər: "Biz separatçıların əsas simalarından olan Serjik Sarkisyanı, Robert Koçaryanı, Seyran Ohanyanı Qarabağdan iti qovan kimi qovmuşuq, onları diz çökdürmüşük. Onlar İkinci Qarabağ müharibəsi zamanı Qarabağa gəlmişdilər, guya bizimlə vuruşmağa gəlmişdilər. Üçü də bizim torpağımızdan dovşan kimi qaçdı, indi heç biri heç burnunu da soxa bilmir nə Xankəndiyə, nə başqa bir yerə. Hazırda özləri üçün qondarma adlar uyduran separatçılar, təlxəklər toplusu, nəhayət bilməlidir ki, bizim səbrimizlə oynamaq olmaz. Biz onlara müxtəlif yollarla dəfələrlə izah etməyə çalışmışıq ki, onlar ya bizim sözümüzlə oturub duracaqlar, ya da ki, oradan rədd olacaqlar və orada yaşayan, onların faktiki olaraq girovuna, əsirinə çevrilmiş erməniləri də rahat buraxacaqlar".

Prezident əmin olduğunu bildirdi ki, hazırda Qarabağda yaşayan erməni əhalisinin əksəriyyəti Azərbaycan vətəndaşlığını qəbul etməyə hazırdır. Sadəcə olaraq, bu zəlilər, bu yırtıcı heyvanlar, separatçılar xalqa imkan vermirlər. Nəinki insanları rahat yaşamağa qoyurlar, hətta onları 30 ildir girov kimi saxlayırlar.

Məhz bütün bunları aydın şəkildə görən Azərbaycan Prezidenti bir daha mövqeyini bəyan edib: "Bunu hər kəs eşitsin, həm Ermənistan rəhbərliyi, həm bu gün onların arxasında dayanan qüvvələr, bizim iradəmizə heç kim təsir edə bilməz. Biz bunu sübut etmişik, müharibə zamanı və müharibədən sonra. Lazım olarsa, bir də sübut edərik istənilən formada".

Göründüyü kimi, yenə də gündəliyi Azərbaycan Prezidenti ortaya qoyur. Bütün ağrılı məqamlara, işğala, törədilmiş erməni vəhşiliklərinə baxmayaraq, İlham Əliyev bölgənin gələcəyi naminə sülh gündəliyi təqdim edir. Ermənistanın düşdüyü sosial-iqtisadi bataqlıqdan qurtulması üçün yol göstərir.

İlham Əliyevin bu mesajı 2 yol göstərir. Ya 5 prinsipi qəbul edib sülh sazişi imzalanmalı, ya da "dəmir yumruq" revanşistlərin başını əzməlidir. Təbii ki, 44 günə diz çökən Ermənistan bir daha ağır zərbə almaq istəməz. Bu, Ermənistanın hərtərəfli çöküşü, məhvi ilə nəticələnməsi deməkdir. Görünən odur ki, Ermənistan rəhbərliyi ölkənin daha acınacaqlı duruma düşməməsi üçün Azərbaycanın bütün tələblərini yerinə yetirməklə sülh sazişini imzalamağa məcburdur. Yəni Ermənistanın qurtuluşu barış sazişindən keçir.

***Rəşad BAXŞƏLİYEV,***
***"Azərbaycan"***

# "Tərbiyəvi işin təşkili və psixoloq" ixtisasları üzrə zabitlərin hazırlığı yoxlanılıb

Müdafiə nazirinin təsdiq etdiyi plana əsasən, Şəxsi Heyət Baş İdarəsinin İdeoloji İş və Mənəvi-Psixoloji Təminat İdarəsinin zabitləri tərəfindən hərbi hissələrdə "Tərbiyəvi işin təşkili və psixoloq" ixtisasları üzrə zabitlərin nəzəri bilikləri, praktiki fəaliyyətləri və fiziki hazırlıqları yoxlanılıb, məqbullar qəbul edilərək müvafiq tapşırıqlar verilib.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, həmçinin bu tədbirlər çərçivəsində idarənin zabitləri tərəfindən şəxsi heyətlə "Heydər Əliyev və ordu quruculuğu", "Dini tolerantlıq - dini radikalizmə qarşı mübarizə" və digər mövzular barədə söhbətlər aparılıb, komandir (rəis) heyətinə bu sahədə metodiki tövsiyələr çatdırılıb.

Yoxlama zamanı əsas diqqət şəxsi heyətin mənəvi-psixoloji hazırlığının yüksəldilməsi, hərbi xidmətə yeni gəlmiş hərbi qulluqçuların fərdi-psixoloji xüsusiyyətlərinin öyrənilməsi, hərbi xidmətə adaptasiyası, şəxsi heyətin xidməti təhlükəsizliyinin və sağlamlığının qorunması, eləcə də hüquq qaydalarının və hərbi intizamın möhkəmləndirilməsində komandir (rəis) heyətinə yaxından köməkliyin göstərilməsinə yönəldilib.

# Hulusi Akar ASELSAN məhsulunu sınaqdan keçirib

**Türkiyənin Milli Müdafiə naziri Hulusi Akar, Baş Qərargah rəisi, ordu generalı Yaşar Gülərin müşayiəti ilə Kahramanmaraşın Pazarcık və Elbistan rayonlarında zəlzələlərin baş verdiyi Hatayda səfərdə olub.**





Suriyanın şimalında yerləşən Bahar Qalxanı və Zeytun Budağı əməliyyat bölgələrinin dəstəkləndiyi Kumlu Baza Bölgəsinə gedərək ərazidə təftiş və yoxlamalar aparan nazir Akar, komandanlıq binasında fəaliyyətlə bağlı keçirilən brifinqdə iştirak edib.

Daha sonra Hulusi Akar onu müşayiət edən hərbçilərlə birlikdə ərazidəki hərbi hissəyə baxış keçirib, silahlara qulluq edən komando dəstəsindən fəaliyyətlərlə bağlı məlumat alıb. Ərazidə müşahidə aparan Hulusi Akar komando birliyinə "Tapşırıqlara hazırsınız" sualına "Hər zaman hazırıq!" cavabını alıb. Nazir Akar həmçinin "ASELSAN A 940" nişangahı ilə təchiz edilmiş piyada tüfəngini də sınaqdan keçirib.

Qeyd edək ki, "A 940" tam yerli və milli məhsul olaraq ASELSAN tərəfindən istehsal olunmuşdur. İkili baxış bucağı olan, gecə görmə cihazları ilə istifadə edilən, asanlıqla sıfırlanan və 2 m dərinlikdə 30 dəqiqə ərzində suya davamlı olan "A 940" 550 qram çəkiyə malikdir. O, həmçinin optika, termal durbin və refleks nişangahlarla istifadə edilə bilər.

# Azərbaycan bayrağı Zəngəzur dağlarında dalğalanır

*Əvvəli 1-ci səh.*

Eyni zamanda barbar düşmənin vəhşicəsinə dağıtdığı tarixi, dini, mədəni abidələrimiz bərpa olunur.

Qarabağ və Şərqi Zəngəzurda yeni həyatın yaradılması üçün gerçəkləşdirilən bütün bu nəhəng layihələri ölkə rəhbəri İlham Əliyevin həmin bölgələrə səfərləri zamanı əyani şəkildə görmək mümkündür. Dəfələrlə işğaldan azad edilən torpaqlara səfər edən qurucu lider Qarabağda və Şərqi Zəngəzurda möhtəşəm layihələrin bünövrələrini qoyub, şəhərlərimizin baş planlarını təsdiqləyib, Zəngilanın Ağalı və Tərtərin Talış kəndinin timsalında yurdlarına dönən və Vətəndə qəribçilikdən qurtulan insanlarımızın öz evlərində əziz qonağı olub.

"Hazırda artıq iki yaşayış məntəqəsində keçmiş köçkünlər yaşayır - Ağalı və Talış kəndlərində. Biz bu kəndlərin timsalında bütövlükdə gələcək Qarabağın və Şərqi Zəngəzurun simasını görürük - abad şəhərlər, abad kəndlər, "ağıllı" idarəetmə prinsipləri əsasında yaradılan infrastruktur" - deyən dövlət başçısı sözügedən müsahibəsində vurğuladı ki, bu iki layihə artıq bütün Azərbaycan əhalisinə və bütün dünyaya göstərir ki, gələcək Qarabağın və Şərqi Zəngəzurun siması necə olacaq.

### Büdcəyə əlavələrin əsas hissəsi Qarabağ və Şərqi Zəngəzurun bərpasında istifadə ediləcək

Prezidentin sərəncamı ilə işğaldan azad edilmiş ərazilərə Böyük qayıdış Azərbaycanın 2030-cu ilədək beş milli prioritetindən biri kimi müəyyən olunub.

Ötən iki il ərzində Qarabağ və Şərqi Zəngəzurda aparılan quruculuq, bərpa işləri ilə əlaqədar dövlət büdcəsindən bütövlükdə 5 milyard manata yaxın vəsait ayrılıb. Cari il isə işğaldan azad edilmiş ərazilərin bərpası üçün 3 milyard manat vəsait ayrılıb. Azərbaycan Televiziyasına müsahibəsində Prezident İlham Əliyev məlumat verdi ki, bu ilin 3 ayında əldə edilmiş nailiyyətlər imkan verir ki, büdcəyə əlavələr edilsin: "Bütövlükdə, hesab edirəm ki, büdcəyə əlavələr ən azı 3 milyard manat səviyyəsində olacaq, ondan da çox ola bilər. Bunun əsas hissəsi Qarabağın və Şərqi Zəngəzurun yenidən qurulmasında istifadə ediləcək".

Qarabağda və Şərqi Zəngəzurda gedən işlərlə bağlı müntəzəm olaraq ictimaiyyətə məlumat verən dövlət başçısı onu da bildirdi ki, infrastruktur layihələrinin icrası, dəmir yolları, avtomobil yolları, elektrik enerjisi ilə bağlı olan təchizat, su təchizatı, meliorativ tədbirlərlə bağlı olan bütün layihələr plan üzrə gedir. İki hava limanı artıq fəaliyyətdədir, üçüncü hava limanının inşası davam edir.

### İlin sonuna qədər Zabux və Sus kəndlərinə də qayıdış olacaq

İşğaldan azad edilən bütün ərazilərdə olduğu kimi, Laçın rayonunda da sürətli tikinti-quruculuq işləri gedir. Şərqi Zəngəzur iqtisadi bölgəsində yerləşən Laçında da yollar çəkilir, tunellər salınır, elektrik stansiyaları quraşdırılır, beynəlxalq hava limanı tikilir. Ümumiyyətlə, Laçın rayonunun yenidən qurulması ilə bağlı işlərə Vətən müharibəsindən sonra start verilib. Laçın şəhərinin yenidən qurulması isə ötən il avqustun 26-dan həyata keçirilir. Laçın şəhərinin bütün infrastrukturu yenidən qurulur - su xətləri, kanalizasiya, elektrik enerjisi xətləri və yollar çəkilir. Eyni zamanda Zabux və Sus kəndlərinin tamamilə yenidən qurulması prosesinə start verilib.

Aprelin 18-də verdiyi müsahibəsində Laçına qayıdışla bağlı ətraflı danışan Prezident xüsusi vurğuladı ki, bu gün tam əminliklə deyə bilərəm ki, biz yay aylarında artıq buna nail olacağıq: "Yəni biz bu işi vaxtından tez görürük və əgər birinci mərhələdə Laçın şəhərində 400-dən bir qədər çox evin inşasını nəzərdə tuturduqsa, son məlumata, son planlarımıza görə, ancaq fərdi evlərin sayı 570 olacaq. Eyni zamanda 140-dan çox mənzil hazır olacaqdır. Yəni beləliklə, 700-dən çox ailəni biz bu ilin yay aylarında Laçın şəhərində yerləşdirəcəyik. Eyni zamanda qanunsuz olaraq məskunlaşma siyasəti aparılan Zabux və Sus kəndlərində işlər gedir. O kəndlərə də biz ilin sonuna qədər keçmiş köçkünləri qaytaracağıq".

### Quruculuq işləri əzmlə davam edir

Laçınla yanaşı, Qarabağ və Şərqi Zəngəzurun işğaldan azad edilmiş digər bütün ərazilərində də intensiv quruculuq işləri aparılır, bu yerlərə əzəli sakinlərinin təhlükəsiz və ləyaqətli qayıdışı üçün hazırlıq görülür.

Şuşa şəhərində birinci yaşayış kompleksi uğurla inşa edilir. İkinci böyük yaşayış kompleksinin, bir çox evlərdən ibarət layihənin təməlinin isə yaxın zamanlarda qoyulması planlaşdırılır. O cümlədən Ağdam, Füzuli, Zəngilan şəhərlərində plan üzrə yaşayış binalarının inşası aparılır, Kəlbəcər və Cəbrayıl şəhərlərində isə buna hazırlıq işləri görülür. Dövlət başçısı müsahibəsində onu da bildirdi ki, paralel olaraq məktəblər, xəstəxanalar, sosial obyektlər, məscidlər - 10-dan çox məscid yenidən tikilir və ya əsaslı şəkildə təmir edilir: "Daha doğrusu, cəmi iki məscid təmir edilir. Çünki qalan məscidlərin hamısı ermənilər tərəfindən yerləyeksan edilmişdir. Bax quruculuq işlərimiz bu istiqamətdə aparılır və bir daha onu göstərir ki, bizim bütün planlarımız, bəyan etdiyimiz bütün məqsədlər həyatda öz əksini tapır və tapacaq".

Göründüyü kimi, birbaşa dövlət başçısı İlham Əliyevin rəhbərliyi altında Qarabağ və Şərqi Zəngəzurda genişmiqyaslı quruculuq işləri böyük əzmlə davam edir.

İşğaldan azad edilən tarixi yurdlarımızın hamısında yenidən həyatın axarına düşməsinə çox az qalıb.

***Yasəmən MUSAYEVA,***
***"Azərbaycan"***



# Zərifə Əliyeva - 100

## "Görkəmli oftalmoloq-alim, akademik Zərifə Əliyeva: həkimlik andı və vətəndaş missiyası"





Aprelin 19-da Azərbaycan Milli Elmlər Akademiyası (AMEA) və Səhiyyə Nazirliyinin birgə təşkilatçılığı ilə oftalmoloq-alim, Əməkdar elm xadimi, akademik Zərifə Əliyevanın anadan olmasının 100 illik yubileyinə həsr edilmiş "Görkəmli oftalmoloq-alim, akademik Zərifə Əliyeva: həkimlik andı və vətəndaş missiyası" mövzusunda yubiley tədbiri keçirilib.

AZƏRTAC xəbər verir ki, əvvəlcə tədbir iştirakçıları Fəxri xiyabanda müasir Azərbaycan dövlətinin qurucusu, Ümummilli Lider Heydər Əliyevin və görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın xatirəsini anıb, məzarları önünə tər çiçəklər düzüblər.

AMEA-nın əsas binasında keçirilən tədbirdən öncə akademik Zərifə Əliyevanın həyat və fəaliyyətini əks etdirən sərgiyə baxış keçirilib.

Tədbirdə giriş nitqi ilə çıxış edən AMEA-nın prezidenti akademik İsa Həbibbəyli bildirib ki, dövlət başçısının "Akademik Zərifə Əliyevanın 100 illik yubileyinin qeyd edilməsi haqqında" Sərəncamında AMEA-ya və Səhiyyə Nazirliyinə bir sıra tapşırıqlar verilib və bundan irəli gələrək hər iki qurumun iştirakı ilə böyük tədbirlər keçirilir. Azərbaycan oftalmologiya elminin inkişafında böyük xidmətləri olmuş Zərifə Əliyevaya həsr edilmiş tədbirlərin yeni nəsil həkimlərin və elmi kadrların hazırlanması işinə də öz töhfəsini verdiyini deyən İsa Həbibbəyli bugünkü yığıncaqda alimin davamçılarının da iştirak etdiyini diqqətə çatdırıb.

"Zərifə xanım Əliyeva görkəmli elm və dövlət xadimi Əziz Əliyev kimi yüksək mövqe tutmuş bir ailədən gəlmişdir. Eyni zamanda böyük ənənələri olan Azərbaycan Tibb Universitetində müəllimlərindən aldığı dərs, eləcə də özünün böyük səyləri ilə, sözün əsl mənasında, nüfuzlu həkim kimi formalaşmışdır. O, qısa və sürətlə bu istiqamətdə öz fəaliyyətini uğurla davam etdirmiş, ölkəmizdə və onun hüdudlarından kənarda şöhrət qazanan görkəmli elm xadimi kimi tanınmışdır. Zərifə xanım Əliyevanın həkimlik peşəsinə başladığı ötən əsrin 70-ci illərində Azərbaycanda göz xəstəlikləri üzrə müalicə digər sahələrlə müqayisədə bir qədər geri qalırdı. Məhz Zərifə xanım Əliyeva və onun ətrafında birləşən həkimlərin, mütəxəssislərin birgə səyləri ilə addım-addım bu gerilik aradan qaldırılmışdır. Zərifə xanımın rəhbərlik etdiyi həkim briqadası Bakıda və regionlarda dəfələrlə ardıcıl olaraq müalicə diaqnostika işləri görüblər. Zərifə xanım Əliyevanın traxoma xəstəliklərinə həsr olunduğu dissertasiyası Azərbaycanın müxtəlif bölgələrində göz xəstəliklərinə aid apardığı müşahidələr, eksperimentlər, topladığı materiallar əsasında hazırlanmışdır", - deyə akademik İsa Həbibbəyli bildirib.

AMEA-nın rəhbəri diqqətə çatdırıb ki, Zərifə Əliyeva eyni zamanda keçmiş SSRİ miqyasında ilk dəfə Azərbaycanda göz xəstəliklərinə həssas olan kimya sənayesi sahəsində, sənaye müəssisələrində, eləcə də istehsalat prosesində peşə xəstəlikləri ilə bağlı tədqiqatların əsasını qoyub. Bir çox ölkələrdən oftalmoloqların Bakıda Zərifə xanımın təşkil etdiyi beynəlxalq səviyyəli seminarlarda iştirak etmələri ölkəmizin əsas oftalmologiya mərkəzlərindən birinə çevrildiyini sübut edirdi. Zərifə xanımın yazdığı kitablar, elmi əsərlər göz xəstəliklərinin müalicəsində xüsusi yer tutur və o, bu istiqamətdə qiymətli əsərlərin müəllifidir. Zərifə Əliyevanın 1979-cu ildə Azərbaycan SSR EA-nın akademik Abdulla Qarayev adına Fiziologiya İnstitutunda SSRİ-də ilk dəfə olaraq Görmə orqanının fiziologiyası və peşə patologiyası laboratoriyasını yaratdığını bildirən İ.Həbibbəyli qeyd edib ki, alim daha çox təcrübi xarakter daşıyan göz xəstəlikləri elminə öz fundamental dəstəyini verib, AMEA-nın həqiqi üzvü seçilib: "Zərifə xanım Əliyevanın fəaliyyətindən danışarkən onun Azərbaycan xalqının Ümummilli Lideri, görkəmli dövlət xadimi Heydər Əliyevin həyatına tam mənası ilə dəstək verməsi, onun fəaliyyətində böyük silahdaş olması nümunəsini göstərib. Zərifə xanım Əliyeva həm də böyük bir ictimai xadim idi. Onun maarifçilik və elmin populyarlaşması istiqamətində rolu danılmazdır. Alimin xidmətləri ölkəmizdə daim yüksək qiymətləndirilib, adı əbədiləşdirilib. Xalq rəssamı Ömər Eldarovun Fəxri xiyabanda hər birimizin böyük ehtiramla ziyarət etdiyi Zərifə xanımın abidəsi bütün Azərbaycan xalqının sevgisini ifadə edən Azərbaycan heykəltaraşlıq sənətinin şah əsəri sayılan bir abidədir. Həmçinin Azərbaycanın görkəmli şairləri də onun barəsində gözəl şeirlər yazıblar".

Tədbirdə çıxış edən səhiyyə naziri Teymur Musayev qeyd edib ki, bu il adları müasir Azərbaycan tarixinə qızıl hərflərlə yazılmış iki böyük şəxsiyyətin - dahi siyasi xadim, müasir Azərbaycanın memarı və qurucusu Ulu Öndər Heydər Əliyevin və Azərbaycanın elm və təbabət tarixində silinməz izlər qoymuş görkəmli alim və həkim, Əməkdar elm xadimi, akademik Zərifə xanım Əliyevanın anadan olmalarının 100 illik yubileyidir. Elm fədaisi, Azərbaycan tibb elminin ən parlaq və tanınmış simalarından olan Zərifə Əliyevaya həsr olunmuş tədbirin məhz elm məbədində - Azərbaycan Milli Elmlər Akademiyasında qeyd edilməsini rəmzi və qürurverici hadisə kimi qiymətləndirən Teymur Musayev bu yubiley tədbirinin görkəmli oftalmoloq-alimə, onun elmi irsinə dövlətin, xalqın, elmi ictimaiyyətin sonsuz ehtiramının ifadəsi olduğunu söyləyib. Qeyd edib ki, Zərifə xanımın nəcib və şərəfli həyat yolunun, hər bir tədqiqatçıya örnək olan elmi fəaliyyətinin öyrənilməsi elmin təbliği, gənc alimlərin tədqiqat işlərinə ruhlandırılması baxımından da böyük əhəmiyyət kəsb edir.

"Zərifə xanım öz elmi fəaliyyəti ilə sübut edib ki, sağlamlığın yolu elmdən keçir, xəstəliklərin qarşısının alınması, müalicəsinin tapılması üçün elmi araşdırmalar praktik həkimlik fəaliyyəti qədər, ondan da çox əhəmiyyət daşıyır. Zərifə xanımın namizədlik dissertasiyasının həsr olunduğu traxoma xəstəliyi də, doktorluq dissertasiyasının mövzusu olan peşə fəaliyyəti ilə bağlı göz xəstəlikləri də o dövrdə həllini tələb edən ciddi məsələlər idi. Zərifə xanımın tədqiqatları sayəsində bu tibbi-sosial problemlərin həlli mümkün oldu", - deyə Teymur Musayev diqqətə çatdırıb. Akademik Zərifə Əliyevanın peşəkar fəaliyyətlə bağlı görmə problemlərini öyrənmək üçün dünyada sənaye müəssisəsində təşkil olunan ilk elmi-tədqiqat laboratoriyasını yaratdığını, müxtəlif maddələrin gözə təsirini kimya sənayesi işçilərinin öz iş yerində araşdırdığını deyən nazir alimin bu tədqiqatı ilə elm aləmində yeni istiqamət - peşə oftalmologiyasının əsasını qoyduğunu, bu sahədə elmi araşdırmalarının uğurlu nəticələrinə, ümumilikdə oftalmologiyanın inkişafına verdiyi töhfələrə görə SSRİ Tibb Elmləri Akademiyasının M.İ.Averbax adına mükafatına layiq görüldüyünü, bu mükafatla təltif edilən ilk qadın alim olduğunu söyləyib.

Xalq rəssamı, akademik Ömər Eldarov akademik Zərifə Əliyevanın insanlara nur bəxş edən zəngin həyatına toxunub.

Azərbaycanın tanımış simalarının xatirələrinə həsr olunmuş tədbirlərin keçirilməsinə və onların irsinin gənc nəslə yenidən təqdim edilməsinə görə minnətdarlığını bildirən Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Bahar Muradova çıxışında qeyd edib ki, akademik Zərifə Əliyeva Azərbaycan tibb elminin inkişafında müstəsna xidmətlər göstərib, zərif və eyni zamanda çətin sahədə fəaliyyəti ilə bir çox insana nur bəxş edib. Vurğulayıb ki, elmə və milli-mənəvi dəyərlərə bağlı olan Zərifə xanım hər bir insana diqqətlə yanaşıb, nəzəri və təcrübi elmi tədqiqatları ilə təhlükəli sahələrdə işləyən şəxslərin göz xəstəliklərinin həllinə nail olub, vətənpərvər təəssübkeşliyi ilə cəmiyyətimiz üçün misilsiz faydalı işlərə imza atıb. Zərifə Əliyevanın tələbkar olduğu qədər, eyni zamanda ədalətli bir insan olduğunu deyən Bahar Muradova alimin fəaliyyətinin bir çox Azərbaycan qadınına stimul verdiyini, elmdə özünə cığır açdığını, dəyərlərimizə gətirdiyi yeni çalarlarla onu zənginləşdirdiyini söyləyib.

AMEA-nın vitse-prezidenti akademik İradə Hüseynova "Akademik Zərifə Əliyevanın həyatı və elmi fəaliyyəti" mövzusunda məruzəsində qeyd edib ki, Zərifə xanımın ilk tədqiqatları traxomanın və onun fəsadlarının müalicəsində o zamanlar yeni antibiotikin - sintomisinin effektiv istifadə imkanlarının və üsullarının öyrənilməsinə həsr olunub. Zərifə Əliyeva göz zədələrinin qarşısının alınması və onlara nəzarət imkanlarını öyrənib, gözün zədələnməsinin nəticələrinin cərrahi müalicəsinə mövcud metodoloji yanaşmaları təhlil edib və onların təkmilləşdirilməsi üçün bir sıra faydalı tövsiyələr verib.

"Zərifə xanımın gözün virus xəstəlikləri sahəsində əldə etdiyi elmi nailiyyətlərin tətbiqi bir çox xəstəliklərin differensial diaqnostikası və müalicəsində mühüm irəliləyişlərə səbəb olub. Zərifə Əliyeva gözün bəzi bədxassəli şişlərinin diaqnostikası və müalicəsinə də diqqət göstərib, eyni zamanda göz melanomasının klinik gedişatının xüsusiyyətlərini öyrənib, əldə etdiyi nəticələri məqalələrdə əks etdirib. Onun monoqrafik əsərləri təkcə oftalmoloqların deyil, həm də fizioloqların stolüstü kitabına çevrilib. Zərifə Əliyeva tibbi etika məsələləri ilə də maraqlanır, həkimlərin cəmiyyətdəki roluna, müvafiq peşə fəaliyyətində əxlaqi prinsiplərin tərbiyəsinə xeyli vaxt ayırırdı. Onun həkimin etik davranışı haqqında çox dəyərli fikirləri, bu mövzuda çoxsaylı məqalə və çıxışları, kitabları həkim şəxsiyyətinin formalaşması işinə mühüm töhfələr verib", - deyə akademik İradə Hüseynova diqqətə çatdırıb.

Tədbirdə həmçinin akademik A.Qarayev adına Fiziologiya İnstitutunun baş direktoru professor Ulduz Həşimova "Akademik Zərifə Əliyevanın görmənin fiziologiyası və patologiyası sahəsindəki elmi xidmətləri" mövzusunda məruzə ilə çıxış edib, AMEA-nın müxbir üzvü Rafiq Qasımov isə Zərifə xanım Əliyeva ilə bağlı xatirələrini bölüşüb.

Tədbirdə akademik Zərifə Əliyevanın həyat və fəaliyyətini əks etdirən film nümayiş etdirilib.

## Qərbi Azərbaycanda soydaşlarımızın tərk etdikləri kəndlərin əksəriyyəti boşdur

Qərbi Azərbaycandan qovulan həmvətənlərimiz öz tarixi torpaqlarına qayıdacaqlar. Bu onların beynəlxalq hüquqa söykənən haqqıdır.

Dövlətimizin başçısı da öz çıxışlarında deyib ki, soydaşlarımızın tərk etdikləri kəndlərin əksəriyyəti boşdur, xüsusilə Zəngəzur, Dərələyəz, Göyçə, Qaraqoyunlu dərəsi. Bu ərazilərdəki yaşayış məntəqlərimizin böyük hissəsində ermənilər məskunlaşmayıb. Hər kənddə isə iki-üç gəlmə erməni ailəsi yaşayır.

Bu fikirləri AZƏRTAC-a müsahibəsində Qərbi Azərbaycan İcmasının İdarə Heyətinin sədri, Milli Məclisin deputatı Əziz Ələkbərli söyləyib.

O qeyd edib ki, sonuncu deportasiya zamanı azərbaycanlıların məskunlaşdığı 200-ə qədər yaşayış məntəqəsindən soydaşlarımız qovulub. Bu o deməkdir ki, 35 il əvvəl həmin kəndlərdə bir nəfər də olsun erməni yaşamayıb. İndi azərbaycanlıların həmin boş qalan doğma kəndlərinə köçmələri ermənilərə heç bir problem yaratmayacaq. Biz bu günə qədər boş qalan ata-baba yurdlarımıza qayıtmaq istəyirik. Əgər həmin ərazilərə son 35 ildə başqa yerdən köçüb gələn ermənilər varsa, onlar da bizimlə qalıb o kəndlərdə yaşamaq istəsələr, bu şansı yaradarıq. Yox, əgər onlar bizimlə yaşamaq istəmirlərsə, psixoloji cəhətdən hazır deyillərsə, köçüb gəldikləri yerə gedə bilərlər.

"Biz Qərbi Azərbaycanda olan bütün tarixi yurdlarımıza, kəndlərimizə qayıtmaqda qərarlıyıq. Həmçinin İrəvan da buraya daxildir. Bu şəhərdə XX əsr boyunca çox sayda azərbaycanlı ailə yaşayıb. Hətta sonuncu deportasiya zamanı orada vətəndaşlarımız var idi. Bundan əlavə, İrəvanda yaşayan azərbaycanlıların məktəbləri, institutları olub, həmçinin qəzetlərimiz, kitablarımız nəşr edilirdi. Buna görə də biz tarixi haqqımızı tələb edərək İrəvana da, Qərbi Azərbaycan ərazisinin hər qarışına da qayıtmağa hazırıq", - deyə Ə.Ələkbərli bildirib.

## Azərbaycan XİN: "Ermənistan Xarici İşlər Nazirliyinin bəyanatı riyakarlıq və saxtakarlıq nümunəsidir"

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2023-cü il aprelin 18-də verdiyi müsahibəyə istinadən Ermənistan Xarici İşlər Nazirliyinin növbəti dəfə təhrif dolu bəyanatını qətiyyətlə rədd edirik.

AZƏRTAC xəbər verir ki, bu barədə Azərbaycan Xarici İşlər Nazirliyinin (XİN) Ermənistan XİN-in aprelin 19-da Azərbaycan əleyhinə yaydığı bəyanata dair şərhində qeyd olunub.

Azərbaycan XİN-in şərhində bildirilib ki, 30 ilə yaxın işğal dövründə 9 şəhər və yüzlərlə kəndi talan edən, 1 milyona yaxın azərbaycanlıya qarşı etnik təmizləmə həyata keçirən, onları öz evlərinə qayıtmaq hüququndan məhrum edən, Azərbaycan torpaqlarının işğalına son qoyulması barədə beynəlxalq təşkilatların və tərəfdaşların çağırışlarına məhəl qoymayan Ermənistanın özünü sülhpərvər tərəf kimi göstərməsi və Azərbaycanı etnik təmizləmədə ittiham etməsi riyakarlıq və saxtakarlıq nümunəsidir.

Beynəlxalq öhdəliklərə və hətta Beynəlxalq Ədalət Məhkəməsinin qərarına baxmayaraq, sonuncu dəfə İrəvanda ağırlıqqaldırma üzrə Avropa çempionatında Azərbaycan Bayrağının yandırılmasından da göründüyü kimi, Azərbaycana qarşı nifrət zəminində irqi ədavətin təşviq olunmasını davam etdirən, nifrət zəminində hərəkət edən şəxslərin və etnik-milliyyətçi qrupların fəaliyyətini alqışlayan, belə hərəkətlərə görə cəza verməyən, azərbaycanlı əsirlərə qarşı vəhşiliklər, kütləvi qırğınlar törədən Ermənistanın Azərbaycanın, guya, nifrət zəminində hərəkətlər etməsinə dair iddiasının heç bir əsası yoxdur.

Azərbaycan tərəfi ölkəmizin ərazisində yaşayan erməni sakinlərin reinteqrasiyası prosesində qərarlıdır. Ermənistan tərəfi bu prosesə müdaxilədən əl çəkməlidir. Azərbaycan ərazisində Azərbaycan qanunları çərçivəsində yaşamaq istəyən hər bir şəxsin hüquq və azadlıqlarının təmin olunmasına zəmanət verilir.

Prezident İlham Əliyev tərəfindən qeyd edildiyi kimi, ərazilərinin 30 il ərzində işğal altında saxlanmasına baxmayaraq, məhz Azərbaycan tərəfi Ermənistanla ərazi bütövlüyü və suverenlik prinsipləri əsasında sülh müqaviləsinin imzalanması üzrə təklifin təşəbbüskarı olub. Bunun əksinə, Ermənistan tərəfi nəinki danışıqlar prosesinə müxtəlif bəhanələrlə mane olur, sülh müqaviləsinin mətninə beynəlxalq hüququn prinsipləri ilə birbaşa ziddiyyət təşkil edən məsələləri daxil etməyə cəhd göstərir, bununla da prosesi uzadır. Ermənistanın sülh müqaviləsi üzrə Azərbaycanın təkliflərinə son 43 gün ərzində heç bir şərh verməməsi də bu ölkənin nəticəyönümlü danışıqlarda maraqlı olmamasının nümunəsidir.

"Əlverişsiz hava şəraitində Ermənistan ərazisinə keçən və əsir götürülmüş, beynəlxalq humanitar hüquq prinsiplərinə zidd olaraq qeyri-insani zorakılığa məruz qalmış Azərbaycan hərbçilərinin Ermənistan Xarici İşlər Nazirliyi tərəfindən heç bir hüquqi əsas olmadan insan öldürülməsində ittiham edilməsi hüququn bütün norma və prinsiplərinə ziddir. Ermənistan XİN-ə məlum olmalıdır ki, cinayətin törədilməsində təqsirləndirilən hər hansı bir şəxsin təqsiri qanunla nəzərdə tutulan qaydada sübuta yetirilməyibsə, bu barədə məhkəmənin əsaslı və qanuni qüvvəyə minmiş hökmü yoxdursa, həmin şəxs təqsirsiz sayılır. Görünür ki, hüququn aliliyindən bəhs edən Ermənistan tərəfinin hüququn elementar prinsiplərindən belə xəbəri yoxdur. Bununla yanaşı, Ermənistanın bu addımı göstərir ki, 30 illik işğala son qoyulandan sonra Azərbaycan sərhədini azaraq keçən erməni hərbçilərinin dərhal Azərbaycan tərəfindən geri qaytarılması kimi etimad quruculuğu tədbirinə qarşılıq vermək niyyəti yoxdur və bu hərəkət qətiyyətlə pislənməlidir.

Hər hansı bir sülhpərvər mesaj kimi təqdim olunan çağırışlar heç bir əməli addımlarla müşayiət olunmursa, əksinə, Ermənistan tərəfindən bu kimi saxta mesajlar səslənərkən, eyni zamanda Azərbaycanın ərazi bütövlüyünə və suverenliyinə qarşı iddialara yer verilirsə, təqribən 10 min nəfərlik silahlı qüvvələrini Azərbaycan ərazilərindən çıxarmaqdan imtina edirsə, Azərbaycanın işğal altında olan 8 kəndini azad etmirsə, Azərbaycan ərazilərində hərbi və siyasi təxribatlarını davam etdirirsə, Ermənistanın bu kimi çağırışlarının heç bir əsası yoxdur.

Azərbaycan ilk təşəbbüsü irəli sürən tərəf kimi, ərazi bütövlüyü və suverenlik prinsipləri əsasında Ermənistanla sülh sazişini imzalamağa hazırdır. Bunun üçün Ermənistan tərəfi Azərbaycana qarşı ərazi iddialarından əl çəkməli və birmənalı olaraq Qarabağın Azərbaycan ərazisi olduğunu qəbul etməlidir", - deyə Xarici İşlər Nazirliyinin şərhində bildirilib.

## Başlıbeldə qətliam qurbanlarının xatirəsi anılıb



Kəlbəcər rayonunun Başlıbel kəndinin bir qrup sakini otuz il sonra Ermənistan tərəfindən qətliam törədilən yerə baş çəkib.

AZƏRTAC xəbər verir ki, "Başlıbelin İnkişafına Dəstək" İctimai Birliyinin sədri, Başlıbel sakini Vüqar Həşimov, əslən Başlıbeldən olan, şəhid ailəsi, "Moderator.az" İnformasiya Agentliyinin baş redaktoru Zülfüqar Hüseynzadə dədə-baba yurdlarına gələrək, yaxınlarının əziz xatirələrini yad ediblər. Onlar Başlıbel faciəsi qurbanlarının dəfn olunduğu kütləvi məzarlıqda uyuyan şəhidlərin qəbirlərini ziyarət edib, ruhlarına dualar oxuyublar. Kənd sakinləri ermənilərin viran qoyduqları doğma yurd yerlərinə, xarabalıqları qalan evlərinə də baş çəkiblər.

Zülfüqar Hüseynzadə deyib: "Mən hələ şəhidimi dəfn edə bilməmişəm, onun qalıqlarını tapmamışam. Ancaq hər dəfə bura gələndə çox rahatlıq, təsəlli tapıram. Düşünürəm ki, onların narahat ruhları qismən də olsa şaddır. Ən böyük təsəllimin biri odur ki, qisas qiyamətə qalmadı. Şükür ki, artıq Kəlbəcərin işğal günlərini qeyd etmirik. Bizlər, bizdən sonra gələn nəsillər ermənilərin törətdikləri Xocalı, Başlıbel, Ağdaban kimi qətliamları lənətləyəcək və bu müsibətləri dünyaya çatdırmaq üçün bütün platformalardan istifadə edəcəklər. Biz 44 günlük Vətən müharibəsində dünyaya sübut etdik ki, işğalla barışmayan xalqıq, soyqırımı qurbanlarının ruhlarını narahat buraxmayacağıq".

O, əmin olduğunu bildirib ki, digər ərazilərimizdə olduğu kimi, tezliklə Başlıbeldə də quruculuq işləri başlayacaq, insanlar yenidən burada məskunlaşacaqlar.

"Diplomatik korpusları, mətbuat nümayəndələrini vaxtaşırı bura dəvət edəcəyik ki, ermənilərin necə nankor olduqlarını, mülki əhaliyə divan tutduqlarını, qocaya, cavana, körpəyə, heç kimə aman verməden qətlə yetirdiklərini, sonra yandırdıqlarının şahidi olsunlar. Bilsinlər ki, ermənilərdən qaçaraq dağlara sığınan sakinlər vəhşicəsinə qətlə yetirilib, daha sonra yandırılıblar", - deyə Z.Hüseynzadə qeyd edib ki, vaxt gələcək bu qətliamı törədənlər məsuliyyətə cəlb olunacaq.

Ermənilərin Azərbaycana qarşı xəyanətkar hərəkətlərinin yüz illərdir davam etdiyini söyləyən Vüqar Həşimov isə bildirib ki, ziyarət etdikləri bu qəbiristanlıq Ermənistanın Azərbaycana qarşı törətdiyi vəhşiliklərin bir nümunəsidir: "1993-cü ildə Kəlbəcər rayonu işğal olunanda kənddən çıxa bilməyən qoca, qadın, uşaq, xəstə insanlarla yanaşı, onları qorumağa qalxan cavanlar da olub. Onlar gəlib kəndin ətrafındakı kahalara sığınıblar. Ancaq cəmi 17 gün burada gizlənə biliblər. Kəndi qarətə gələn ermənilər qayalıqlarda gizlənən sakinləri tapıb və onları əsir götürüb, qətlə yetiriblər. Qırğından sağ qalanlar isə 113 gün dağlarda gizlənərək, özlərini qoruyub və Daşkəsən rayonu ərazisinə keçə bilmişlər".

Qeyd edək ki, 1993-cü il aprelin 3-də Ermənistan silahlı qüvvələri Kəlbəcərin Başlıbel kəndinə silahlı hücum edərək kənd sakinlərinə məxsus evləri kütləvi surətdə qarət edib və tamamilə yandırıblar. Kəndi tərk edə bilməyən 76 nəfər təxminən 3 kilometr aralıda, kəndin ən hündür hissəsində yerləşən dağ relyefli ərazidəki təbii mağaralara sığınıb. Ermənistan hərbçiləri aprelin 18-də silahsız mülki şəxslərin doğma kəndlərində qayalara sığındığı yerləri taparaq, onların gizləndikləri mağaraları atəşə tutublar. Nəticədə 27 nəfər qətlə yetirilib. Onlardan 18 nəfəri dəfn edilib, 9 nəfər dəfn olunmayıb. Dəfn olunanlardan 15 nəfərin məzarı aşkarlanıb. 19 nəfər girov götürülüb, 1 nəfər itkin düşüb. 29 dinc sakin ermənilərin mühasirəsindən sağ çıxa bilib. İstintaq materialları ilə həmçinin müəyyən olunub ki, cinayətkar qruplaşmanın üzvlərinin əlindən digər mağaralara qaçaraq gizlənən və vəhşilərdən canını qurtarmağa çalışan 36 nəfərdən 7-si mühasirə şəraitində aldıqları xəsarətlərdən Kəlbəcər rayonunun müxtəlif kəndlərində dünyasını dəyişiblər.

# Dünyanın bir sıra ölkələrinin aparıcı KİV-ləri Prezident İlham Əliyevin Azərbaycan Televiziyasına müsahibəsində səsləndirdiyi fikirlərə geniş yer verib

Dünyanın bir sıra ölkələrinin aparıcı KİV-ləri Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin ötən gün Salyan rayonunda Azərbaycan Televiziyasına verdiyi müsahibədə səsləndirdiyi fikirlərə geniş yer verib.




AZƏRTAC xəbər verir ki, xarici mətbuatda yer alan xəbərlərdə xüsusilə dövlətimizin başçısının Ermənistanla münasibətlərin normallaşdırılması, sülh müqaviləsi, Qarabağda yaşayan ermənilərlə bağlı fikirləri, eləcə də İrəvanda Azərbaycan Bayrağının yandırılması ilə əlaqədar Ermənistan hakimiyyətinə xəbərdarlığı barədə fikirləri xüsusilə diqqət mərkəzində olub.

Rusiyanın **"Kommersant"** qəzeti Prezident İlham Əliyevin Qarabağda yaşayan ermənilərin ya Azərbaycan vətəndaşlığını qəbul etmələri, ya da özləri üçün başqa yaşayış yeri tapmaları kimi seçim təklif etməsini, Azərbaycan dövlətinin tezliklə sülh müqaviləsi imzalamağa, qarşıdurmaya son qoyulmasına hazır olması barədə fikirlərini oxucuların diqqətinə çatdırıb.

**"Veçernyaya Moskva"** nəşri dövlətimizin başçısının "Qarabağ bizim daxili işimizdir" fikrini xüsusilə önə çəkərək, Azərbaycan tərəfinin Qarabağ ermənilərinə demokratik əsaslarla seçim təklif etdiyini vurğulayıb.

**"Regnum"** Agentliyi "Azərbaycan Prezidenti Qarabağ ermənilərindən seçim etməyi tələb edib" sərlövhəli xəbərdə dövlətimizin başçısının Azərbaycanın daxili işlərini heç kimlə müzakirə etməyəcəyinə dair bəyanatına xüsusi yer verib.

**"News.ru"** Agentliyində yayımlanan xəbərdə Prezident İlham Əliyevin müsahibəsindən Ermənistanın Qarabağı Azərbaycanın ayrılmaz hissəsi kimi rəsmən tanıdığı barədə fikri yer alıb. Nəşr xatırladır ki, Azərbaycan Prezidenti ölkənin bütün vətəndaşlarına azadlıq və problemlərin demokratik proseslər əsasında həll olunacağını vəd edir.

**"Life.ru"**, **"Vedomosti"** nəşrləri Prezident İlham Əliyevin danışıqların və sülh müqaviləsinin imzalanmasının ölkələrin suverenliyi, ərazi bütövlüyü, sərhədlərin toxunulmazlığı və digər prinsiplər əsasında mümkün olması barədə sözlərini diqqətə çatdırıb.

**"Qazeta.ru"** nəşri və **"RBK"** Agentliyində yayımlanan məqalələrdə qeyd olunub ki, Azərbaycan dövlətinin başçısı bu gün Qarabağda Azərbaycan Bayrağının dalğalandığını vurğulayıb və Ermənistan hakimiyyətini Qarabağı rəsmən Azərbaycanın ayrılmaz hissəsi kimi tanımasını tələb edib.

**"Novıye izvestiya"** qəzetində, **TASS** və **"Mossovet"** İnformasiya agentliklərində, **"Arqumentı i Faktı"** nəşrində yayımlanan xəbərlərdə vurğulanıb ki, Prezident İlham Əliyev müsahibəsində Praqa və Soçi görüşlərində Ermənistanın Azərbaycanın ərazi bütövlüyünü, suverenliyini rəsmən qəbul etdiyini, iki ölkə arasında sərhədlərin 1991-ci ilin Alma-Ata Bəyannaməsi əsasında həll olunacağını bildirib, Ermənistanı "Qarabağ Azərbaycandır və nida" sözlərini təkrar etməyə çağırıb.

Türkiyənin **"Anadolu"** Agentliyinin, **"TRT Haber"**, **"TRT Avaz"**, **"AHaber"** televiziyalarının, **"Türkiye"**, **"Takvim"**, **"Yeni Şafak"**, **"Daily Sabah"**, **"Sözcü"** və digər KİV-lərinin yaydığı xəbərlərdə dövlətimizin başçısının Qarabağda yaşayan ermənilərə xəbərdarlıq etməsi barədə fikirləri xüsusilə qabardılıb. Məqalələrdə dövlətimizin başçısının İrəvanda Ağır Atletika üzrə Avropa Çempionatının açılış mərasimində Azərbaycan Bayrağının yandırılmasının sıradan hadisə olmaması, bu təxribatın arxasında Ermənistan dövlətinin dayanması barədə fikirləri önə çəkilib: "Ermənistanın siyasi rəhbərliyinin gözü önündə belə bir rəzil hadisə baş verir və buna heç bir reaksiya verilmir. Deməli, Ermənistan hakimiyyəti, hökuməti, dövləti bu çirkin əməlin müəllifidir".

Məqalələrdə Prezident İlham Əliyevin bu barədə Ermənistan rəhbərliyinə sərt xəbərdarlıq etdiyi qeyd olunub və dövlətimizin başçısının "Ancaq onlar yaxşı fikirləşsinlər. Bir gün gözlərini açıb Azərbaycan Bayrağını öz başları üzərində görə bilərlər" fikirləri də diqqətə çatdırılıb.

Avropanın bir sıra ölkələrinin KİV-ləri də Prezident İlham Əliyevin Azərbaycan Televiziyasına müsahibəsində söylədiyi fikirləri geniş işıqlandırıb. İspan dilində yayımlanan **"Europapress"**, **"La Nacion"**, **"Cope"**, **"Diariosigloxxi"**, **"Grupolaprovincia"**, **"Teleprensa"**, **"Notimerica"**, Macarıstanın **"Demokrata.hu"**, **"Hirado"**, **"Portfolio"** saytları, həmçinin Bolqarıstanın **"Focus-news"**, **"Actualno"**, Moldovanın **"Timpul"** kimi media qurumları Azərbaycan Prezidentinin "Biz dəfələrlə bəyan etmişdik ki, daxili işlərimizi heç bir ölkə ilə müzakirə etməyəcəyik. Qarabağ bizim daxili işimizdir. Qarabağda yaşayan ermənilər ya Azərbaycan vətəndaşlığını qəbul etməlidirlər, ya da ki, özləri üçün başqa yaşayış yeri tapmalıdırlar" fikirlərini xüsusi vurğulayıblar. Oxucuların diqqətinə çatdırılıb ki, Prezident İlham Əliyev burada tam sərbəstliyin olduğunu, bütün demokratik əsasların təklif edildiyini, bu məsələnin insan hüquqları əsasında öz həllini tapmasının vacibliyini bildirib.

Prezident İlham Əliyevin Azərbaycan Televiziyasına verdiyi müsahibədəki fikirləri Gürcüstan mediasının da diqqət mərkəzində olub. Qonşu ölkənin **"qafqazturk.com"**, **"24news.ge"** və **"aktual.ge"**, **"interpress.ge"**, **"timer.ge"**, **"ambebi.ge"**, **"ipress.ge"** informasiya portalları Azərbaycan Prezidentinin müsahibəsindən materiallar yayıblar. Məqalələrdə dövlətimizin başçısının bu gün Qarabağda Azərbaycan Bayrağının dalğalanması barədə fikirləri, eləcə də Ermənistanda Azərbaycan Bayrağının yandırılmasına sərt etirazı və separatçılara xəbərdarlığı barədə fikirlər oxucuların diqqətinə çatdırılıb. Materiallarda eyni zamanda Azərbaycan Prezidentinin Ermənistana xəbərdarlığı barədə də məlumat verilib.

İranın kütləvi informasiya vasitələri də dövlətimizin başçısının Azərbaycan Televiziyasına müsahibəsindəki fikirlərinə xüsusi yer veriblər. İranın **"Jadidpress"**, **"İRNA"**, **"Mashreghnews"**, **"Entekhab"**, **"Noandish"**, **"Parstoday"**, **"Ghatreh"** saytları dövlətimizin başçısının müsahibəsində səsləndirdiyi fikirlərin əsas məqamlarına toxunublar. Materiallarda qeyd olunub ki, Prezident İlham Əliyev Qarabağın Azərbaycan ərazisi olduğunu bəyan edib və burada yaşayan ermənilərin Azərbaycan vətəndaşları olduğunu deyib. Yazılarda Prezident İlham Əliyevin "Qarabağ bizim daxili işimizdir. Qarabağda yaşayan ermənilər ya Azərbaycan vətəndaşlığını qəbul etməlidirlər, ya da ki, özləri üçün başqa yaşayış yeri tapmalıdırlar" ifadəsi xüsusilə diqqətə çatdırılıb.

Vyetnam mətbuatında da Azərbaycan Prezidentinin müsahibəsi ilə bağlı xəbər yayımlanıb. **"Voice of Vietnam"** radiosunda yayımlanan xəbərdə Prezident İlham Əliyevin Qarabağın Azərbaycan ərazisi olduğunu bəyan etməsi və burada yaşayan ermənilərin Azərbaycan vətəndaşları olması barədə fikirləri qeyd edilib. Həmçinin dövlətimizin başçısının Azərbaycanın daxili işlərini heç bir ölkə ilə müzakirə etməyəcəyi barədə bəyanatı da xüsusi vurğulanıb.

# "Heydər Əliyev İli" çərçivəsində Yeni Azərbaycan Partiyasının silsilə tədbirləri davam edir

**"Heydər Əliyev İli" ilə əlaqədar Yeni Azərbaycan Partiyasının (YAP) Mərkəzi Aparatı tərəfindən hazırlanan və İdarə Heyətinin qərarı ilə təsdiq edilən tədbirlər planına uyğun olaraq silsilə tədbirlər həyata keçirilir.**

Tədbirlər planı çərçivəsində aprelin 18-də partiyanın Kəlbəcər, 19-da isə Astara və Ağstafa rayon təşkilatları tərəfindən tədbirlər keçirilib.

Tədbirlərdə Ümummilli Lider Heydər Əliyevin və şəhidlərimizin əziz xatirəsi dərin ehtiramla yad edilib.

Keçirilən tədbirlərdə - Kəlbəcər rayonunda YAP Kəlbəcər Rayon Təşkilatının sədri Həbib Misirov, Azərbaycan Respublikasının rəqəmsal inkişaf və nəqliyyat nazirinin müavini Cavid Qurbanov, Milli Məclisin deputatı Aqil Məmmədov, Azərbaycan İlahiyyat İnstitutunun rektoru Aqil Şirinov, Azərbaycan Respublikası İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin Strateji Planlaşdırma şöbəsinin müdiri, iqtisad elmləri doktoru Aqil Əsədov, Kəlbəcər Rayon İcra Hakimiyyətinin başçısı Azər Qocayev, Astara rayonunda YAP Astara Rayon Təşkilatının sədri Həbib Cəfərov, YAP İdarə Heyətinin üzvü, Milli Məclisin deputatı Rəşad Mahmudov, YAP Veteranlar Şurasının üzvü Nazim İsmayılov, Astara Rayon İcra Hakimiyyətinin başçısı Qəzənfər Ağayev, Ağstafa rayonunda YAP Ağstafa Rayon Təşkilatının sədri Etibar Hacıyev, YAP İdarə Heyətinin üzvü, Milli Məclisin deputatı Pərvin Kərimzadə, Milli Məclisin deputatı Ülviyyə Ağayeva, Ağstafa Rayon İcra Hakimiyyətinin başçısı Seymur Orucov və başqaları çıxış ediblər. Çıxışlarda Ulu Öndər Heydər Əliyevin zəngin dövlətçilik irsindən və əbədiyaşar ideyalarından, Prezident, Yeni Azərbaycan Partiyasının sədri İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən siyasətin uğurlu nəticələrindən, Yeni Azərbaycan Partiyasının keçdiyi şərəfli inkişaf yolundan bəhs edilib. Tədbirlərdə YAP sıralarına yeni qəbul olunmuş şəxslərə üzvlük vəsiqələri və partiya fəallarına fəxri fərmanlar təqdim edilib.

Tədbirlər planına uyğun olaraq aprelin 19-da YAP Füzuli Rayon Təşkilatı tərəfindən gənc partiya fəallarının iştirakı ilə rayondakı Heydər Əliyev Mərkəzinə ekskursiya təşkil olunub. Gənclərə müstəqil Azərbaycan dövlətinin memarı, Ümummilli Lider Heydər Əliyevin zəngin həyat yolu və müstəsna fəaliyyəti haqqında geniş məlumat verilib.

Bundan başqa, YAP-ın rayon və şəhər təşkilatları ağacəkmə kampaniyasını davam etdiriblər. Kampaniya çərçivəsində növbəti tədbirlər partiyanın Şabran, Gədəbəy, Daşkəsən və Tərtər rayon təşkilatlarının yerli icra hakimiyyəti orqanları ilə birgə təşkilatçılığı əsasında keçirilib. Tədbirlərdə YAP-ın yerli təşkilatlarının rəhbərləri, partiya fəalları və ictimaiyyət nümayəndələri iştirak ediblər. Aksiya çərçivəsində ümumilikdə 2500-dən çox müxtəlif növ ağac əkilib. Eyni zamanda ağacların əkildiyi ərazilərdə təmizlik işləri aparılıb, ağaclara aqrotexniki qulluq göstərilib.

# Gəncədə Mir Cəlal Paşayevin ev-muzeyi ziyarət edilib

Bakı Dövlət Universitetinin (BDU) professor-müəllim heyəti Mir Cəlal Paşayevin 115 illik yubileyinə həsr olunmuş tədbirlər çərçivəsində görkəmli ədibin Gəncə şəhərində yerləşən ev-muzeyini ziyarət edib.



AZƏRTAC xəbər verir ki, ev-muzeyində təşkil olunan mərasimdə çıxış edən BDU-nun rektoru Elçin Babayev görkəmli alim, pedaqoq Mir Cəlal Paşayevin xatirəsini özündə yaşadan bu muzeyi ziyarət etməyin mənəvi borc olduğunu bildirib. Rektor diqqətə çatdırıb ki, BDU tərəfindən böyük yazıçı və alimin 115 illik yubileyinə həsr olunmuş silsilə tədbirlər keçirilir. BDU-nun tələbələri arasında Mir Cəlal Paşayevin 115 illik yubileyi münasibətilə qısa hekayə müsabiqəsi elan olunub. Universitet əməkdaşları və tələbələr "Ədibin evi"ni ziyarət ediblər. Aprelin 18-də isə BDU-da böyük yazıçı və alimin 115 illik yubileyinə həsr olunmuş Respublika elmi konfransı keçirilib.

"BDU-nun nüfuzlu professoru, sevimli müəllimi kimi xatirələrdə daim yaşayan Mir Cəlal müəllim həqiqət, düzlük, səmimiyyət aşiqi, ailəsini, övladlarını, tələbələrini sevən, qoruyan şəxsiyyət olub. Onun bu kəlamı indi də dillər əzbəridir: "Həyatımda yaratdığım ən böyük əsər ailəmdir". Bu, Mir Cəlal müəllimin ailəsinə, övladlarına olan məhəbbətinin təzahürü idi", - deyə o əlavə edib.

Sonra rektor Elçin Babayev ev-muzeyinə görkəmli ədibin az nüsxədə mövcud olan "Seçilmiş hekayələr (1940)", "Sevinc (1950)" kitablarını və "Bestcomp" şirkətinin dəstəyi ilə alınan kompüter dəstini hədiyyə edib.

ADA Universitetinin rektoru Hafiz Paşayev Mir Cəlal irsinin öyrənilməsi və təbliği istiqamətində BDU-nun təşəbbüsünü alqışladığını, tələbələrin də bu işdə yaxından iştirakından sevinc hissi keçirdiyini bildirib. Hafiz Paşayev qeyd edib ki, Mir Cəlalın ailəsi həm də Bakı Dövlət Universiteti, buradakı minlərlə tələbəsi idi.

Gəncə Şəhər İcra Hakimiyyətinin başçısı Niyazi Bayramov Mir Cəlal Paşayevin ədəbi irsinin bütün nəsillər üçün əsl məktəb olduğunu vurğulayıb.

Daha sonra BDU-nun tələbələri arasında böyük yazıçı və alim Mir Cəlal Paşayevin 115 illik yubileyi münasibətilə elan edilmiş qısa hekayə müsabiqəsinin nəticələri elan olunub. Müsabiqədə I yerə Filologiya fakültəsinin IV kurs tələbəsi Fidan Hüseynova, II yerə II kurs tələbəsi Nuridə İsmayılova, III yerə Hüquq fakültəsinin II kurs tələbəsi Nurlanə Şirinova layiq görülüblər.

Mexanika-riyaziyyat fakültəsinin II kurs magistrantı Fatimə Musayeva və Filologiya fakültəsinin I kurs tələbəsi Aytac Salahlı müsabiqənin xüsusi mükafatını qazanıblar.

Müsabiqədə I yerin qalibi Fidan Hüseynova öz hekayəsini oxuyub.

Daha sonra BDU-nun rektoru muzeyin "Xatirə kitabı"na ürək sözlərini yazıb.

# Gəncədə Mir Cəlal Paşayev adına 39 nömrəli tam orta məktəbə kompüter və kitablar bağışlanılıb





Bakı Dövlət Universitetinin (BDU) görkəmli yazıçı, ədəbiyyatşünas alim və pedaqoq Mir Cəlal Paşayevin 115 illik yubileyinə həsr olunmuş silsilə tədbirləri Gəncədə davam edib.

AZƏRTAC xəbər verir ki, əvvəlcə BDU-nun rektoru Elçin Babayev, Gəncə Şəhər İcra Hakimiyyətinin başçısı Niyazi Bayramov və universitetin nümayəndə heyəti Gəncədə Ümummilli Lider Heydər Əliyevin abidəsi önünə gül dəstələri qoyub, xatirəsinə dərin ehtiramlarını bildiriblər.

Sonra BDU-nun nümayəndə heyəti Gəncədə Mir Cəlal Paşayev adına 39 nömrəli tam orta məktəbdə olub. Görkəmli ədibin büstü önünə gül dəstələri qoyulub. BDU tərəfindən məktəbə "Bestcomp" şirkətinin dəstəyi ilə alınan kompüter dəsti hədiyyə edilib. Bundan əlavə, məktəbə BDU-nun Elmi Kitabxanasından 102 adda 125-dək kitab da hədiyyə olunub.

Daha sonra məktəbin şagirdlərinin ifasında Mir Cəlal Paşayevin əsərləri əsasında hazırlanmış səhnəciklər göstərilib, görkəmli yazıçının məşhur aforizmlərindən seçmələr səsləndirilib.

# Bakı Şəhər İcra Hakimiyyətində yeni layihəyə başlanılıb

Bakı Şəhər İcra Hakimiyyətinin (BŞİH) və Tarix İnstitutunun yeni layihəsi olan "Heydər Əliyev" kitabının nəşrinin həyata keçirilməsinə başlanılıb.



BŞİH-in Mətbuat xidmətindən AZƏRTAC-a verilən məlumata görə, bu barədə icra hakimiyyətində keçirilən və Ulu Öndərin əbədiyaşar xatirəsinə həsr olunmuş elmi-praktik konfransda bildirilib.

Tədbir Ulu Öndərin və şəhidlərimizin xatirəsinin birdəqiqəlik sükutla yad edilməsi ilə başlayıb.

Konfransda çıxış edən Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Eldar Əzizov deyib ki, "Heydər Əliyev" kitabı Bakı meriyası və Tarix İnstitutunun yeni layihəsidir. Kitaba alimlərin, Ulu Öndərlə birgə çalışmış dövlət xadimlərinin Ümummilli Liderin həyatı, çoxşaxəli siyasi fəaliyyəti ilə bağlı memuar xarakterli elmi-bioqrafik məqalələri daxil ediləcək.

Eldar Əzizov vurğulayıb ki, bu gün Azərbaycan postsovet məkanında lider dövlətdir, Prezident İlham Əliyevin müdrik siyasəti sayəsində ölkəmiz dünyada öz layiqli yerini tutur. Bu siyasətin əsasını məhz Ulu Öndər Heydər Əliyev qoyub və o, bugünkü müasir, müstəqil Azərbaycanın yaradıcısıdır. Ulu Öndərin layiqli siyasi varisi olan Prezident İlham Əliyev ölkəmizi uğurla inkişaf etdirir.

Konfransda AMEA Tarix İnstitutunun direktoru, tarix elmləri doktoru, professor Kərim Şükürov "Ulu Öndər Heydər Əliyev: həyat və fəaliyyətinin tarixi dövrləri", Milli Məclisin deputatı Aydın Hüseynov "Heydər Əliyev və Azərbaycan iqtisadiyyatı", Milli Məclisin deputatı Azər Badamov "Heydər Əliyev və azərbaycançılıq ideologiyası", fəlsəfə elmləri doktoru, professor İlham Məmmədzadə "Heydər Əliyevin güclü dövlət fəlsəfəsi və milli ideologiyası", "Azərbaycan" qəzetinin baş redaktorunun müavini İxtiyar Hüseynli "İnkişaf və Zəfər strategiyası: Heydər Əliyevdən İlham Əliyevə", Milli Azərbaycan Tarixi Muzeyinin elmi katibi, tarix elmləri doktoru Fərhad Cabbarov "Heydər Əliyevin irsində Qərbi Azərbaycan problemləri" mövzularında məruzələrlə çıxış edərək Ulu Öndər Heydər Əliyevin fəaliyyətinin müxtəlif məqamlarına nəzər salıblar.

# Azərbaycan QHT-ləri "Caucasus Heritage Watch"a etiraz məktubu göndəriblər

Azərbaycanın elm, tarix, mədəniyyət yönümlü qeyri-hökumət təşkilatları Cornell və Purdue universitetlərinin, həmçinin Ford Fondunun dəstəyi ilə hazırlanmış "Caucasus Heritage Watch": 2-ci xüsusi hesabat" ilə bağlı etiraz məktubu göndəriblər.

AZƏRTAC xəbər verir ki, məktubda Ermənistanın 30 illik işğal dövründə Azərbaycanın maddi və mədəni irsinə qarşı törətdiyi cinayətlərin hesabatda ört-basdır edilməsinin Azərbaycan QHT-ləri tərəfindən hiddətlə qarşılandığı ifadə olunub.

Həmçinin "Caucasus Heritage Watch: 2-ci xüsusi hesabat"ın hazırlanmasında mütəxəssislərdən ikisinin milliyyətcə erməni olması, digərlərinin isə ermənipərəst mövqeyi ilə tanındığı xüsusi vurğulanıb, həmin şəxslərin belə bir təhrif edilmiş hesabatın hazırlanmasında iştirakının təəccüb və təəssüf doğurduğu bildirilib. Universitetlərin və fondun təmsilçilərinə ünvanlanan etiraz məktubunda Ermənistan tərəfindən Azərbaycan ərazilərinin işğalı və onun doğurduğu nəticələr barədə ətraflı məlumat təqdim edilib. Bildirilib ki, əgər universitetlərin və fondun təmsilçiləri bu mövzuda araşdırmaları Azərbaycanın Qarabağ bölgəsində aparmaq istəsələr, onlar üçün müvafiq şəraitin yaradılmasına kömək göstərilə bilər.

# REGİONLAR

## SDU-da beynəlxalq elmi konfrans keçirilib

**Sumqayıt Dövlət Universitetində (SDU) Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 100 iliyinə həsr olunan "Azərbaycanda dövlət müstəqilliyinin bərpası və ölkənin siyasi, sosial-iqtisadi, mədəni inkişafı" mövzusunda onlayn formatda beynəlxalq elmi konfrans keçirilib.**



Konfransda Azərbaycan universitetləri ilə yanaşı, Türkiyə, Rusiya, Estoniya, Ukrayna, Almaniya və Qazaxıstanın aparıcı universitetlərinin alimləri iştirak ediblər. Plenar iclası giriş sözü ilə açan SDU-nun prorektoru, professor Ramazan Məmmədov bildirib ki, 1993-cü ilin iyun ayında Heydər Əliyevin hakimiyyətə qayıdışı ilə Azərbaycanda müstəqilliyin, suverenliyin qorunması, ölkədə ictimai-siyasi sabitliyin bərpa edilməsi mümkün oldu. Bütün bunlar xalqın milli düşüncə tərzinin, vahid azərbaycançılıq ideologiyasının inkişafına zəmin yaratdı.

Sonra "Heydər Əliyev Azərbaycan dövlətinin xilaskarıdır" mövzusunda məruzə edən Tarix və coğrafiya fakültəsinin dekanı, professor Adil Baxşəliyev bildirib ki, Heydər Əliyevin ölkənin müasir tarixində ən böyük xidmətlərindən biri onun Azərbaycanın intibahının əsasını qoymasıdır. Azərbaycanın müstəqil dövlət kimi mövcudluğunun qorunub saxlanılması, inkişafı, ölkəmizdə sabitlik və həmrəyliyin təmin olunması bilavasitə Ulu Öndərin adı ilə bağlıdır.

1987-ci ildə Heydər Əliyev SSRİ rəhbərliyində tutduğu yüksək vəzifədən uzaqlaşdırıldıqdan sonra ermənilərin cinayətkar niyyətləri reallaşdı. 1987-ci ildən etibarən Qərbi Azərbaycan ərazisindən azərbaycanlıların məcburi şəkildə çıxarılması prosesi başladı ki, bu da 1991-ci ilədək davam etdi. Erməni millətçilərinin şovinist siyasəti bütün XIX-XX əsrlər boyu mərhələ-mərhələ davam etmiş, deportasiyalar və soyqırımları nəticəsində yüzminlərlə dinc azərbaycanlı amansız formada məhv edilmişdir. Heydər Əliyevin 1997-ci il dekabrın 18-də imzaladığı "1948-1953-cü illərdə azərbaycanlıların Ermənistan SSR ərazisindəki tarixi-etnik torpaqlarından kütləvi surətdə deportasiyası haqqında" fərman bu istiqamətdə verilən ilk hüquqi sənəddir" deyə professor söyləyib.

Sonra Türkiyə Respublikasının Zonquldak Bülent Ecevit Universitetinin professoru Nurettin Hatunoğlu, T. K. Jurgenov adına Qazaxıstan Milli İncəsənət Akademiyasının professoru, Beynəlxalq İnformasiyalaşdırma Akademiyasının akademiki Mendıqanım Şaymerdenova, SDU-nun kafedra müdiri, professor Şirxan Səlimov geniş məruzələrlə çıxış ediblər.

*Akif ƏLİYEV,*
*"Azərbaycan"*

## Qazaxda daha 13 küçəyə Vətən müharibəsi şəhidinin adı verilmişdir

**Qazaxda şəhidlərin adlarının əbədiləşdirilməsi istiqamətində müxtəlif tədbirlər həyata keçirilir.**

Hər kəsin üz tutduğu müqəddəs məkanda - şəhərin mərkəzində yerləşən Şəhidlər xiyabanında aparılan abadlıq işləri, şəhidlərin ad və şəkilləri əks olunmuş lövhənin vurulması bu istiqamətdə görülən növbəti işlərdir. Belə işlər sırasında küçələrə şəhid adlarının verilməsi də əsas yer tutur.

Bu günlər daha 13 küçəyə şəhid adlarının verilməsi ilə bağlı sərəncam imzalanmışdır. Bununla bağlı Qazax Rayon İcra Hakimiyyətinin başçısı Rəcəb Babaşov şəhidlərin ailə üzvləri ilə görüşmüşdür. Bildirilmişdir ki, şəhidlərin adları verilmiş küçələr abadlaşdırılacaq, tanıtım lövhələri ilə təmin olunacaq.

*Sabir ƏLİYEV,*
*"Azərbaycan"*

## Bahar libaslı Masallı



**Bakı səmtdən gedərkən Masallı rayonunun mərkəzinə təxminən iki kilometr qalmış baharın gəlişi ilə yamyaşıl dona bürünmüş silsilə dağlar, şəhərin mərkəzində hündür dirəkdə vüqarla dalğalanan üçrəngli Azərbaycan bayrağı görünür. Şəhərə girəndə isə başqa ürəkaçan mənzərələrlə qarşılaşırsan - müasir inzibati binalar, yaşayış evləri, digər tikililər diqqəti cəlb edir.**

"ASAN xidmət", Olimpiya İdman Kompleksi, DAİM, polis şöbəsi və regional məhkəmə üçün inşa olunmuş binalar, boks və taekvendo mərkəzləri hər iki tərəfi xan çinarlarla əhatə olunmuş küçə boyu sıralanıb. Şəhərin mərkəzinə doğru irəlilədikcə isə abadlıq, səliqə-sahman adamda könül xoşluğu yaradır. Fikirləşirsən ki, Ulu Öndərin səyi ilə 1994-cü ilin sentyabrında imzalanan "Əsrin müqaviləsi"ndən pərvəriş tapan işlərdir bunlar. Neftdən gələn ilk gəlirlərin mühüm bir hissəsi 2004-cü ilin əvvəlində, daha dəqiq desək, fevral ayının 11-də Prezident İlham Əliyevin imzaladığı regionların sosial-iqtisadi inkişafı ilk dövlət proqramı çərçivəsində illər boyu yığılıb qalan problemlərin həllinə yönəldildi. Nəticədə ölkənin hər yerində olduğu kimi, Masallıda da yeni məktəblər, tibb ocaqları, uşaq bağçaları tikildi, köhnələri əsaslı şəkildə təmir olundu, parklar, xiyabanlar salındı, yeni istehsal müəssisələri yaradıldı, yollar çəkildi, əhalinin elektrik enerjisinə, təbii qaza, içməli suya olan tələbatının ödənilməsi üçün layihələr reallaşdırıldı. Kənd adamlarına verilən subsidiyalar, edilən güzəştlər onları yenidən torpağa qaytardı. Qəbul edilən sonrakı dövlət proqramlarının həyata keçirilməsi nəticəsində isə Masallı daha abad oldu və bugünkü inkişafına qovuşdu.

Bunlar görülən işlərin yalnız cüzi bir hissəsidir. İndi ipək kimi rahat Ələt-Astara magistral şose yolu ilə gedərkən bu günlə müqayisəyə gəlməyən yaxın keçmiş kinolenti kimi gözlərimiz önündə canlanır. 44 günlük Vətən müharibəsində qazanılan qələbəmiz, ölkəmizin beynəlxalq aləmdə durmadan artan nüfuzu yada düşdükcə azərbaycanlı olmağınla qürur hissi keçirirsən.

Heydər Əliyev dəfələrlə Masallıya səfər etmiş, burada yaşayıb ömür sürən insanlarla görüşüb səmimi söhbətlər aparmış, masallılılar haqqında xoş sözlər demişdir. Həqiqətən, Masallıda çox zəhmətkeş, vətənpərvər, həqiqi Azərbaycan vətəndaşları olan insanlar yaşayırlar. Torpaqlarımızın mənfur düşmənlərdən təmizlənməsi üçün Masallıdan olan yüzlərlə gənc qanından, canından keçərək qəhrəmanlıq nümunələri göstərmişlər. Onlardan 186 nəfəri Birinci Qarabağ, 62 nəfəri İkinci Qarabağ müharibəsində şəhidlik zirvəsinə yüksəlmişdir. İgid döyüşçülərdən 3 nəfəri Azərbaycan Respublikasının Milli Qəhrəmanı, 2 nəfəri Vətən Müharibəsi Qəhrəmanı adına layiq görülmüş, 5 nəfər "Azərbaycan Bayrağı", 3 nəfər 3-cü dərəcəli "Rəşadət", 11 nəfər 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordenləri, çoxlu sayda igid əsgər Qarabağın ayrı-ayrı rayonlarının azad edilməsində mərdlik göstərdikləri üçün müvafiq medallarla təltif olunmuşlar. Şəhid ailələri, qazilər, demək olar ki, hər cür qayğıkeşliklə əhatə edilmişlər. Şəhidlərin xatirəsinə 21 abidə, 45 bulaq tikilmişdir. Hazırda daha 3 bulaq və 1 abidə inşa edilir. 252 küçə, 55 məktəb və 3 uşaq bağçası onların adını daşıyır.

Bu gün rayonun kənd adamları bahar qayğıları ilə yaşayırlar. Hər kəs istəyir ki, daha bol məhsul əldə etsin, gəliri çox olsun, ailəsini firavan dolandırsın, nəzərdə tutduğu arzu və istəyini reallaşdırsın, problemlərini yoluna qoysun. Buna görə də günəşlə bir oyanıb tarlaya yollanır, gün batanda geri dönürlər.

Torpaq mülkiyyətçiləri, fermerlər cari ilin məhsulu üçün keçən ilin payızında 10 min 520 hektara taxıl əkmişlər. Bunun 7 min 720 hektarı buğda, 2 min 800 hektarı arpadır. Heyvandarlığın inkişafı üçün 2 min 626 hektara vələmir toxumu səpilmişdir. Sahələr vaxtında suvarılmış, gübrələnmişdir. Ziyanvericilərə, alaq otlarına qarşı mübarizə tədbirləri görülmüşdür. Bunlarla yanaşı, təbiətin mərhəməti sayəsində rayon ərazisinə düşən yağıntı bitkilərin normal boy atmasına şərait yaratmışdır. Boru fazasına qədəm qoyan taxıllar sünbül bağlamaq ərəfəsindədir. Fermerlər isə biçinə hazırlıq tədarükündədirlər. Kombaynçılar texnikalarının bütün hissələrini dönə-dönə yoxlayıb onları start xəttinə çəkirlər.

Digər becərmə-yığım işləri də davam edir. Polietilen örtük altında becərilən çiyələk əkinlərində seçmə yolla məhsul yığımına artıq başlanılmışdır. Rayon üçün xarakterik əkin növlərindən biri də kartofdur. Cari ilin əvvəlində 857 hektarda kartof toxumu əkilmişdir. Hazırda becərmə işləri ilə yanaşı, məhsul yığımına hazırlıq da görülür. Bunlardan əlavə, rayonda yazlıq bitkilərdən 171 hektar paxla, 196 hektar noxud, 36 hektar mərci, 46 hektar lobya, 35 hektar lərgə, 10 hektar kələm, 77,5 hektar badımcan, 5,5 hektar bibər, 112 hektar yemiş, 5 hektar qarpız, 9,8 hektar soğan, 81,5 hektar sarımsaq, 221 hektar göyərti, 17 hektar zəfəran əkilmişdir.

Başqa sahələr də unudulmur. İşıq təsərrüfatı yenilənir, təbii qaz və su təminatının yaxşılaşdırılması üçün tədbirlər həyata keçirilir.

*Seyran CAVADOV,*
*"Azərbaycan"*

## Gilas bağının yaz ətri və qış qorxusu

**Yaz insan ruhunda çiçəklərin füsunkar simfoniyasını yaratmağa qadir olan fəsildir. Təbiət vurğunları ilk çiçəklərin cığırlarına düşərək yazı qarşılamağa çıxır, gördükləri mənzərələrdən sonsuz zövq almağı bacarırlar.**



Yalnız fermerlərin, bağ sahiblərinin baharın ilk çiçəklərinə münasibətləri bir qədər fərqli olur. Daha doğrusu, onların gözləri təbiətin bənzərsiz mənzərələrindən daha çox meyvə bağlarının gündəlik qayğılarına yönəlir. Nə qədər gözəllik aşiqi olsa belə, daha çox qayğılarının əsarətinə düşür.

Bir hektar gilas bağı çiçəkləməyə başlayan Eldar üçün də bütün bu gözəlliklər ikinci dərəcəlidir, daha doğrusu, sanki, əhəmiyyətsizdir. Narahatdır, qayğılıdır. Ona görə də Eldar təbiətin indiki gözəlliyi ilə bağlı sualıma cavab vermədi. Qaşlarını çatıb təəccüblə mənə baxdı. Gözlərində bir sual vardı: "Siz nə hayda, mən nə hayda?" Üzümə də vurdu ki, vallah inciməyin, amma siz şəhər adamları torpağın dərd-sərindən çox uzaqsınız.

- Xeyr, - deyə etiraz etdim, - uzaq adam olsaydım buralara gəlib çıxmazdım.

- Vallah, siz şəhərlilər bağ-bağat çiçəkləyəndə, ya da yay gələndə, mer-meyvə yetişəndə buralara ayaq basırsınız. Amma yer-göy ağlayanda, şıdırğı yağış yağanda, yeriyərkən dabanınızdan qopan palçıq küləklərinizə dırmaşanda ildırım sürəti ilə qeyb olursunuz.

Daha Eldara sual vermirəm. Onun yaz qonan gilas bağı həqiqətən də təbiətin möcüzəsidir. Bir az yuxarıdan, quşların uça bildiyi yüksəklikdən bütün bağları birlikdə seyr edə bilsəniz, sizdə elə təsəvvür yaranacaq ki, sanki, sonsuz çiçək dənizindəsiniz. Bu çiçək dalğaları ağlınızı qanadlarına alıb sizi nadir mənzərələrin əsarətinə alacaq.

Amma Eldar torpaqdan dolanan adam kimi əlinin qabarının bərəkəti ilə nəfəs alır:

- Bu yaz demək olmaz ki, tələsdi, ya da vaxtında, vədəsində gəldi. Belə baxanda qeyri-adi heç nə yoxdur. Sadəcə, ağaclar gül açıb meyvə tutandan sonra elə gecə-gündüz bağı dolanıb Allaha yalvarırıq ki, qəfildən havalar soyumasın, şaxta düşüb yeni meyvə tutan çiçəkləri don vurmasın. Artıq bizdən asılı nə isə yoxdur. Yazda bəzən elə şaxtalar düşür ki, termometr sıfırdan da aşağı enir və meyvənin olub-qalanı da əlimizdən çıxır.

- Bu il vəziyyət necədir? - soruşuram.

- Hələ səksəkədəyik, nigaranıq. Amma çox şükür ki, havanın temperaturu müsbət ikidən aşağı enməyib. O qədər də təhlükəli deyil, amma bəzən bu da bəs edir ki, əlindəki-ovcundakı ruzinin bir qismini itirəsən.

Fermerlər xatırlayırlar ki, haradasa 15-18 il əvvəl may ayının əvvəlində qar yağmış, şaxtalar düşmüşdü. Onda çox adama ziyan dəymişdi.

Bu gün isə vacib işlərini görməlisən, bir da bağını nəzarətdə saxlamalısan ki, vaxtında biləsən bağ üzünü ağardacaq, ya yox.

Kənd təsərrüfatında, meyvəçilikdə yaz ən çətin aydır. Amma gilas bağında elə ilk gündən asan iş olmur. Gilas bağı lap körpə uşaq kimidir, çox diqqət, qayğı tələb edir. Bəlkə uşaqdan da kövrəkdir.

Axşam tərəfi soyuq olduğundan kiçik tonqalın yanında çay süfrəsinə otururuq. Gecə yorğanını çiçək "övlad"larının üstünə çəkib ümid edir ki, isidə biləcək.

İndi bütün işlər havaların necə keçməsindən asılıdır. Ağaclar gül tutub, amma meyvənin aqibəti qarşıdakı beş-altı gündə bilinəcək. Hər şey havaların diktə etdiyi kimi olacaq. Çünki yazın əvvəlində təbiətin sabit olacağını demək çətindir, hər şey Allahın ümidinə qalır.

Bu il soyuqlar düşənədək meyvə bağlarının çoxu çiçəkləmişdi. Armud, şaftalı, alca, gilac, albalı bağlarının hamısı gül açıb artıq. Bəzi meyvələr də pis tutmayıblar. İndi isə təbiət insanları yenidən sınağa çəkib.

Gilasa qulluq etmək öz övladını saxlamaqdan min dəfə çətindir. Lap uşaq kimidir gilas bağları, daim gərək nazını çəkməyi bacarasan. Vaxtında su vurmadınsa, ağacların quruya bilər, diqqətdən qaçırdınsa, nəinki ağac, hətta bütün bağın məhv olar. Bu vaxtadək ağaclara 6-7 dəfə qulluq ediblər, gübrə, dəmir tozu, göy daş veriblər. Gilas bağının dərmanları da bahadır. Hələ ki hektarın builki xərci 2 min manatı keçib. Babat bir gilas bağının salınmasına yeni texnologiya ilə 20-25 min manat pul gedir.

Sağollaşıb ayrılırıq. Bakıya çatandan bir-iki gün sonra Qubaya zəng vurub soruşdum ki, meyvəsi tutubmu? Cavab verdi ki, hələ tezdir, bir-iki günə bilinər: "Amma havalar 12 dərəcəyə kimi qızıb. İnşaallah yaxşı olar".

*Bahadur İMANQULİYEV,*
*"Azərbaycan"*

## Ağdamda poliuretan çəkmələr istehsal olunacaq

**Ağdam Sənaye Parkının rezidenti "BAFCO İnvest" MMC tərəfindən Azərbaycanda ilk dəfə olaraq poliuretan çəkmələrin istehsalı həyata keçiriləcək.**

Müasir standartlara cavab verən ayaqqabılar görünüşü ilə fərqlənəcək. Təhlükəsizlik tipli ayaqqabıların dabanlarında poliuretan və termo poliuretandan istifadə olunacaq. Çəkmələrin dizaynını italyan mütəxəssislər hazırlayacaqlar. Müəssisədə istehsal olunacaq məhsullar daxili bazarla yanaşı, ixraca da yönəldiləcək. İstehsalın 70 faizdən çoxu ixrac potensiallıdır. Sənaye Parkında istehsal olunacaq ayaqqabıların ilk nümunələrinin bu ilin noyabrında satışa çıxarılacağı gözlənilir. Fabrik bölgədə məşğulluğun təmin olunması baxımından vacib rol oynayacaq. Müəssisədə 120 işçi çalışacağı nəzərdə tutulur.

## Fermer təsərrüfatlarına dəymiş zərər müəyyənləşdirilir

**Son günlər ölkə ərazisində hava şəraitinin kəskin pisləşməsi nəticəsində bir çox rayonlarda güclü yağışlar, sel, subasma, külək, qasırğa, fırtına, temperaturun kəskin aşağı düşməsi, dolu yağması halları qeydə alınıb.**



Bu hadisələr nəticəsində bəzi rayonlarda meyvə bağlarına, əkin sahələrinə ciddi zərər dəyib. 30-a yaxın rayon üzrə təsərrüfatları təbiət hadisələrindən zərərçəkmiş fermerlər dəymiş zərərin hesablanması və ödənilməsi üçün Aqrar Sığorta Fonduna müraciət edirlər. Artıq fonda fermerlər tərəfindən 200-dən artıq müraciət daxil olub.

Aqrar Sığorta Fondundan bildirilib ki, baş verən sığorta hadisələri ilə bağlı əkin sahələrini və təsərrüfatlarını sığorta etmiş fermer və sahibkarların müraciətləri qeydə alınır və müstəqil aqrar sığorta ekspertlərinin iştirakı ilə araşdırılır. Hazırda ekspertlər hadisə ərazisinə baxış keçirir, hadisəni və onun nəticələrini qeydə alır, ilkin olaraq dəyən zərəri hesablayırlar. Araşdırmalar başa çatdıqdan sonra qanunvericiliyə uyğun olaraq sığorta hadisələri üzrə ödənişlər həyata keçiriləcək.

# "Bir gün görəcəyik ki, İlham Əliyevin maşın karvanı Zəngəzurdan keçərək Naxçıvana gedir"

## Azərbaycan Prezidentinin bəyanatından sonra ermənilər ciddi qorxu içərisindədirlər

**Prezident İlham Əliyevin səsləndirdiyi "Azərbaycan Bayrağı Zəngəzur dağlarında dalğalanır, onu unutmasınlar. O bayrağa onlar yaxınlaşa bilər?.. Bir gün gözlərini açıb Azərbaycan Bayrağını öz başları üzərində görə bilərlər" fikirləri Hayastanda da xüsusi müzakirə mövzusuna çevrilib.**

Azərbaycan Prezidentinin Hayastana verdiyi kifayət qədər açıq mesajlar məğlub ölkədə ajiotaja səbəb olub, böyük şok və xof yaradıb. Erməni sosial şəbəkə istifadəçilərinin statuslarından, şərhlərindən və mövqelərindən görünür ki, təşvişə düşən haylar indi düşdükləri bu acınacaqlı vəziyyətə görə hazırkı və keçmiş hökumət başçıları arasında "qurbanlıq keçi" axtarışındadırlar.

### "Ermənistan ölüb, ağlayanı yoxdur. Əliyevi izlədim, dəhşətə gəldim"

"4rd.am" saytının müxbiri Tiqran Mamikonyan sosial şəbəkədə Prezident İlham Əliyevin son çıxışının yer aldığı paylaşıma münasibət bildirərək Azərbaycanın mütləq Zəngəzura qayıdacağını bildirir: "Səhər saatlarından Sünikdəyik (red.Zəngəzur). İnsanlarla söhbətlərdən belə nəticəyə gələ bilərik ki, onlarda təşviş var. Son günlərdə baş verən hərbi toqquşmalardan sonra İlham Əliyevin belə kəskin bəyanatlar səsləndirməsi Mehridə qorxu yaradıb. Təsəvvür edirsiniz, insanlar uşaqlarını məktəbə belə göndərməyib. Fırtına öncəsi sakitlik hökm sürür".

Manvel Qasparyan adlı instaqram istifadəçisi İlham Əliyevin son bəyanatlarının yer aldığı paylaşıma belə şərh verib: "Ermənistan ölüb, ağlayanı yoxdur. Əliyevi izlədim, dəhşətə gəldim. Xəbəriniz varmı ki, İlham Əliyev yavaş-yavaş Zəngəzura, Mehriyə, Qafana doğru irəliləyir. Övladlarıma, mənə müharibə lazım deyildi. Boş yerə gənclərimiz həlak oldular. Paşinyan xalqını, dövlətini yeni müharibəyə, ölüm-itimli günlərə sürükləyir".

### "Həyəcanla, xofla burada necə yaşaya bilərik?"

"Vkontakte" sosial şəbəkəsində "İlham Əliyev: Azərbaycan bayrağı Zəngəzur dağlarında dalğalanır, onu unutmasınlar" bağlı çıxışının əks olunduğu videomateriala münasibət bildirib: "Ermənistan İlham Əliyevin son bəyanatından danışır. Görəsən bizim nə vaxt normal bir rəhbərimiz olacaq? İlham Əliyev sülhdən danışa-danışa Artsaxı (red.Qarabağ) bizdən geri aldı. İndi isə açıq şəkildə Zəngəzurdan danışırsa, deməli, onun hədəfi İrəvandır".

Serj Vazgenyan adlı biri isə tviterdə yazıb: "Müharibədən sonrakı qorxu hələ də canımızdadır. İlham Əliyev Azərbaycan üçün lazımi addımlar atır, ərazilərin qaytarılması ilə bağlı işlər görür. Onun Ermənistanla bağlı dediklərini rus saytlarından oxumaq kifayətdir ki, bizi nələrin gözlədiyini təsəvvür edək. Bəli, İlham Əliyev Zəngəzurda da bayrağını ucaltmağa hazırlaşır. Ayıq olmalıyıq".

Edvard Karapetyan instaqramda Sünikdən (red.Zəngəzur) şəkil paylaşaraq qeyd edib: "Acı olsa da, reallığı İkinci Qarabağ müharibəsində gördük. Belə davam etsə, Əliyev növbəti bəyanatını Zəngəzurdan verəcək. İndi nə edək? İrəvandakı qohumlarımıza yük olaq? Bu həyəcanla, xofla burada necə yaşaya bilərik?"

### "İndi də Sünik (Zəngəzur) əldən gedir"

Aşot Simonyan adlı instaqram istifadəçisi İlham Əliyevin Zəngəzurla bağlı bəyanatının yer aldığı paylaşıma belə şərh verib: "İllər öncə Əliyev "erməni əsgəri ölmək istəmirsə, Qarabağda nə işi var" sözünə müharibədə əməl etdi. Bu gün Sünikllə bağlı son çıxışını izlədim, dəhşətə gəldim. Canımızı qorxu bürüyüb".

Feysbuk istifadəçisi Vaaq Naumyan isə yazır ki, İlham Əliyev addım-addım Zəngəzura yaxınlaşır: "Mehrini vahimə bürüyüb. Orada yaşayan xalam oğlu deyir ki, bir də ayılacağıq ki, İlham Əliyevin maşın karvanı Zəngəzurun, evimizin yanından keçərək Naxçıvana gedir. Acı həqiqət olsa da, vurğulayaq ki, Azərbaycan Zəngəzura qayıtmağa çox yaxındır. Ermənistanı İlham Əliyev qarşısında kim məğlub duruma saldı?"

Arut Xaçatryan adlı bir nəfər tviterdə belə bir paylaşım edib: "Biz hələ də anlaya bilmirik ki, İlham Əliyevin fəaliyyətindən niyə Paşinyan nəticələr çıxara bilmir? Azərbaycana müharibə elan edirik, Qarabağı itirdik, indi də Zəngəzur əldən gedir. Sülh müqaviləsi bağlanılsaydı, canımızdan da qorxu çıxardı".

### "Xalqın taleyi Yerevandakıları maraqlandırmır"

Feysbuk sosial şəbəkəsində Azərbaycan Prezidentinin "Hazırda Qarabağda yaşayan erməni əhalisinin əksəriyyəti Azərbaycan vətəndaşlığını qəbul etməyə hazırdır" çıxışı ilə paylaşılan xəbərə münasibət bildirən, profil səhifəsində Xankəndidə bank sektorunda çalışdığı yazılan Varan Qriqoryan adlı istifadəçi isə qeyd edir ki, müharibədən sonra çox düzgün addımlar atmalıyıq: "Müharibədən sonra yaranan iqtisadi böhran Stepanakertdə (red.Xankəndi) insanları acınacaqlı vəziyyətlə üz-üzə qoyub. Evlərini satanlar, hətta intihar edənlər də olub. Xalqın taleyi Yerevandakıları maraqlandırmır. İlham Əliyevin vətəndaşlıq çağırışına "hə" deyirəm. Xilas yolumuz İlham Əliyevdədir".

Tviter sosial şəbəkəsində rəy bildirən Simon Qriqoryan adlı istifadəçi isə yazır: "Babam deyirdi ki, türklərlə (red.azərbaycanlılar) çox yaxşı münasibətlərimiz olub. Bu gün uşaqlarım niyə acından ölməlidir? Ailəmiz adından deyirəm ki, Azərbaycan vətəndaşı olmağa razıyıq. Qarabağda ağır məğlubiyyətə uğradıq, susduq. Yeməyə çörək də tapmırıq, niyə zülmə məruz qalmalıyıq?"

Beləliklə, indi seçim Qarabağın erməni əhalisindədir. Ermənistan rəhbərliyi separatçı dəstələrin vasitəsilə əhaliyə qarşı qorxu, xof siyasətini davam etdirərsə, onda ordumuz tərəfindən daha sərt zərbələrə məruz qalacaq.

*Elçin CƏFƏROV,*
*"Azərbaycan"*


# OXUCULARIN NƏZƏRİNƏ!

**"AZƏRBAYCAN"** *qəzetinə abunə yazılışı davam edir!*

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *"Azərpoçt" MMC* | *(012) 598-49-55, (051) 225-02-13* |
| *"Azərmətbuatyayımı" ASC* | *(012) 441-19-91, (050) 322-33-17* |
| *"Qaya" firması* | *(012) 566-77-80, (050) 214-40-53* |
| *"Region Press" MMC* | *(055) 316-79-01, (050) 316-79-01* |
| *"Səma-M" MMC* | *(012) 594-09-59* |
| *"Ziya" LTD* | *(012) 497-76-96, (050) 306-77-22* |
| *"Pressinform" MMC* | *(012) 598-49-52, (070) 340-01-00* |
| *"City press" MMC* | *(055) 819-09-26* |



**1 illik -124,80** (yüz iyirmi dörd manat səksən qəpik) **manat**
**6 aylıq - 62,40** (altmış iki manat qırx qəpik) **manat**
**3 aylıq - 31,20** (otuz bir manat iyirmi qəpik) **manat**

**Hörmətli oxucular!**
*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, (012) 539-59-33 nömrəli telefona zəng vura bilərsiniz.*


# COVID-19 yeni ştamları ilə qayıdır



Dünyada 6 milyondan çox insanın ölümünə səbəb olan COVID-19 virusu mutasiyaya uğramağa və yayılmağa davam edir. Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) məlumatına görə, Omikronun yeni alt variantı olan "Arktur" ştamı 29 ölkədə artıq təsdiqlənib.

Azərbaycanın bu siyahıda olmaması sevindirici haldır. Qarşıdan bayram günlərinin gəldiyini, bununla əlaqədar ölkələrarası gediş-gəlişlərin sayının artacağını, habelə bu ərəfədə insanların daha sıx ünsiyyətdə olacağını nəzərə alaraq mütəxəssislər hər kəsə tədbirli olmağı, ehtiyatı əldən verməməyi tövsiyə edirlər.

### Hindistanda 50 min insan "Arktur"a yoluxub

Yeni subvarianta ilk dəfə Hindistanda rast gəlinib. Daha sonra ABŞ, Avstraliya, Yaponiya, Cənubi Afrika, İsrail, Böyük Britaniya, Almaniya, İspaniya, Tailand, Çin və digər ölkələrdə də virusa yoluxma halları aşkarlanıb.

"Artktur"un əlamətləri digər ştamlardan nisbətən fərqlənir. Xəstəlik yüksək hərarət, öskürək, göz qaşınması, qızarması və sulanması ilə müşahidə edilir. Bu əlamətləri ilə o, göz xəstəliyi olan və daha çox uşaqlar arasında yayılan konyuktivitə bənzədilir. ÜST bildirir ki, digər ştamlardan 2 dəfə daha yoluxucu olan yeni subvariantın patogenliyi azdır. Yəni xəstəliyin gedişatı yüngüldür.

Əhali sayına görə ilk sırada olan Hindistanda 50 min insan yeni ştama yoluxub. Yalnız bir gündə 11109 yeni yoluxma halı aşkarlanıb. Bu indiyədək ölkədə bir gündə qeydə alınan ən böyük artımdır. Artıq ölkənin bəzi bölgələrində yenidən məcburi maska rejimi tətbiq edilib. Mütəxəssislər hesab edirlər ki, "Arktur"un qarşısı zamanında alınmasa, bu çox təhlükəli nəticələrə səbəb ola bilər. Belə ki, digər subvariantlardan daha aqressiv olan yeni ştamın sürəti indiki kimi davam edərsə, o, tezliklə dominant olacaq.

Hindistandan sonra yeni ştama yoluxma sayı ən çox Rusiya və Böyük Britaniyada müşahidə edilir. Buna baxmayaraq, bu ölkələrdə hələ ki, yeni subvariantın aşkarlanması ilə əlaqədar hər hansı antiepidemik məhdudiyyətlər tətbiq olunmur.

### Virusun heyvanlardan keçmədiyi ilə bağlı iddialar var

Çin tədqiqatçıları COVID-19-un ilk dəfə ortaya çıxdığı Uhan şəhərindəki dəniz məhsulları bazarında araşdırmalar aparıblar. Alimlər heyvanlardan və ətraf mühitdən toplanan 1300-dən çox nümunələrdən istifadə edərək virusun heyvanlardan deyil, insanlardan yayılma ehtimalının yüksək olduğunu bildiriblər. Onlar tədqiq edilən 457 heyvan nümunəsinin heç birində virusa rast gəlinmədiyini vurğulayıblar.

İndiyədək COVID-19 virusunun heyvanlardan insanlara keçdiyi ilə bağlı fərziyyələr irəli sürülürdü.

### Azərbaycanda epidemioloji vəziyyət qənaətbəxşdir

Hazırda ölkəmizdə COVID-19-la bağlı epidemioloji vəziyyət stabil hesab edilir. Son həftələrdə meydana çıxan və yüksək yoluxuculuğu ilə seçilən "Arktur" ştamı Azərbaycanda aşkarlanmayıb. Epidemioloji vəziyyətin mənfiyə doğru dəyişməməsi üçün ölkəmizdə vaksinasiya prosesi bu gün də davam etdirilir. Məhz uğurlu peyvəndləmə nəticəsində virusa yoluxanlar bu gün də xəstəliyi yüngül keçirir, ölüm hallarına az rast gəlinir.

Mütəxəssislər tövsiyə edirlər ki, yoluxmaların artmaması üçün simptomlar müşahidə edildiyi təqdirdə xəstələr özlərini təcrid etsinlər. Vətəndaşların sosial məsafəyə və gigiyena qaydalarına riayət etmələri önəmlidir. Virus tez-tez mutasiyaya uğradığından vəziyyəti stabil saxlamaq çətindir. Ona görə də COVID-19-a tamamilə qalib gəlmək üçün diqqətli və məsuliyyətli olmaq lazımdır.

*Ülkər XASPOLADOVA,*
*"Azərbaycan"*

# Əfqanıstan iqtisadiyyatı çökür

## Ölkə əhalisinin 85 faizi yoxsulluq həddini aşaraq dilənçi vəziyyətinə düşüb





Hazırda Əfqanıstan əhalisinin təxminən 85 faizi, yəni 34 milyon adam yoxsulluq həddində yaşayır. Bu barədə Birləşmiş Millətlər Təşkilatının İnkişaf Proqramının (BMTİP) dərc etdiyi "Əfqanıstanın 2023-cü il üçün sosial-iqtisadi perspektivləri" adlı hesabatında məlumat verilir.

Sənəddə bildirilir ki, son 10 il ərzində yoxsulluğa yuvarlanan ölkə iqtisadiyyatı Taliban hərəkatı hakimiyyətə gəldikdən dərhal sonra artıq çökməyə başlayıb.

40 milyona yaxın əhalisi olan və 2021-ci ildə ÜDM-i 14,3 milyard ABŞ dolları təşkil edən Əfqanıstan indi dünya üzrə adambaşına düşən gəlirin ən aşağı olduğu ölkələr sırasındadır. Hesabata əsasən, ölkə əhalisinin təxminən 85 faizi yoxsulluq həddini də aşaraq demək olar dilənçi vəziyyətinə düşüb.

Məlumata görə, yoxsulluq içində yaşayan əfqanların sayı 15 milyon nəfər artaraq 2020-ci ildəki 19 milyondan 2023-cü ildə 34 milyona çatıb.

BMTİP-in hesabatında qeyd olunur ki, yaranmış açınacaqlı vəziyyətlə əlaqədar təqsirin böyük hissəsi taliblərin iki il öncə Əfqanıstanda hakimiyyəti ələ keçirməsi ilə bağlıdır. Buna görə də, 2021-ci ildə ölkələr Kabildəki Taliban hökuməti ilə işləməkdən imtina etdikdə, bir çox yardım proqramları kəsilib. Təbii ki, bu, iqtisadi böhrana səbəb olub. Hesabat müəlliflərinin fikrincə, həmin ilin avqustundan başlayaraq Əfqanıstanın ÜDM-i azalmağa başlayıb və ölkəyə yalnız bir neçə dövlətin humanitar yardımı ilə dəstək verilir. Ekspertlər hesab edirlər ki, bundan sonra yardımın 30 faiz azalması Əfqanıstanın ən yoxsul ölkəyə çevrilməsinə, Suriya, Sudan və digər ölkələrdən daha pis vəziyyətə düşməsinə səbəb olacaq və onun ÜDM-i mənfi artıma qayıdacaq.

Əfqanıstan yoxsulluq səviyyəsinə təsir etmək üçün ən azı 3 faiz artıma nail olmalıdır. 2023-cü ildə yardımın kəsilməsi ilə bu rəqəm tamamilə mənfi, 2024-cü ildə çox aşağı olacaq.

BMT-nin Əfqanıstandakı rezident nümayəndəsinin müavini Surayo Buzurukovanın dediyinə görə, bu il aprelin sonuna ölkəyə humanitar yardım planının yalnız 5 faizi maliyyələşdirilib: "Bizim təhlilimiz göstərir ki, ixrac artıb, idxal isə sabitləşib. Eyni zamanda məzənnə və inflyasiya sabit qalıb. Vəsait ancaq pul köçürmələri və narkotiklərin qanunsuz ixracından əldə edilir. Bunlar Əfqanıstanda qalanlara kömək etmək istəyən xaricdəki qohumların köçürmələri, habelə diaspor dəstəyidir. Əksər hallarda bunlar Pakistan, Hindistan və Birləşmiş Ərəb Əmirliklərində işləyən əfqanlardan gələn pul köçürmələridir".

BMT-nin 2023-cü ildə Əfqanıstana 4,6 milyard dollar həcmində beynəlxalq yardım çağırışı, kəskin ehtiyacı olan əfqanlara kömək etmək üçün lazım olan minimum məbləğdir.

Beynəlxalq təşkilatın hesabatında vurğulanır ki, humanitar yardımda istənilən azalma Əfqanıstanın iqtisadi vəziyyətini daha da pisləşdirəcək və bundan sonra ölkədə onilliklər ərzində davam edəcək ifrat yoxsulluğa gətirib çıxaracaq.

*Rizvan CƏFƏROV,*
*"Azərbaycan"*

# ALLAH RƏHMƏT ELƏSİN!

Azərbaycan Respublikasının müdafiə sənayesi naziri Mədət Quliyev və nazirliyin kollektivi Azərbaycan Milli Paralimpiya Komitəsinin prezidenti İlqar Rəhimova atası

**ELXAN RƏHİMOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikasının müdafiə sənayesi naziri Mədət Quliyev və nazirliyin kollektivi ADA Universitetinin prorektoru Fariz İsmayılzadəyə atası

**AKİF İSMAYILOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Bakı Şəhər Mənzil-Kommunal Təsərrüfatı İşçilərinin Həmkarlar İttifaqı Komitəsi Sahibkarlıq, Özəl Elm və Yüngül Sənaye İşçiləri Həmkarlar İttifaqı Respublika Komitəsinin sədri

**MƏHƏMMƏDƏLİ SALMANOVUN**

vəfatından kədərləndiyini bildirir, mərhumun ailəsinə və Respublika Komitəsinin kollektivinə dərin hüznlə başsağlığı verir.

---

Bakı Biznes Universitetinin kollektivi ADA Universitetinin prorektoru Fariz İsmayılzadəyə atası

**AKİF İSMAYILOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Respublikası Əqli Mülkiyyət Agentliyinin rəhbərliyi və kollektivi ADA Universitetinin prorektoru Fariz İsmayılzadəyə atası

**AKİF İSMAYILOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikası Əqli Mülkiyyət Agentliyinin rəhbərliyi və kollektivi Azərbaycan Respublikası Milli Paralimpiya Komitəsinin prezidenti İlqar Rəhimova atası

**ELXAN RƏHİMOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Hacı Əhməd, Rza, Müstəqim, Mircəfər və Mircəlil İsmayılovlar, Əli, Rafiq, Mobil, Hacı Müşfiq və Nail Hüseynovlar, İlham, Vüqar və Tural İbrahimovlar, Xəlil, Zöhrab, Namiq və Zəfər Azadovlar Hüseyn və Cəmil İsmayılovlara qardaşları

**SƏLİM MÖHÜBBƏT OĞLU İSMAYILOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.


BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Əlaqə telefonları:

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Baş redaktor müavinləri | - 538-86-86, 434-63-30, 539-72-39 | Humanitar siyasət şöbəsi | - 538-56-60 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Fotoillüstrasiya şöbəsi | - 538-84-73, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Kompüter mərkəzi | - 538-20-87, |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, | Mühasibatlıq | - 539-59-33 |

*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, "Azərbaycan" nəşriyyatı, IV mərtəbə*

contact@azerbaijan-news.az
az.reklam@mail.ru



www.azerbaijan-news.az

Qeydiyyat № 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir

Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır

Gündəlik rəsmi dövlət qəzeti

Tiraj 5628
Sifariş 965

Qiyməti 40 qəpik